SEYFƏDDİN QƏNİYEV
TARİYEL QƏNİ



# CƏFƏRZADƏLƏR OCAĞI -
# ƏHMƏD CƏFƏRZADƏ

**SEYFƏDDİN QƏNİYEV**
**TARİYEL QƏNİ**

# CƏFƏRZADƏLƏR OCAĞI –
# Əhməd Cəfərzadə

**Redaktor:** **Məhərrəm QASIMLI**
*fil. ü.e.d., professor*

**Rəyçilər:** **Elxan MƏMMƏDLİ**
*filologiya üzrə fəlsəfə doktoru*

**Mənsurə İSMAYILOVA**
*pedaqogika üzrə fəlsəfə doktoru*

*Kitabda filologiya elmləri doktoru, şair, nasir, gözəl pedaqoq, publisist, tərcüməçi, ötən əsrin 40-50-ci illərində represiyanın qurbanı olmuş Əhməd Cəfərzadənin ömür yolu Sibirdə –sürgündə keçirdiyi əzablı illəri, pedaqoji sahə və elm aləmindəki uğurları, folklor sahəsindəki xidmətləri işıqlandırılmış, şeirləri, nəsr əsərləri və topladığı folklor nümunələri ilk dəfə oxuculara çatdırılmışdır.*

## Ön söz

Min ildən artıq qüdrətli Şirvanşahlar dövlətinin paytaxtı olmuş qədim Şamaxı şəhəri həm poeziya, muğam, aşıq, dini, pedaqoji, ticarət və həm də elmi mühit kimi bütün Yaxın Şərqdə məşhur olmuşdur. Apardığımız araşdırmalar nəticəsində mənbələr, şəxsi arxivlər, qədim əlyazmalar əsasında müəyyənləşdirmişik ki, XI əsrdən üzü bu yana Şirvan bölgəsində yaşayıb-yaratmış elm adamlarının sayı min nəfərdən artıq olmuşdur. XII-XIX əsrlərdə yaşamış Şirvan nisbəli alimlərin bir çoxunun sorağı Yaxın Şərq, Orta Asiya və Misirdən, hətta uzaq Hindistandan gəlir. Müxtəlif səbəblər ucundan qərib ölkələrdə məskunlaşmış həmin istedad sahibləri uzaq ellərdə "Şirvani" nisbəsi ilə məşhur olmuş, sevilmişlər. Şamaxının belə istedadlı övladları barədə vaxtilə yazdığımız **"Şamaxı", "Şamaxı alimləri, elm fədailəri", "Şirvanilər"** seriyası ilə çap etdirdiyimiz otuz kitabda bəhs etmişik.

Apardığımız tədqiqatlar zamanı onu da müəyyənləşdirmişik ki, elm mərkəzi olan Şamaxıda elə ailələr olmuşdur ki, həmin evdə-ocaqda iki-üç, bəzən də daha çox elm biliciləri, sərrafları yetişmişdir. Kafiyəddin Ömər ibn Osman, oğlu Vəhiyyəddin, Hacı Zeynalabdin Şirvani, qardaşı Hacı Məmmədəli Şirvani; **Ünsizadə qardaşları** – Səid, Cəlal, Kamal; Mahmudbəyovlar – Mahmud bəy, Həmid bəy, Böyük bəy, Ağalar bəy, Şamil bəy, Bəylər bəy; **Əlizadələr** – Ağasəməd, Əliəşrəf, Sənan; **Salamzadələr** – Əbdulvahab, Musa; **Abdullayevlər** – Əlövsət, Şakir, Sənubər, **Mikayılovlar** – Nurqələm, Aləm, Elxan və başqaları öz dəyərli elmi əsərləri, ixtiraları, imzaları ilə təkcə Azərbaycanda deyil, hətta xarici ölkələrdə də tanınmışlar...

Öz tədqiqatları ilə elmimizə töhfələr verən belə alimlər ocaqlarından biri də **Cəfərzadələr ocağıdır**; Əzizə Cəfərzadə, Məmməd Cəfərzadə, Əhməd Cəfərzadə. Bu ziyalılar ötən əsrin

40-cı illərindən sonra Şirvan ədəbi, elmi, folklor mühiti ilə bağlı ciddi tədqiqatlar aparmış, neçə-neçə monoqrafiyalar yazmışlar. Həmin istedadların həyatı, ömür yolu, elmi, pedaqoji fəaliyyəti, araşdırmaları barədə ayrı-ayrı üç monoqrafiya hazırlamış, qədirbilən oxuculara alimlərin doğmalarına tezliklə çatdırmağı nəzərdə tutmuşuq:

1. Cəfərzadələr ocağı – Əzizə Cəfərzadə
2. Cəfərzadələr ocağı – Əhməd Cəfərzadə
3. Cəfərzadələr ocağı – Məmməd Cəfərzadə

İlk əvvəl bu monoqrafiyanın birini – "Cəfərzadələr ocağı – Əhməd Cəfərzadə"ni oxuculara təqdim edirik...

**Haşiyə:** Qədim Şamaxıdan, təxminən, 40 km cənub məsafədə, Pirsaat çayının Ləngəbiz dağı ilə salamlaşan, görüşən yerində, Güngörməz dağına baxan səmtində bir kənd bardaş qurmuşdur – Tağılı kəndi... Türk-müsəlman ənənələri ilə oturub-duran bu eldə belə istedadlı insanlar çox olmuşlar.

Ötən əsrin ikinci yarısından Azərbaycan elmi, ədəbi mühiti, dilçiliyi, pedaqoji aləmdə xüsusi çəkisi olan, elin-obanın adına-sanına şərəf gətirmiş bu alimlər sırasında Cəfərzadələr xüsusi yer tutmuşlar. Respublikamızın bu qüdrətli alimləri – iki qardaş və bir bacı neçə ki, qədim Tağılı kənd qəbristanlığında uyuyurlar. Bu üç alimdən sözsüz ki, azı birinin – xalq yazıçısı, professor, "Şərəf" nişanı, "Şöhrət" ordenli Əzizə xanımın da Bakıda Fəxri xiyabanda dəfn olunmağa statusu çatırdı. Amma o, gözü-könlü tox, şöhrət nə olduğunu bilməyən Əzizə xanım bütün doğmalarına çox əvvəldən vəsiyyət etdi: "Məni Fəxri xiyabanda (təkid etsələr də) yox, doğma torpağım, tutiyə bildiyim Şirvanda – ata-anamın, alim qardaşlarımın uyuduğu Tağılı qəbristanlığında dəfn edərsiniz. Yoxsa, ruhum sizləri bağışlamaz..."

Bəli, hər birinin ömür yolu maraqlı bir dastan olan üç alim – Əzizə xanım, Əhməd, Məmməd hal-hazırda bu qədim qəbiristanlıqda yan-yana uyuyurlar...

Hər üç professorla Şirvanlı, həmyerli kimi uzun illər dost, qardaş, yaxın – xeyir-şərimizdə bir ailə kimi olmuşuq. Xeyir-şərimiz bir olmuşdur. İndinin özündə də övladları, nəvələri ilə bir ailə kimiyik... Onların məsləhəti, tövsiyəsi ilə Şirvan ədəbi, pedaqoji, musiqi, dini mühiti, tarixinə aid 50-dən çox kitab yazmışam.

Onun İran, Türkiyə, Orta Asiya, Leninqrad, Moskvadan gəlmiş qonaqlarını, dostlarını (Yusif Gədikli, Əlirza Minayəli, Saplaq, Mariya İvanovna, Mahmud Nurəliyev, Niyazi Atayev, Sveta Sosiyeva və b.) Şamaxını – Sabir, S.Ə.Şirvani, A.Səhhət yurdunu dəfələrlə gəzdirmiş, tanış etmişəm.

Bir sözlə, uzun illər ərzində üç elm fədaisi – alim, yazıçı, şair, pedaqoqlardan müfəssəl bilgilər əldə etmişəm. Bu yaxınlıq, doğmalığa görə alimlərin ömür yolunu **"Biz Cəfərzadələr"** seriyasında üç kitab oxuculara çatdırmağı qərara almışıq".

Daha yaxın olduğum, sirlərininin çoxsunun ancaq mənə çatdığı Əhməd əminin əzablı ömür yoluna həsr etdiyim trilogiyanın birinci kitabını – "Cəfərzadələr ocağı – Əhməd Cəfərzadə"ni oxuculara təqdim etməklə həm qürur duyur, həm də bu ocağa olan hörmət, izzətimizi ifadə etməklə sevinirəm...

**2004-2010**
**Hacı Seyfəddin QƏNİYEV**

## BİR NAĞILDI ƏHMƏD CƏFƏRZADƏNİN ÖMÜR YOLU...

Kərbəlayi Məmməd və Böyükxanım Kərbəlayi Əliheydər qızının **yeddi övladı** olmuşdur. Bu barədə Məmməd Cəfərzadə yazır: "Birinci bacımızın adı Nurcahan... körpə olanda ölüb. İkinci Əzizədir. Üçüncü qardaşımız Cəfərdir... İki il yaşayıb. Dördüncü uşaq mənəm, beşinci Əhməddir. Sonra gələn Validə və Əliheydər çətin dövrü görüb yaşamaq istəməyiblər, körpə ikən həyatdan gediblər".

**Haşiyə:** Əhmədin atası Məmməd Cəfər oğlu əslən şamaxılıdır, ticarətlə məşğul olmuşdur. Özü də "şeir-sənətə həvəs göstərmiş, ədəbiyyat və musiqi ilə maraqlanmış, ara-sıra şeirlər yazmışdır. Lakin onun şeirlərinin bircə misrası belə bizə gəlib çatmamışdır. Məlum 1937-1938-ci il hadisələri zamanı **Böyükxanım** ərinin əlyazmalarının bir qismini ələ keçməmək üçün evin divarına hörüb gizlətmiş, bir qismini isə yandırmışdır. Əhmədin anası Böyükxanım da əslən Şamaxıdan olmuşdur... Özü də Şamaxı xanı Mustafa xanın nəslindəndir. Əsl adı Zeyvənisə xanım olub; "nənəmizin adı Mustafa xan nəslindən olan nənəsinin adı olduğundan Böyükxanım çağırılıb..."

Övladlarının hər üçünün tərbiyə və təhsilində onun böyük rolu olmuşdur. Eləcə də, ögey anaları **Məşədi Xeyri Xankişi qızının** da...

***

Əhməd Kərbəlayi Məmməd oğlu atası barədə xatirələrində yazır: "Atam doğulanda ona Məmmədbağır adı verirlər. Lakin uşaqlıqdan Məmməd çağırılır. Kiçik ikən atası onu özü ilə Məşhədə aparır, sonralar o, Əliheydər babamgillə Kərbəlaya gedir. Odur ki, cavanlıqda ona gah **"Məşədi Məmməd"**, gah da **"Kərbəlayi Məmməd"** deyiblər.

***

Əhməd Məmməd oğlu Cəfərzadə 1929-cu ilin yanvar ayında Bakı şəhərində doğulmuşdur. Əhməd uşaq yaşlarında Bakıda anasının himayəsində yaşamışdır. Bu barədə o, yazır: “1928-ci ildən sonra atamız daimi olaraq Tağılıda, anamız isə Bakıda yaşayıb... Böyük yazıçı C.Məmmədquluzadənin **“Xatiratım”**da yazdığı kimi, ilk eşitdiyim (və uzun illər eşidəcəyim) söz **“Allahu Əkbər”**, ilk gördüyüm şey – namaz qılınması olub. Evimizdə ancaq hədislər, rəvayətlər danışılır, möcüzələr, dini məsələlər şərh edilir, salavat verilir, şəkkakə Yezidə, Şümrə, müşriklərə lənət deyilirdi və s. **(1, 295)**”.

O, ilk tərbiyə və təhsilini dini biliklərə dərindən vaqif olan nənəsi Seyyid Rübabə[1] və anasından almışdır. Doğmaları folklorumuzun biliciləri, **sinədəftər** insanlar olmuşdur. Ona görə də balaca Əhməd uşaqlıqdan onların söylədiyi şeirləri əzbərləmiş, nağılları öyrənmişdir. Ədəbiyyata marağı və həvəsi həmin illərdən başlanmışdır. Balaca Əhməd 1934-1936-cı illərdə Bakıda uşaq bağçasında tərbiyə almış, sonra Bakı şəhərindəki **13 saylı** məktəbin birinci sinfinə daxil olmuşdur.

Anası Böyükxanım 1937-ci ildə Bakıda “qısa müddətli” bağça müdiri kursuna daxil olur. Kursu bitirdikdən sonra o, **Göyçay rayonunun Yeniarx kəndindəki** uşaq bağçasına müdir təyin olunur. Əhməd də anası ilə oraya gedir. Əhməd müəllim bu barədə xatirələrində yazır: “Nahardan sonra anam uşaqlara nağıl danışardı. Ana o qədər təbii, sadə, şirin, nəfəsli danışardı ki, yaşlı adamların çoxusu hər gün gəlib anamın söylədiyi nağıl, lətifələrə maraqla qulaq asırdılar...” **(1, 296)**. “Hər bazar günü meşələrə meyvə yığmağa gedirdik. Onda Ucarla Göyçayın arası meşəlik idi; alça, gavalı, armud, əzgil, alma, zoğal və s. yığardıq. Meşədə vəhşi heyvan çox idi. Ana

[1] Seyyid Rübabə Mirağası qızı – Şirvan xanı Mustafa xanın qız nəvəsi olub

çox cəld idi; ən hündür ağaclara çıxıb qoz çırpardı. Xeyli lavaşana, quru turşu, qax, qoz və mət turşu düzəltmişdik, bir qədər yarma, quyruq yağı, yemiş qurusu və s. əldə etmişdik... Bunlar hamısı qış ehtiyatı idi. Yaxşı yadımdadı, həmin yay Əzizə Gəncədə qiyabi pedaqoji texnikumda sessiyada idi. Bir dəfə yanımıza gəlib 1-2 gün qaldı. Beləcə beş ay keçdi. Ana darıxdı, payızda kənd şəraiti ağır oldu, dözə bilmədi və biz Bakıya qayıtdıq" **(1, 297)**...

...Əhməd 1940-cı ildə bacısı və yeznəsilə birlikdə Uzaq Şərqin Xabarovsk şəhərinin yaxınlığındakı hərbi şəhərciyə gedir. O, 1940-1941-ci tədris ilində oradakı rus məktəbində təhsil alır. Nəhayət, Əhməd 1941-ci ilin iyun ayında bacısı Əzizə xanımla Bakıya qayıdır, **173 saylı** orta məktəbdə təhsilini davam etdirir. Bir qədər sonra Əzizə xanımı **Ağsu rayonunun Çaparlı kəndinə** müəllim təyin edirlər. Əhməd də ailələri ilə birlikdə həmin kəndə köçür və bir müddət həmin məktəbdə oxuyur. 1944-cü ildə onların ailələri yenidən Bakıya qayıdır. Əhməd bu illərdən bədii yaradıcılıqla məşğul olur – şeir yazmağa başlayır.

1945-ci ildə Bakı teatr texnikumuna daxil olur. Bu o zamanlar idi ki, Azərbaycan teatr tarixində önəmli yer tutmuş görkəmli sənətkarlar – **Kazım Ziya, Fatma Qədri, Mehdi Məmmədov, Kərim Həsənov, Əjdər Sultanov** və başqaları həmin texnikumda dərs deyirdilər. Əhməd bu qüdrətli sənətkarlardan ilk dərs alır, onlardan teatr sənətinin sirlərini öyrənir. Ən nəhayət, o, Gənc Tamaşaçılar Teatrında təcrübə keçir və 1948-ci ildə Teatr texnikumunda təhsilini başa vurur... Amma teatrda çalışmır...

**Haşiyə:** Əhməd Cəfərzadənin şəxsi arxivində çox maraqlı və dəyərli bir siyahı da vardır. Həmin siyahıda Əhməd Cəfərzadənin teatr texnikumundan başlayaraq sonrakı illər ərzində tanış olduğu, yoldaşlıq etdiyi, elmi əlaqələr saxladığı, məktublaşdığı **şair, yazıçı, aktyor, aşıq, xanəndə, alim, jur-**

**nalist, xanəndə, din xadimləri, müəllimlər, vəzifəli şəxslər, sinədəftər insanlardır:** Həmin insanların yazdığı məktubların həcmi azı iki yüz səhifəlik kitaba bərabər olar. Aktyorlardan – **Kazım Ziya, Fatma Qədri, Əjdər Sultanov, Mehdi Məmmədov, Ağadadaş Qurbanov, Susanna Məcidova, Osman Hacıbəyov, Sidqi Ruhulla, Tamara Paşazadə, Əliağa Ağayev, Kərim Həsənov, Sona Hacıyeva, Əzizə Məmmədova, Hüseynağa Sadıqov, Cəvahir İsgəndərova, Süleyman Ələsgərov, Münəvvər Kələntərli, Qənbər Zülalov, Lütfəli Abdullayev...** Alim, şair və yazıçılardan – **Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə, Novruz Gəncəli, Adil Babayev, İsmayıl Soltan, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Nəsibə Zeynalova, Ilyas Tapdıq, Ibrahim Göyçaylı, Süleyman Rəhimov, Səməd Vurğun, Abdulla Şaiq, Əli Tudə, Balaş Azəroğlu, Mədinə Gülgün, Zeynəb Xanlarova, Maral Rəhmanzadə, Nəcəfqulu, Güllü Mustafayeva, İsgəndər Etibar, Hökumə Sultanova, Həmid Araslı, Feyzulla Qasımzadə, Məmməd Arif, Cahangir Qəhrəmanov, Budaq Budaqov, Kamal Talıbzadə, Kamran Məmmədov, Əkrəm Cəfər, Məmmədhüseyn Təhmasib, Məmmədağa Sultanov, Fazil Seyidov, Ələviyyə Babayeva, Əvəz Sadıq, Əbülhəsən, Qulam Məmmədli, Aşıq Hüseyn Cavan, Abbas Zamanov, Bəkir Nəbiyev, Əziz Şərif, Qurban Musayev, Qulamrza Cəmşidi, Əzizağa Məmmədov, Əyyub Abbasov, Əli Sultanlı, Ənvər Əlibəyli, Əlfi Qasımov, Məmməd Aslan, Mövlud Süleymanlı, Gəray Fəzli, İbrahim Kəbirli, Rəfiqə Hüseynova, Mirvarid Dilbazi, Məmmədəli Əsgərov, Mikayıl Rzaquluzadə, Mirzə Müştaq, Mir Cəlal, Fəridə Əliyarbəyli, Tərlan bəy Əliyarbəyov, Fikrət Qoca, Fikrət Sadıq, Cahangir Məmmədov, Xalid Əlimirzəyev, Həsən Qasımov, Hüseyn Abbaszadə, Cəfər Xəndan, Cəlal Məmmədov.** Aşıqlardan – **Pənah, Şakir, Şamil, Barat, Əliağa, Qurbanxan, Bəylər, Abbas, Şahpələng, Baba,**

**Əhməd, Rza, Bəybala, Yanvar, Məmmədağa, Xanmusa, Xanış, Şərbət** və başqalarından alınan məktublar hazırda alimin şəxsi arxivinin ən dəyərli eksponatlarındandır.

Əhməd elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinə daxil olur. Birinci kursu bitirəndə Şamaxı rayonunun Tava kəndində mütəxəssis olmadığı üçün onu həmin məktəbə **rus dili müəllimi göndərirlər**.

Ədəbi yaradıcılıqla məşğul olan müəllim 1951-ci ildə rayonun Cəngən kənd məktəbinə köçürülür. O, 1953-cü ilin mart ayına kimi orada işləyir...

***

**Haşiyə:** Böyük Vətən müharibəsindən sonra əyalətlərdə özbaşınalıq, haqsızlıq hökm sürürdü, kəndlilər əzab-əziyyət içində yaşayırdılar. Xalqın sözünü deyən, onun səsini yuxarılara çatdıran ziyalılar yerlərdə təqib olunmağa başlayır. Əhməd müəllim də belə insanlardan idi. Bu dövrdə Əhməd müəllimin yazdığı şeirlərdə kəndlərində insanlara adicə qayğının olmaması – kitabxana, xəstəxanaya ehtiyacın olması tənqid olunurdu və yaxud, elin belə dərd-sərlərini yeri gələndə Əhməd müəllim **"yuxarılara"** çatdırırdı. Kənddə savadlı insanlar olmadığı üçün, çoxları ona müraciət edir və ərizələrini də ona yazdırırdılar. Ona görə də kənd aktivləri – **sədr, komsomol, partkom, briqadir** və b. Əhməddən narazı idilər. Əhmədin adının ləkələnməsi, camaat arasında nüfuzdan düşməsi üçün "dəridən-qabıqdan" çıxırdılar.

Əhməd müəllim vaxtilə kənddə baş vermiş bir özbaşınalıq haqqında həmişə ürək ağrısı ilə danışardı:

"...Bir neçə ay əvvəl kənd camaatı yığılıb raykom katibinin özbaşına hərəkətlərindən MK-ya şikayət ərizəsi yazmışdılar. Arxası bağlı olan raykom katibi əhalinin gözünün odunu almaq, ağızlarını bağlamaq üçün bir komissiya çağırtdırır və kəndin ağsaqqalı, hörmətli Seyid Mir Sadıq Ağanı qaralayır. Beləliklə, iclas çağırıb qərar çıxarırlar ki, Seyid Mir Sadıq

minimum əmək gününü yerinə yetirmədiyinə görə Qazaxıstana sürgün edilməlidir. Bu qərarı səsə qoyanda, "Kim **"vısılka"** tərəfdarıdırsa, əlini qaldırsın!" **"Vısılka"** sözünün mənasını başa düşməyən kənd camaatı bir-birinə baxıb yuxarıdan gələnlərə hörmət əlaməti olaraq əllərini qaldırırlar. O saat Seyid Mir Sadıq Ağanı tutub maşına sarı aparanda Əhməd müəllim heç nəyi fikirləşmədən tez özünü irəli atır. Yuxarıdan gələnlərin birinin qolundan tutub çəkinmədən, cürətlə deyir:

– "Bu səsvermə düz olmadı. Avam kənd camaatı **"vısılka tərəfdarıdır"** ifadəsinin mənasını başa düşməyib əl qaldırıblar. Qoyun, camaatı mən öz dillərində başa salım". Bunu gözləməyən rəhbərlər çaşıb qalırlar. Bu zaman Əhməd müəllim üzünü camaata tutub xəbər alır:

"Ay əziz camaatım, siz istəyirsiniz ki, **el ağsaqqalımızı – Seyid Mir Sadıq Ağanı tutub həmişəlik kəndimizdən Qazaxıstana qovsunlar"?**

Camaat donub qalır. Onda Əhməd müəllim daha cəsarətlə deyir: "Kim Seyid Mir Sadıq Ağanın kənddən qovulmasını istəyirsə, əlini qaldırsın". İşi başa düşən insanlardan heç kim əl qaldırmır...

Beləliklə, Əhməd müəllim bu ədaləti ilə özünə kənd arasında **böyük hörmət, aktivlər içində düşmən qazanaraq** qəsdən təşkil olunmuş iclasın işini pozur... Əhməd müəllimi alqışlayanlar çox olur...

...Bu hadisədən sonra kəndin, rayonun **"rəhbərləri"** tərəfindən Əhməd müəllim daha ciddi şəkildə qaralanmağa, təqib olunmağa başlayır. Hətta kənd sovetinin "pul ilə ələ aldığı adamlar" Əhməd müəllimə rus dilini bilmədikləri üçün öz adlarından yuxarılara rus dilində şikayət ərizələri yazdırırlar. Komissiya gəlib həmin insanları dindirəndə onlar: "Ərizəni Əhməd müəllim yazıb, biz rus dilini bilmirik, aldadıb qol çəkdirib". Bir sözlə, bütün bunlar Əhməd müəllimi **tutmaq üçün qəsdən təşkil olunmuş böhtanlar idi...**

***

Bu illərdə Əhməd müəllim 18-20 yaşında cavan rus dili müəllimi idi. Rus dilini Udulu sovetliyində, o zaman bir-iki, az-maz adam bilərdi, ya yox. Əhməd müəllim isə bu dili nisbətən yaxşı bilirdi. Ona görə də rayon rəhbərliyi müəllimdən ehtiyat edirdi. Kənddə iclasın **"baykot"** edilməsinə görə kənd aktivlərinin də rayon rəhbərliyi yanında hörməti heçə enmişdi. Odur ki, kənd aktivləri belə qərara gəlirlər ki, Əhməd müəllim aradan götürülməli və ya **"başı qarışdırılmalıdır"**. Odur ki, həmin insanlar ilk əvvəl Əhməd müəllimin **"dostlarından"** kimisə ələ almağı qərara alırlar... Ən nəhayət, kənd soveti əl altından öyrənə bildi ki, Əhməd müəllim quruluşu, hətta ölkə başçısını da dolayı yolla tənqid edən şeirlər yazır. Odur ki, çalışırlar namərdlər həmin şeirlərdən, heç olmasa, bir-ikisini əldə etməyə. Ən nəhayət, istəklərinə çata bilirlər...

**Haşiyə:** Əhməd müəllimin dediyi kimi, o da əvvəllər Səməd Vurğun üslubuna üstünlük vermişdir. Saf məhəbbətin tərənnümü, təbiətin gözəlliyi onun şeirlərinin əsas mövzusu olmuşdur. Amma Böyük Vətən müharibəsindən sonra müəllimliyə başlayan şairin poeziyasının mövzusu da yavaş-yavaş dəyişir; kənddə əhalinin pis güzəranı, yaşayış tərzi şairin şeirlərinin tənqid hədəfi olur. Ona görə şair quruluşa qarşı etiraz səsini ucaltmaqdan çəkinmir...

Əhməd müəllim Stalin rejiminin hələ də tüğyan etdiyi 1948-50-ci illərdə öz tənqidi fikirlərindən əl çəkmirdi. Şeirlərində Stalini **"Yusif"** adı ilə tənqid etməkdən qorxmurdu. **"Qardaşlarım"** rədifli qoşmasında olduğu kimi:

Nə vəd etsələr bizə yalandı, qardaşlarım,
Oyanın, vaxt yetişib, amandı, qardaşlarım.
Onlar talan etdilər Şəki, Şirvan mülkünü,
Onlar yasaq etdilər muğamatı, türkünü,
Onlar "dahi" etdilər Yusif kimi tülkünü.
Vətənin hər guşəsi zindandı, qardaşlarım,

Elin vari-dövləti virandı, qardaşlarım.
**və ya:**

Tapdanırıq hər zaman,
Ayaqlarda nalıq biz.
Yoxdur hüquq dillənək,
Elə bil ki, lalıq biz.

**və yaxud:**

Çürüyür çoxları indi Sibirdə,
Keçir ömürləri cövrü cəbrdə,
Ölsək rahat olaq bəlkə qəbirdə,
Nə vuruşma qalıb, nə üsyan qalıb,
Nə təşkilat qalıb, nə meydan qalıb.

**yaxud da:**

İndi nə eləsən özün bilərsən,
Əhmədin qətlinə fərman verərsən,
Zaman keçər, bir də baxıb görərsən,
Taxtın sənin lap tarac olub, **Yusif**.

***

Əhməd müəllimin şəxsi arxivində saxlanılan şeirlərindən aydın olur ki, özünə bu qədər düşmən qazanmış müəllim gec-tez həbs olunacağını, **"gedər-gəlməzə"** göndəriləcəyini yaxşı bilirdi. Amma o, camaatın, elin-obanın danışan dili olmaqdan, 20-22 yaşı olmasına baxmayaraq, yeri gələndə onların sözünü, dərd-sərlərini bir ziyalı, müəllim kimi deməkdən çəkinməmiş… Səsini daha ucadan qaldırmışdır…

Əhmədi, cavan müəllimi gözü götürməyən “yerli ağaların qulları” nəhayət, həmin şeirlərdən əllərinə keçirə və yuxarılara çatdıra bilirlər…

***

Əhməd müəllim tam günahsız həbs olunması barədə vaxtilə belə deyirdi:

– Ürəyimdə bu rejimə qarşı böyük nifrət hissi vardır. Düzü bu nifrəti rayon rəhbərləri, eləcə də yaxınlar da bilirdi. Nifrətimi, narazılığımı şeirlərimdə çox aydın ifadə edə bilmişdim. Bilirdim ki, gec-tez məni tutacaqlar. Belə qərara gəldim ki, heç olmasa, **tutulana qədər şeirlərimi çap etdirim,** yoxsa 1937-1938-ci ildə məhv edilən qardaşlarımın əsərləri kimi bunları da yox edəcəklər. Bakıya yolum düşəndə məsləhət almaq üçün bir ziyalı ədibin yanına getdim. Bu insanı xalqını, vətənini sevən bir insan bilirdim. O, məni ətraflı dinləyəndən sonra şeirlərimlə yaxından tanış olmaq üçün şeirlər qovluğumu özündə saxladı. Sən demə, bu insan üzdə **“xalqını sevsə”** də, əslində bolşeviklərin agenti imiş (Əhməd müəllim həmin yazıçının adını doğmalarına bildirmiş, Dövlət Təhlükəsizlik Komitəsinin arxivləri açılandan sonra həmin adamın Əhməd barədə ərizəsi ilə çoxları, eləcə də Cəfərzadələr tanış olmuşdur… Mənə də bu hadisəni danışarkən “gör nə qədər sadəlövh olmuşam”, - deyə kövrəldi. Dönə-dönə onun adını heç vaxt, heç kimə açıqlamamağı mənə də tapşırdı. Mən də indiyədək hamı kimi susmuşam. Amma işarə ilə də olsa, onun kim olduğunu oxuculara deyəcəyəm – (**S.H.R.**)). Sən demə, elə səhəri gün o, ərizəsi ilə birlikdə şeirlər qovluğunu **DTK-ya** təqdim edir… Odur ki, bir neçə gün sonra DTK əməkdaşları Əhməd müəllimi **(1953-cü ilin mart ayında)** həbs edir. Onu dindirənlər əsasən ermənilər – **Abramov, Zaxaryan,**

**Melkumyan** kimi faşist xislətlilər olmuşlar (bütün hadisələr, onun **“Adsız”** əsərində təsvir olunmuşdur – **S.Q.**)[1].

Həbs olunmasının səbəbini Əhməd müəllim özü belə göstərir: “Həbs olunmağım üst-üstə düşən üç hadisə ilə bağlıdır. Birincisi, 37-ci ildən üzü bu yana o dövrün bütün faciələri gözümün qabağında baş verirdi. Adamların arasında gizli narazılıqlar dolaşır, amma, təbii ki, heç kəs sözünü ucadan deyə bilmirdi. Mən bu ümumi narazılığı əks etdirən bir qədər şeir yazdım. Şeirlərdə konkret olaraq Stalinin adı çəkilməsə də, fəhmli insanlar söhbətin kimdən getdiyini o saat başa düşürdü. **İosif adını** dəyişdirib **Yusif eləmişdim**. Fikrini öyrənmək məqsədi ilə həmin şeirləri məşhur bir yazıçının yanına apardım… Həmin adam şeirləri oxuyandan sonra götürüb verir lazımi yerə ki, bəs bunu filankəs yazıb… **İkincisi,** müəllim işlədiyim kəndin kənd sovetinin sədri hər il xeyli artıq torpaq sahəsi əkdirirdi. Onun rüşvətxorluğundan, zülmündən cana doyan bir neçə həmkəndlim yuxarılara şikayət məktubu göndərmişdi. **Zərfin də üstünü rus dilində mən yazmışdım.** Bu məsələ ilə bağlı kolxoza komissiya gəlməyini əvvəlcədən biləndə “kolxoz aktivləri” yüz hektara yaxın zəmini təcili şumlatmışdılar. Gələn komissiya sədrin tərəfini saxladı, torpağın altından çıxarılıb sübut kimi göstərilən sünbüllərə “otdur” deyib, bu işi böhtan kimi qələmə verdi. Elə oradaca böhtançıları cəzalandırıb “Qazaxıstana” sürgün etməyi qərara aldılar… Bu iki məsələyə, bir də kəndin komsomol təşkilatı katibi kimi rayon komsomol komitəsinin plenumundakı çıxışımda **Uduluda sosial vəziyyətin son dərəcə ağır olduğunu dediyimə görə günlərin bir günü məni Bakıdakı evimizdə həbs etdilər.** Bu işlərin hamısı, demək olar ki, eyni vaxtda baş vermişdi və mənim taleyimi həll etmək üçün bir-birini

---

[1] “Ulduz” jurnalı, 1989. “Biz Cəfərzadələr”, 2001

tamamlayırdı. Məhkəməsiz, tribunalsız **həbsdən sonra beş il seçki hüququndan** məhrum edilmək, ömürlük Azərbaycana qayıtmamaq şərti ilə mənə **yeddi il iş kəsdilər**” **(Gənclik, 1990, №7)**.

***

Beləliklə o, Sovet hökuməti, Stalin quruluşu haqqında tənqidi şeirlər yazdığına – **“antisovet təbliğatına”** görə **10 il** azadlıqdan məhrum edilmişdir.

Əhməd müəllim ilk əvvəl **Qorki vilayətinin** ən bataqlıq ərazisi hesab edilən, “qurşağa qədər bataqlıq olan **Suxobezvodnoye**” qəsəbəsinə göndərilib. Bir müddət sonra isə **Tayşet vilayətinə**, daha sonra **Komi Respublikasının Maqadan vilayətinə** aparılmışdır. Burada olan sərt iqlim, ağır iş şəraiti, dəhşətli vəziyyət 24 yaşlı Əhmədi əldən salır, zəiflədir, xəstələndirir…

Bir az sonra isə işlər yaxşı olur. Belə ki, nəzarətçilər onun teatr texnikumunu bitirdiyini, **“artist olduğunu”** biləndən sonra düşərgədə bədii-özfəaliyyət dərnəyi təşkil etməyi ona həvalə edirlər. O gündən Əhməd müəllim düşərgədə saxlanılır, ağır işlərə aparılmır. Hətta bu “gözdən-könüldən uzaq” yerdə anasından **öyrəndiyi türkəçarələr** də onun köməyinə çatır. Bitkilərdən düzəltdiyi məlhəmlərlə xəstə yoldaşlarına kömək etdiyi üçün onu düşərgəyə **“feldşer”** də təyin edirlər. Təşkil etdiyi ansamblla o, vaxtaşırı, bayram günlərində konsertlər verir, tamaşalar göstərir. Odur ki, hər kəs cavan Əhmədə hörmət bəsləyir. Həmin illəri ürək ağrısı ilə xatırlayan Əhməd müəllim ömrünün sonuna kimi dustaq yoldaşları barədə danışmaqdan yorulmaz və deyərdi ki, o illər mənim üçün ən böyük məktəb oldu: **mərdlik, kişilik, düzlük, paklıq, dostluq, haqqı-nahaqdan seçmək, hər şeydən əvvəl sözünün ağası olmaq məktəbi.** Əhməd müəllim milliyətindən asılı olmayaraq o məktəbin üzvlərinin çoxusu ilə son illərə

qədər (sağ qalanlarla) məktublaşar, əlaqə saxlayar, hətta bir çoxlarının övladları ilə də görüşər, onların qonağı olar və ya onları kəndlərinə qonaq çağırardı. Həmin insanların hamısının adı, soyadı, yeri-yurdu ilə birlikdə bu gün də Əhməd müəllimin şəxsi arxivində hifz olunur: **Ənvər Vəliyev (Qubadlı), Məşədi Muradov (Saatlı), Lazım, İbrahim və Xaybulla (Dağıstan), Semeçenko K. (Kiyev), Pennon A. (Gəncə), Kaxbaqorov Mixail və Azaryanski (Lvov), Əsəd Məmmədov (Amasiya), Zeyni A. (Ağcabədi), … 30 nəfər…**

1954-cü ildən ölkədə siyasi iqlim yavaş-yavaş yumşalmağa başladı. Bir çox günahsız, böhtan ucbatından həbs olunan insanlar azad olunmağa və ya həbs müddəti azaldılmağa başladı. Əhməd müəllim özünün dediyi kimi, **"dörd il səkkiz ay Şimalda saxlandıqdan sonra (M.C.Bağırovun məhkəməsindən sonra)** azad olunmuş, ancaq 1956-cı ildə isə tam bəraət almışdır".

***

Əhməd Məmməd oğlu Cəfərzadə 1956-cı ilin yayında Udulu Sovetliyinin **Tava kənd sakini Əlimusa kişinin qızı Zabitə xanımla ailə qurmuş** və bu izdivacdan onların **Mahmud, Aydın və Elçin** adında üç övladı olmuşdur. Övladların hər üçü ali təhsillidir. Onlar atalarının şərəfli yolunu davam etdirirlər (Əhməd müəllimin on nəvəsi vardır. Onlardan beşi oğlan, beşi isə qızdır).

***

Əhməd azadlığa çıxandan sonra yenidən kənd məktəbinə rus dili müəllimi təyin edildi. Belə qərara gəldi ki, necə olursa-olsun, yarımçıq qalmış ali təhsilini başa vursun. Nəhayət, arzusuna çatdı – **1958-ci ildə ali təhsilini uğurla başa vurdu**. Daha çox elmi yaradıcılıqla məşğul olmağa, pedaqoji sahədə təcrübəsini artırmağa başladı. Əhməd müəllim doğma məktəbdə təşkil etdiyi sinifdənxaric işlərlə - **"rus dili günü"nün** keçirilməsi, şairlər, alimlər, əmək bahadırları, aşıqlar, sinə-

dəftər insanlarla görüşlərin təşkil edilməsi ilə Şamaxı rayonunun müəllimləri arasında seçilməyə, hətta respublikada tanınmağa, təbliğ olunmağa başladı. Mütəxəssislər, pedaqoji sahənin kamil biliciləri, məşhur pedaqoqlar, qabaqcıl müəllimlər Əhməd müəllimin məktəbinə təcrübə əldə etməyə gəldilər. Kənd müəlliminin belə bir təcrübəsi barədə məlumat keçmiş sovetlər ölkəsinin mətbuat orqanlarında da işıqlandırılmağa başlandı. Odur ki, Əhməd müəllim Sovetlər İttifaqının müxtəlif şəhərlərində – **Moskva, Leninqrad, Aşqabad, Kiyev, Daşkənd, Alma-Ata və Gürcüstanda** keçirilən elmi-praktik konfranslara, simpoziumlara dəvət olundu. Onun dəyərli çıxışları, məruzələri, təcrübəsi mərkəzi mətbuat orqanları vasitəsi ilə bütün İttifaqda yayılmağa başladı. Əhməd müəllimin şəxsi arxivində hifz olunan, pedaqoji mühitlə bağlı məqalələrinin sayı **200-ə** yaxındır.

**…1967-ci ildə** Moskva Dövlət Universitetində Əhməd müəllimin elmi-pedaqoji fəaliyyətinə həsr edilmiş **sərgi təşkil** edilir. Həmin sərgidə müəllimin 28 elmi əsəri, 200-dən çox məqaləsi nümayiş etdirilir… Sərgiyə heyranlıqla tamaşa edən qazax alimi **D.Tursunov demişdir**: **"Bu müəllim elm fədaisidir, yaradıcı insandır. Belə adamlar elmimizə çox lazımdır".**

***

Nəhayət, Əhməd müəllim pedaqoji təcrübəsini ümumiləşdirib maraqlı bir dissertasiya ərsəyə gətirdi. Yuxusuz gecələrin, elmi axtarışların bəhrəsi olan namizədlik dissertasiyasını o, 1968-ci ildə - 39 yaşında uğurla müdafiə edib pedaqoji elmləri namizədi alimlik dərəcəsi aldı…

Alimin **"Azərbaycan məktəblərinin V-VIII sinif şagirdləri ilə rus dilində sinifdənxaric aparılmış işlərin təşkili və keçirilməsi metodikası"** adlı dissertasiyası ilə tanış olan görkəmli sovet alimlərindən – **P.İ.Xerakov, M.Mehdizadə, A.Juravlyova, Y.Reçitskaya, N.Kuitski, K.Mukanov** və b.

həmin əsərə çox yüksək qiymət vermişlər. "Qazaxıstan, Özbəkistan, Türkmənistan, Başqırdıstan və s. respublikaların Elmi-tədqiqat Pedaqoji İnstitutları həmin əsəri geniş şəkildə müzakirə etmiş, alimin iş təcrübəsi və elmi fəaliyyəti barədə **20-yə qədər məqalə** yazmışlar.

Əhməd Cəfərzadənin pedaqoji təcrübəsinin respublikamızda öyrənilməsi, yayılması üçün Azərbaycan SSR **Maarif Nazirliyinin tövsiyəsi ilə İmran Məmmədov və Qriqori Qomelski** maraqlı bir vəsait hazırlayıb, 1968-ci ildə çap etdirmişlər. Həmin əsərdə oxuyuruq: **"Ə.Cəfərzadə sadə bir kənd müəllimi olmuşdur. O, Tava kəndində heç kəsin ağlına gəlməyən möhtəşəm bir muzey yaratmışdır. Bu muzeyə Sovet İttifaqının ən məşhur pedaqoqlarından müntəzəm surətdə məktublar gəlməkdə idi.** S.Marşak yazırdı: "Əhməd müəllim, sizə keçdiyiniz dərslərdə uğurlar arzulayıram və tutduğunuz yolda müvəffəqiyyətlər diləyirəm"… S.Mixalkovun bir məktubunda oxuyuruq: "Sizin çalışqanlığınız sübut edir ki, siz sülh carçısısınız". "Əməyi sevin, ona görə ki, səadət və xoşbəxtlik yalnız onun sayəsində gəlir" öz məktubunda L.Kassiliya yazırdı. "Heç vaxt ruhdan düşməyin. Ruh düşkünlüyü uğur gətirməz" fikri isə S.Saratkovun məktubundandır.

Dağıstan şairi R.Həmzətov öz məktubunda yazırdı: **"Xalqlar arasında yaradılan dostluq bütün dünyaya sülh yaymaqdır"**. Bütün bu kəlamlar Tava kənd məktəbinin müəllimi, f.e.n. Ə.Cəfərzadə və onun şagirdlərinə ünvanlanmışdı.

**Qalina Serebryakova** Əhməd müəllimə göndərdiyi məktubda yazırdı: **"Qoy, sizin bu işləriniz sizə dahilik gətirsin. Vaxt olar sizin adınız tarixi şəxsiyyətlərlə birgə çəkilər"...**

***

Əhməd müəllimin şagirdləri hər gün belə məktubları səbirsizliklə gözləyirdilər. Məktub axını isə İttifaqın hər yerindən gəlirdi Şamaxının ucqar Tava kəndinə, Əhməd

müəllimin ünvanına. Daha kimlərin böyük sevgi, məhəbbət hissi, xüsusi şövqlə dediyi fikirləri özündə yaşadan məktubları indi də çoxdu Əhməd müəllimin şəxsi arxivində. Görkəmli Sovet pedaqoqları, şair və yazıçıları – **A.Barto, M.Şoloxov, N.Tixonov, B.Kerbabayev, A.Tvardovski, M.Tursunzadə, M.Mirşəkər, A.Vensilova, Q.Qulam, M.Kərim, A.Yakobson** və başqa məşhurlar Əhməd Cəfərzadə ünvanına və onun şagirdlərinə onlarla belə minnətdarlıq məktubları göndərmişlər…

Həm də bir çox yazıçılar məktubları ilə bərabər, öz kitablarını, şəkillərini hədiyyə olaraq Əhməd Cəfərzadəyə və onun dərs dediyi məktəbə göndəriblər.

**V.Panovanın "Seryoja", V.İnbirin "Aprel", M.Mirşəkərin "Poemalar", Berdı Kerbabayevin "Ağ qızıl torpağından olan Aysoltan"** və s. kitabları indinin özündə həmin məktəbdə yadigar, xatirə kimi saxlanılır.

Ümumiyyətlə, bu ünvana 82 yazıçının, 172 artist, rəssam və bəstəkarın göndərdiyi məktublar əlli ildən artıqdır ki, məktəbin ən dəyərli eksponatı olaraq keçmiş illərdən soraq verir günümüzə, Əhmədsevərlərə…

Atasından sonra həmin məktəbin direktoru olmuş **Aydın Cəfərzadə** böyük qürur və fərəh hissi ilə deyir: **"Sovet İttifaqının 147 şəhərindən gələn məktubların ümumi sayı 456-ya çatmışdır.** Atamın, görkəmli pedaqoq Əhməd müəllimin rəhbərliyi altında bu məktəbdə **"Xalqlar dostluğu"** klubu yaradılmış və 5 il ərzində bu klubda **3 mindən çox eksponat** yığılmışdır… Atam vəfat edəndən sonra da onun bir çox dostlarından məktublar gəlməkdə idi… Dostlarına cavabı biz yazdıq.

Atamın vəfatını bildirdik… Keçmiş SSRİ-nin çox yerində yaşayan dostlarına, qardaşlarına, ağır günlərin sirdaşlarına. Sonra çox yerlərdən başsağlığı məktubları, teleqramlar aldıq…

Bir sözlə, həmin məktub və başsağlığılar bir daha təsdiqləyir ki, **atam əsl pedaqoq, əsl xalq müəllimi idi…**"

***

Təbii ki, alimin şəxsi arxivində hifz olunan həmin məktubların hamısının məzmunu barədə bu kitabda geniş məlumat vermək mümkün deyildir. Amma Əhməd müəllimin məktublaşdığı pedaqoq, alim və şairlərin adlarının burada verilməsi onun öz müqəddəs sənətinə necə bir həvəslə bağlı olduğunu əyanilәşdirir: **Abdulla Şabanov**, **Tomris Əliyeva**, **C.Qəhrəmanov**, **Z.Budaqova**, **A.Klimova, A.Daxanoviç, Q.Qomelski (Bakı şəhəri)**; **Z.A.Şeyman, I.P.Xarakov (Frunze); F.Jurbalyova (Düşənbə); A.Qurbanov, E.Dövlətova (Aşqabad); E.E.Reçitskaya, B.D.Rozova (Peterburq); N.Xasanov, Ş.Əbilov (Qazan); V.I.Şepeleva (Poltava); Z.Andrezen (Tallin); I.Bano (Budapeşt); R.Beqzi (Qızıl-Orda); M.Baysman (Kişinyov); N.D.Qriqoryeva (Çerkassk); Q.Əliyev, N.Ayzenşteyn (Moskva); A.Metsa (Tartu); K.Zakiryanov (Ufa); N.Kuintinski (Nalçik)…**

Bu gün həmin müqəddəs ocağa – Cəfərzadə məktəbinə rəhbərlik edən Hacı Elçin Cəfərzadə deyir:

"Düzdür, atamın dost-tanışlarının hamısı böyük ziyalılar, sovet dövrünün tanınmış insanları olmuşlar. Özləri də həqiqi pedaqoqlar, vətəndaşlar idi. Onların da demək olar ki, hamısı dünyasını dəyişmişdir. Məktəbimizdə, atamın şəxsi arxivində olan yadigarlar isə tarixdir. Tarixi özündə yaşadan sənədlərdir. Mən də, övladlarım – atamın davamçıları da həmin sənədləri yaşadırıq, uzun illər də yaşadacağıq. Tarix və ata yadigarı kimi…"

***

Əhməd müəllim təkcə SSRİ-də deyil, eləcə də xarici ölkələrdə keçirilən elmi-pedaqoji konfranslar, festival və tədbirlərdə iştirakı ilə Azərbaycanın, dogma Şamaxının təhsil şöbəsinin adını SSRİ miqyasında ucaltmış, həmişə də uzaq

səfərlərdən müxtəlif təltif və mükafatlarla doğma məktəbinə dönmüşdür. Bu barədə Şamaxı rayonunun aylıq mətbu orqanı olmuş **“Yeni Şirvan” qəzetinin 25 aprel 1970-ci il** sayında Fazil Tağıyevin “Bolqarıstan dəvət edir” adlı yazısında oxuyuruq: **“İkinci Udulu səkkizillik məktəbinin rus dili müəllimi, pedaqoji elmlər namizədi Əhməd Cəfərzadənin adı indi respublikamızdan kənarda da tanışdır. Peşəsini ürəkdən sevən, ona bütün varlığı ilə bağlanan Əhməd müəllim** “Milli məktəblərdə rus dilinin tədrisinə dair” Ümumittifaq nəzəri konfranslarında həmişə müvəffəqiyyətlə çıxış etmişdir. Onun **elmi məruzələri Mahaçqalada, Leninqradda yüksək qiymətləndirilmişdir,** mükafatlara layiq görülmüşdür”.

Başqa bir yazıdan öyrənirik: … p.e.n. Ə.Cəfərzadənin Leninqradda Ümumittifaq konfransında **“Milli məktəblərdə rus dilində ədəbi-bədii ongünlüklərin keçirilməsi”** mövzusunda etdiyi mühazirə, **SSRİ Pedaqoji Elmlər Akademiyası və SSRİ Maarif Nazirliyinin birinci dərəcəli diplomuna** və pul mükafatına layiq görülmüşdür…

Yenə də **“Yeni Şirvan”** qəzetinin başqa bir sayında oxuyuruq: **“Udulu kəndinə şad xəbər gəlmişdi”**. **Bolqarıstan Xalq Respublikasının Sofiya dairəsindəki Lakatik Tibb-Pedaqoji Ali Məktəbi** Əhməd müəllimi bir aylığa Bolqarıstana dəvət etmişdir. Alim-müəllim indi səfərə hazırlaşır. O, Bolqarıstanda olarkən orada respublikamızda rus dili tədrisinin əsas üsulları, sinifdənxaric işlər, Şamaxı mədəni-maarif müəssisələri haqqında məlumat vermişdir. Əhməd müəllim oradan da respublikamıza təltif və mükafatla dönmüşdür…”

Bu uğurlu səfər barədə **“Azərbaycan müəllimi” qəzetində də geniş bəhs olunmuşdur**. Bununla yanaşı görkəmli pedaqoq müxtəlif vaxtlarda **Rumıniya və Yuqoslaviyada** elmi-pedaqoji konfranslarda iştirak eləmiş, orada **“rus dili**

**müəllimləri üçün təşkil olunmuş kurslarda dərs demişdir”**. Bir sözlə, Əhməd Cəfərzadə 1967-1973-cü illər ərzində **dəfələrlə Moskvada XTN sərgisinin iştirakçısı olmuş** və təşkilatın **qızıl, gümüş medallarına** layiq görülmüşdür…”

Ən nəhayət, pedaqoji elmlər namizədi Əhməd Cəfərzadə uzun illər ərzində çalışdığı, keçmiş SSRİ-nin və dünyanın bir çox ölkələrində keçirilən elmi məclislərdə müxtəlif hissələri, fəsilləri ilə mütəxəssisləri tanış etdiyi **doktorluq dissertasiyasını 1973-cü ildə müdafiəyə təqdim edir**. Əsər görkəmli alim və pedaqoqlar tərəfindən yüksək qiymətləndirilmiş, SSRİ-nin səriştəli mütəxəssislərindən alimə təbriklər – teleqram və məktublar göndərmişdi…

Həmin məktub və teleqramlar alimin şəxsi arxivində bu gün də dəyərli hədiyyə, sənəd kimi qorunur, hifz olunur.

***

**Haşiyə:** Əhməd Cəfərzadə 1948-ci ildən təqaüdə çıxana kimi – əlli ildən artıq bir müddətdə müəllimlik peşəsini şərəflə yerinə yetirmiş, **10 il Tağılı kənd məktəbinin direktoru** vəzifəsində işləmişdir… Ötən əsrin 70-ci illərində ilk dəfə əlinə jurnal alıb sinfə girdiyi Tağılı kənd məktəbi binasının vəziyyəti acınacaqlı idi… Rayon rəhbərliyi, təhsil şöbəsi yeni məktəb binasının tikilməsini nəyə görəsə ləngidirdilər. Bu, Əhməd müəllimi çox narahat edirdi. Kəndini, elini-obasını dərin məhəbbətlə sevən Əhməd müəllim bu məsələ barədə bacısı, Xalq yazıçısı, professor Əzizə xanıma məlumat verir, Əhmədin xarakterinə, xasiyyətinə bələd olan Əzizə xanım onun təlaşını görüb təsəlli verərək deyir:

- Qardaş, heç narahat olma. Məktəbi mən tikdirəcəm. Bu yaxınlarda “Gənclik” nəşriyyatı mənim **“Aləmdə səsim var mənim”** romanımı yenidən **20000 tirajla** çap edəcəkdir. Oradan mənə çatacaq qonorara yaxşı bir məktəb tikdirmək olar. Həmin qonorarı mən **anamın uyuduğu bu torpağın balalarına** – şagirdlərə halallıqla bağışlayacam… Bu sözlə, elə

bil Əzizə xanım qardaşına dünyanı bağışladı… Əhməd müəllim yaxşı bilirdi ki, Əzizə xanım bir işdən ötrü söz verməz, söz versə, qurtardı. O, sözünün ağasıdır. Ağası da oldu… 1979-cu tədris ilinə Əzizə xanımın qonorarına Tağılıda məktəb və bir klub hazır oldu… Məktəb binasının təntənəli açılışı oldu. Udulu sovetliyinin **yeddi para kəndi** həmin gündən sonra məktəbə **"Əzizə bibinin"** və ya… **"Bibinin məktəbi"** adını verdilər… Məktəbin direktoru təyin edilən Əhməd müəllim və həmkarları o təhsil müəssisəsini göz bəbəkləri kimi qorudular. Həmin vaxtdan sonra **"Əzizə bibinin məktəbi"** minlərlə qonaq qəbul etdi, tədbirlər, yarışlar, elmi yığıncaqlar, görüşlər keçirdi…

Ən nəhayət, **1999-cu ildə** həmin məktəbin **20 illiyi** də qeyd olundu. Məktəbin yubiley şənliyində respublikamızın onlarla dövlət adamları, alimlər, pedaqoqlar, deputatlar iştirak etdilər, təbriklər söylədilər, Əzizə xanımı xeyriyyəçi, mesenant Mahmud Ağa yolunu davam etdirən insane kimi alqışladılar…

Sonra da Əzizə xanım bir az sevincək, bir az da kövrək səslə dilləndi:

– "İyirmi ildir ki, kəndə gəlib-gedəndə, bu binanı görəndə, oradan balalarımın şən səslərini eşidəndə sevincimdən gözlərim dolur, həm də qəhərlənirəm… Nə yaxşı ki, Əhməd məni bu işə sövq etdi… Nə yaxşı ki, bu abidəni elimə-obama bağışladım… Nə yaxşı ki, uşaqlıq illərimin ayaq izləri dəymiş, anamın uyuduğu, ruhunun dolaşdığı bu torpağa az da olsa, yarıya bildim… Halallıqla oxuyun, işləyin və istifadə edin… Mənim əzizlərim, balalarım, elim-obam, canım, qanım, Şirvanım!..

**Haşiyə:** Ustadım, Əzizə xanımın məsləhəti ilə tədbirin aparıcısı mən oldum. Cavan yaşımda o məclis apardığım möhtəşəm məclislərin birincisi idi. Yaxşı yadımdadır, arxivimdə olan şəkillər də fikrimi təsdiqləyir. O bayram soraqlı tədbirdə Hacıqabul rayonunun aktivləri, keçmiş Udulu sovetliyinin beş

para kəndinin əhalisi, eləcə də Əzizə xanımın şair, alim, ziyalı, deputat dostları yaxından iştirak etdilər. **Deputatlardan Fəttah Heydərov, Tərlan Musayeva** və başqaları maraqlı çıxışlar etdilər. **Deputat F.Heydərov dedi:** "Əzizə xanım respublikamızın ictimai-siyasi həyatında həmişə yaxından iştirak edir. **Respublika Qadınlar Şurasının sədri** kimi gördüyü xeyirxah işlər hamımıza bəllidir. Bu gün yubileyinə toplaşdığımız məktəb onun gördüyü xeyirxah işlərin bir damlasıdır… Bu bayram münasibəti ilə onun həmyerlilərini təbrik edirəm, alqışlayıram".

"Mən Əzizə xanımın bədii əsərlərinin vurğunuyam. Həmin əsərlərdən yaşıdlarımla çox mənəvi keyfiyyətlər öyrənmişik. Belə bir məktəbin tikilib həmyerlilərinə ərməğan edilməsi Əzizə Cəfərzadənin böyük xeyriyyəçi olduğundan bir daha xəbər verir. Cəsarətlə deyə bilərəm ki, o, təkcə ata-baba yurdu Udulunun deyil, bütün Şirvanın Mahmud Ağası, Hacı Zeynalabdin Tağıyevidir…" **(İsgəndər Etibar)**.

Mərasim Hacıqabul Mədəniyyət evi və Təhsil şöbəsinin hazırladığı maraqlı konsert proqramı ilə sona çatdı…

***

Ümumiyyətlə, pedaqoji sahədə əldə etdiyi uğurlara görə, Əhməd Cəfərzadə bir çox orden, medal, fəxri fərman və mükafatlara layiq görülmüşdür: 1967-ci ildə Moskvada XTN sərgisinin **qızıl medalına**, 1970-ci ildə **"Fədakar Əməyə görə"** medalına, 1971-ci ildə **"Qırmızı Əmək Bayrağı"** ordeninə, 1976-cı ildə **"metodist-müəllim"** adına layiq görülmüş və otuzdan artıq "Fəxri fərmanla" təltif olunmuş, **üç dəfə Azərbaycan müəllimləri qurultayına nümayəndə seçilmişdir…**

Əhməd Cəfərzadə təkcə pedaqoji sahədə çalışmaq, şeir və nəsr əsərləri yazmaqla kifayətlənməmişdir. Onunla yaxından tanış olandan **(1970-ci il)** sonra yəqin etdim ki, o, Şirvanın aşıq, poeziya, muğam və folklor mühitinin və tarixinin, dini ocaqlarının, tarixi yerlərinin, qədim adət-ənənələrimizin kamil

bilicisi, toplayıcısı, tədqiqatçısıdır. Hər şeydən əvvəl bir də onu yəqin etdim ki, bütün bunları əldə etməkdən ötrü o, bütün Şirvanı payi-piyada, oba-oba, kəndbəkənd, şəhərbəşəhər gəzmiş, minlərlə insanlarla görüşmüşdür. O zamanlar 70-80 yaşında olan bu insanların – söyləyicilərin çoxusu M.Ə.Sabir, A.Səhhət, C.Cəbrayılbəyli, T.Əlyarbəyov, M.Məhəmmədhəsən, M.Mahmudbəyov, Aşıq İbrahim, Mahmud Ağa, Aşıq Nurəddin, Aşıq Bilal, Kalvalı Əli, Ə.Qarayev, S.M.Qənizadə, Y.Kələntərli, A.Gəraybəyli, E.Əfəndiyev, Hacı Məmmədov və b. ya tanıyan, onlarla ünsiyyətdə olan, ya da onlarla məclislərdə iştirak etmiş insanlarla dost olmuşlar. Bunun nəticəsidir ki, hal-hazırda Ə.Cəfərzadənin şəxsi arxivində neçə-neçə xatirə, nağıl, əfsanə, aşıq və şairlərin şeirləri, deyimlər, ağılar, mərsiyələr, bayatı dəftərləri yaşayır (Onların bir qismini “Şamaxı”, “Şirvan folkloru antologiyası”, “Şirvanın 350 şairi” kitablarında oxuculara çatdırmışıq – **S.Q.**). Əminəm ki, böyük alimin şəxsi arxivi gec-tez geniş tədqiqata cəlb ediləcək və öyrəniləcəkdir.

Ən maraqlısı bir də odur ki, təkcə Azərbaycanı deyil, ümumiyyətlə, bütün dünyanı gəzmək, səyahətə çıxmaq, dünyanın müxtəlif yerlərində olmaq Əhməd müəllimin ən böyük arzularından olmuşdur və gəzmişdir də!.. Hər olduğu ölkədə, məkanda olan kitabxanalara baş vurur, **rus, ərəb, fars, türk dillərini kamil bilən alim** oradan müəyyən maraqlı faktlar əldə edir, vətənə dönəndə o yeni məlumatlarla oxucuları tanış edirdi…

O, hələ 1940-cı ildə bacısı Əzizə xanımla Bakı-Moskva-Xabarovsk marşrutu ilə qatarla yola çıxmış, 12 yaşında ikən ilk dəfə Moskva və Xabarovsk kimi şəhərləri gəzmişdir…

1957-ci ildə Dağıstanın Mahaçqala, Dərbənd, Buynaksk, Xasavyurd, Qarabudaqkənd və s., **1959-cu ildə** Ermənistanın Dilican, Leninakan və Amasiya, **1960-cı ildə** Pyatiqorsk, Kislovodsk, Mineralnıy Vodı, Jeleznovodsk, Yesentuki və s., **1965-ci ildə** Qaraçay-Çərkəz vilayətini, 1966-cı ildə Tbilisi,

Qori, Suxumi, Soçi və s., **1970-ci ildə** Peterburq və Moskva, **1971-82-ci illərdə** dönə-dönə Moskva, Xarkov, Batumi, Kiyev, Lvov, Odessa, Ujqorod, Stanislav, Droqobıç, Truskovets, Peterburq, Donetsk, Kobuleti, Kutaisi, Samtrediya, Yerevan, Maxaradze, Daşkənd, Krasnovodsk, Buxara, Səmərqənd, Ryazan, Rostov, Dnepropetrovsk və b. şəhərləri gəzib, müxtəlif tədqiqatlar aparmış, dostlar qazanmışdır…

Ə.Cəfərzadə **1970-ci ildə** Bolqarıstanda olub, Sofiya, Vidin, Varna, Burqas və s. şəhərlərə səyahət etmişdir. **O, 1982-ci ildə İraqın Kərbəla, Nəcəf, Kufə və Samirə, 1990-cı ildə İranın Təbriz, Urmiya, Tehran, Kərəc, Qum, Məşhəd, Nişapur və Tus şəhərlərində** xeyli qalmış, ərəb və fars mənbələrindən Azərbaycanla bağlı geniş tədqiqatlar aparmış, maraqlı, dəyərli materiallarla vətənə dönmüşdür…

1990-cı ilin sentyabrında Əhməd müəllim bacısı Əzizə xanımla birlikdə **dəvətlə İrana gedir**, **bibisi nəvələri ilə görüşür**. Eləcə də o,

**Məşhəddə** – bibisi oğlu Mirağanın qızları Məsumə, **Səkinə, Tahirə**; bibisi oğlu Mirabtalıbın oğlanları Mir Bağır, Mir Sadıq, qızları Xədicə və Şəmsa;

**Kərəcdə** – bibisi oğlu Mirağanın oğlu Hüseyn və qızı Sürəyya; bibisi oğlu Mirabtalıbın oğlanları Əsgər və Müctəba.

**Tehranda** – bibisi oğlu Mirağanın oğlu Həsən, qızları Mərziyə və Zəhra; bibisi oğlu Mirabtalıbın oğlu Möhsün ilə görüşmüşdür…

…Onların vasitəsi ilə xaricdə yaşayan bibisi oğlu Mirab-talıbın oğlanları Abbas **(İngiltərə)**, Qasim **(Amerika)**, Məhəmməd **(İspaniya)** ilə telefonla tanış olur...

…İranda ikən Əhməd müəllim Tehran, Kərəc, Qum, Məşhəd, Tus, Nişapur və b. şəhərləri gəzmiş, muzey, məscid, pir, qala, ziyarətgahlarla olmuş, alim və yazıçılarla görüşmüş-dür. Bunların hamısını şəxsi arxivində olan şəkillər təsdiq edir… (Savalan, Azəri, Tərlan, Eldar, Saplaq, Qaflantı, Eloğlu,

Alirza, Şirin, Niqabi və b.). Eləcə də Firdovsi **(Tus)**, Xəyyam **(Nişapur)**, Fəridəddin Əttar, Kəmaləddin Mülk Nəqqaş, Nadir şah və b. **qəbir və türbələrini** ziyarət etmişdir…

Onu da qeyd etmək lazımdır ki, **rus, fars, ərəb dillərini mükəmməl bilən,** bu dillərdən sərbəst tərcümələr edən Əhməd müəllim milli-mənəvi dəyərlərimizin təbliğatçısı və bunları gənc nəslə aşılayan bir pedaqoq olmuşdur. İslam dini qayda-qanunlarını kamil bilən, "Quran"ı sərbəst oxuyan, tərcümə edən Əhməd müəllim bir ağsaqqal kimi dini qayda-qanunların təbliğatçısı, bütün Şirvanda, el-obada tanınmış, sevilmiş, hörmət-izzət sahibi olmuşdur.

**Bu barədə hətta sevimli, "Quran" oxuya bilən nəvəsi deyir ki,** "…Babam otuz ildən artıq bütün Şirvan bölgəsinin yas, matəm mərasimlərini böyük ustalıqla idarə edə bilmiş, "Quran"a, onun təfsirinə dərindən bələd olan Kərbəlayi Əhməd kimi də sevilmiş, tanınmış, məşhurlaşmışdır… Biz hamımız ömrümüz boyu babamızla fəxr edəcəyik…

Bəli, Əhməd Cəfərzadə öz ömründə ondan artıq Əhməd ömrünü cəmləşdirdi: **müəllim-pedaqoq** Əhməd, **alim** Əhməd, **yazıçı-publisist** Əhməd, **şair** Əhməd, **folklor bilicisi** Əhməd, **tərcüməçi** Əhməd! Şirvan **aşıqlarının tədqiqatçısı** Əhməd, islam dininin **təbliğatçısı** Əhməd, Vətənini canından-qanından artıq sevən **Vətəndaş Əhməd**.

Əhməd Cəfərzadə **2000-ci ilin avqust ayının 5-də 71 yaşında dünyasını dəyişmiş** və ata-anasının uyuduğu Hacıqabul rayonunun Tağılı kənd qəbiristanlığında dəfn olunmuşdur…

Gələcək nəsillərə **on monoqrafiya, dörd toplu, dörd dini kitab, iki yüzdən artıq elmi məqalə** yadigar qoyub gedən cəfakeş, sadə və mehriban insan, filologiya elmləri doktoru Əhməd Cəfərzadənin adı-sanı əsrlər boyu yaşayacaqdır. Görkəmli alimin bu əsərlərindən gələcək nəsillər lazımınca

faydalanacaq, onlardan dəyərli bir mənbə kimi istifadə edəcəklər…

Əhməd Cəfərzadə Şirvanın tarixi, poeziyası, folkloru, pedaqoji mühiti və adət-ənənələrinə dərindən bələd olan ziyalı, həm də canlı bir tarix idi. Onun qədrini bilmədik, vaxtında onun böyük qəlbində uyuyan xatirələri qələmə almadıq. Ona görə də özü ilə yaddaşında, yazmadığı, qələmə almadığı bilgiləri apardı… Özü də çoxunu apardı… və həmişəlik… özü də əbədiyyətə…

**2000-2012**

## UNUDULMAZ ALİMİN VƏFATINA YAZDIĞIM NEKROLOQ

## EL-OBANIN GÜMAN YERİ İDİ ƏHMƏD CƏFƏRZADƏ

Bu ilin avqust ayının 5-də Azərbaycan elminə, pedaqoji ictimaiyyətinə ağır bir itki üz verdi. Görkəmli yazıçı, şair, maarif fədaisi, folklorumuzun əvəzsiz tədqiqatçısı, Şirvan ədəbi mühitinin araşdırıcısı və hər şeydən öncə, gözəl insan, xeyirxah ziyalı, el ağsaqqalı **Əhməd Məmməd oğlu Cəfərzadə 71 yaşında** dünyasını dəyişdi...

Elm, alim, şair adına xüsusi rəğbət bəsləyən Məhəmməd Peyğəmbər (s.ə.s.) hədislərində yazır: **"Alimlərə hörmət edən şəxs elə bil mənə hörmət edib", "Elmin ayağı dünyadan kəsildiyi vaxt savaş başlayacaqdır", "Alim öldü, aləm öldü".** Əhməd müəllimin biliyinə, savadına bələd olanlar cəsarətlə etiraf edərlər ki, bu ölüm Azərbaycan elmi, ulu Şirvan üçün çox ağır itki oldu... Ömrünün 55 ilindən çoxunu ədəbiyyata, maarifə həsr edən Əhməd müəllim pak, təmiz əqidə sahibi olduğu üçün ağlı söz kəsəndən ta son nəfəsinə qədər barışmadı haqsız dünyanın haqsız qanunları və kərəmsiz insanları ilə... Elə ona görə də uzun illər təqiblərə, təzyiqlərə məruz qaldı Əhməd müəllim... 16 yaşından başı daşdan-daşa dəydi... Bağırovların, Melkumyanların, Abramovların yalançı şahidlərinin ifadəsi ilə Rusiyaya sürgün edildi. Müxtəlif zindanlarda ağrılı-acılı günləri, illəri saydı... Günahı günahsızlığı, həqiqi ziyalı olması, vətən sevgisi, bir də hər şeyi açıq-saçıq deməsi oldu... Ona görə də, elmlər doktoru olsa da, Bakıya gedib ali məktəblərdə, böyük yerlərdə işləyib günaha batmaqdan, kiminsə dəstəsinə qoşulmaqdan uzaq oldu, kəndin saf havasını, saf suyunu, təbii gözəlliyini heç nəyə dəyişmədi...

**Əhməd Cəfərzadə 1929-cu ildə** Bakı şəhərində anadan olmuşdu... Anası Böyükxanım öz dövrünün ziyalı qadınlarından idi. O, Azərbaycan klassik ədəbiyyatına, folkloruna, islam dini dəyərlərinə, eləcə də xalq adət-ənənələrinə dərindən bələd olan bir xanım idi. Üç ciyərparası – Əzizə, Məmməd və Əhməd də bu kök üstə köklənmişdir... Bütün varlığı el ədəbiyyatı üstə köklənən Böyükxanım ana ömrü boyu bu üç övladına "nağıl danışıb, əfsanə söyləyib" (Ə.Cəfərzadə), bayatı, ağı, zərbməsəllərlə onları həqiqi vətəndaş, el-oba qədri bilən insanlar kimi boya-başa çatdırıb...

Orta məktəbi qurtarandan sonra o, altı aylıq müəllimlik kursunu başa vurur, 14 yaşından ömrünü pedaqoji aləmə həsr edir. Bu sənətə kamil yiyələnməkdən ötrü Əhməd müəllim əvvəl Pedaqoji texnikumu, sonra isə Pedaqoji İnstitutu qurtarmışdır. O, əsasən 1947-ci ildən bəri yaradıcılığa başlayıb. Yazdığı hekayə, povest, felyeton və şeirlərində hərdən "sarı simə də toxunur". Əhmədin qələmilə ifşa olunacağını görən bəzi vəzifə sahibləri onun "şeirlərində siyasi səhv tapır", 23 yaşlı Əhməd müəllim 1952-ci ildə həbs olunur. Nə az, nə çox, **düz dörd il səkkiz ay həbsxana həyatı yaşayır**. Onun həbsxanalarda yazdığı gündəlikləri ən dəyərli əsərlərindəndir. Vaxtilə hamımızın "Gənclik" jurnalından birnəfəsə oxuduğumuz "Adsız" povesti kimi...

Əhməd müəllim M.C.Bağırovun məhkəməsi və İ.V.Stalinin ölümündən sonra azadlığa buraxılır. Və o gündən ömrünü ata-baba ocağında – Udulu kəndində elmə, poeziyaya, maarifə həsr edir. Şirvan mahalını qarış-qarış gəzir. Neçə-neçə əlyazmalar, xatirələr, qədim kitab, qədərsiz folklor toplusu nümunələri əldə edir. Adları unudulmaqda olan, XII əsrdən üzü bəri Şirvan nisbəsi ilə məşhur olan istedadların ömür yolunu öyrənir, əsərlərini toplayır...

Tezliklə namizədlik və 1973-cü ildə isə doktorluq dissertasiyasını müdafiə edir. Neçə-neçə ali məktəblərə, elmi müəs-

sisələrə dəvət olunur, vəzifələr təklif olunur... Mövlana Füzulinin məşhur **"Çoxdur bəni-adəm içrə bidad"** kəlamı ilə onlara cavab verir və doğma Udulunun havasını, suyunu, təbiətini heç nəyə dəyişmir. Əslində isə onu günahsız yerə günahlandıran quruma qarşı üəryində kin, qəzəb, hiddətin qədəri-qəsəmi soyumurdu ki, soyumurdu...

Əhməd Cəfərzadə həqiqi pedaqoq, maarif xadimi, əsl müəllim idi. Titul, vəzifə ardınca qaçmasa da, keçmiş SSRİ-nin, eləcə də dünyanın bir çox ölkələrində keçirilən elmi konfrans, qurultay və simpoziumlardakı dəyərli məruzələri neçə-neçə orden və medallara layiq görülmüşdür...

Respublika Təhsil Nazirliyindən də Əhməd müəllimin gileyləri bəzən açıqca hiss olunurdu... "Onun dırnağının kəsiyi olmayan müəllimlər" rayon təhsil şöbələrinin "şişirdilmiş təqdimatı ilə" asanlıqla alırdı "Əməkdar müəllim" adını. Amma, xalq, el-oba, şagirdləri, yetirmələri lap çoxdan vermişdi Əhməd müəllimə "Xalq müəllimi" titulunu...

İyirmi ildən artıqdır ki, Əhməd müəllimlə haqq-salamım var idi... Ziyalı qədri bilən bir insan idi Əhməd müəllim. Elmə, elm adamlarına xüsusi rəğbəti var idi bu kişinin. Onunla ünsiyyətdə olanlar yaxşı bilirlər ki, Əhməd Cəfərzadə ömründə ondan artıq Əhməd ömrü cəmlənmişdi... **Alim Əhməd Cəfərzadə; müəllim-pedaqoq Əhməd; yazıçı-publisist Əhməd; şair Ə.Cəfərzadə; folklor bilicisi Əhməd müəllim;** islam dininin bilicisi və təbliğatçısı Kərbəlayi Əhməd; bir də el ağsaqqalı, çoxumuzun məsləhət, ümid yeri olan **Əhməd əmi...**

Bəli, ustadın ölümünə biz ziyalılar, şagirdləri ona görə göyüm-göyüm göynəyirik ki, Şirvan torpağını tutiyə bilən Əhməd müəllim özü ilə neçə-neçə yazıya alınmamış, qeyd dəftərlərində, gündəliklərində hələ tamamlanmamış, ədəbiyyat tariximizə adı-sanı düşməmiş  şair, alim, dərviş, sinədəftər, el xanəndəsi, aşıq, övliya və və din nümayəndələri haqqında məlumatları apardı...

Bu dünya “gəlimli-gedimli, son ucu ölümlü” dünyadır. Və yaxud “səksən-doxsan, bir gün yoxsan”. Elə kəslər var ki, onların adı-sanı, xeyirxah əməlləri illərlə yaşayır; düzlük, doğruluq, halallıq, təvazökarlıq, ağsaqqallıq, həqiqi vətəndaşlıq mücəssiməsi olan Əhməd müəllim kimi... Əhməd müəllimi həmişəlik yaşadan həm də onun Azərbaycan elmi üçün qoyub getdiyi on monoqrafiya, dörd toplu, dörd dini kitabı və iki yüzdən artıq elmi və metodiki məqalələri olacaqdır. Hansı ki, o əsərlərdən gələcək nəsillər lazımınca faydalanacaq, dəyərli mənbə kimi istifadə edəcəklər...

**Hörmətli ustad,** Siz biz şagirdlərinizə – iman əhlinə öyrətmişdiniz ki, illər, əsrlər dolansa da, yaxşı kəslərin ruhuna hər şey əyan olur... Biz də əminik ki, elmimiz, ədəbiyyatımız sahəsində hansı uğurları əldə etsək, harada poeziya, saz-söz məclisi qursaq, sizin ruhunuz həmin məclisin üstündə dövrə vuracaq, uğurlarımız Sizə əyan olacaqdır... Bu uğurlarda isə Sizin zəhmətiniz qədərsizdir...

Biz islam dini qayda-qanunlarını azı 20 il öncə Sizdən öyrənməyə başlamışıq. Sözün həqiqi mənasında öyrənə də bilmişik. Həzrəti Məhəmməd (s.ə.s.) peyğəmbərimiz hədislərinin birində buyurub: **“Elm yolunu seçən insan üçün Allah da Behiştə sarı bir yol açır”.** Biz əminik ki, Siz artıq 40 gündür ki, həmin yolun yolçususunuz...

Allah Sizə rəhmət eləsin, ustad!..

**Hacı Seyfəddin QƏNİYEV**
***filologiya elmləri namizədi, dosent***
***“Elin sözü” qəzeti, 7-14 sentyabr 2000-ci il***

# ƏHMƏD CƏFƏRZADƏNİN ŞEİRLƏRİ

***Əhməd Cəfərzadə həm də gözəl şair idi. Həm klassik, həm də xalq şeiri üslubunda şeirlər yazmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, şairin şeirlərinin mövzusunu haqsızlığa, xalqa, camaata qarşı zülm edənlərə, hətta dövlət başçısına – Stalinə (Yusifə) etiraz, Şirvanın füsunkar təbiəti, başı qarlı uca dağları, laləli-nərgizli yaylaqları, nur çeşməli bulaqları, şır-şır axan çaylarının zümzüməsinin vəsfi, əmək adamlarının hünərlinin, saf, pak məhəbbətin tərənnümü təşkil edir. Şair şeirlərini Əhməd, Kərbəlayi, Əfqan, Əfqani, Miskin Əfqan və s. təxəllüslərlə yazmışdır.***

# GƏRAYLILAR

## QARA BAXTIM

Nə müddətdir bu qəflətdən,
Oyanmırsan, qara baxtım.
Çəkdirdiyin əziyyətdən,
Usanmırsan, qara baxtım.

Atmısan ummani-qəmə,
Gülünc etmisən aləmə.
Məni dərdə salıb yenə,
Dayanmırsan, qara baxtım.

Axıtdın seltək qanımı,
Üzmüsən cavan canımı,
Almısan adu sanımı,
Utanmırsan, qara baxtım.

Yaşayıram zəhmət ilə,
Çətinliklə, zillət ilə,
Səbəb nədir **Əhməd** ilə,
Dolanmırsan, qara baxtım?

***1948***

## ZİNDANDA

Adam dostun vəfa qəsdin,
Bilər zindanda, zindanda.
Tökər şur ilə göz yaşın,
Silər zindanda, zindanda.

Soyuq külək əsən zaman,
Yavru quşlar susan zaman,

Qalın meşə kəsən zaman,
Mələr zindanda, zindanda.

Xəyal etməz nədir şadlıq,
Görər min fitnə, fəttadlıq,
Sızıldar, bircə azadlıq,
Dilər zindanda, zindanda.

Kimi dərdi-dilin anlar,
Kimi pis niyyətdə yanlar,
Kimi tən eyləyib danlar,
Gülər zindanda, zindanda.

Axar səhralərə qanı,
Gün gündən gedər canı,
Qalıb zillətdə **Əfqani**,
Ölər zindanda, zindanda.

***1954***

## BİZ

*(Tutulmağına bais olan şeirlərdən)*

Tapdanırıq hər zaman,
Ayaqlarda nalıq biz.
Yoxdur hüquq dillənək,
Elə bil ki, lalıq biz.

Yağı ölməmiş durur,
Gündə bir hiylə qurur,
Yetən bizdən qan sorur,
Sanki beçə balıq biz.

Qızılgültək solmuşuq,
Yaman günə qalmışıq,
Haqsız cəza almışıq,
Açılmamış falıq biz.

Hər tərəfə atırlar,
Canilərə qatırlar,
Gah alıb, gah satırlar,
Təpik atmaz malıq biz.

Ağlayırıq, gülmürük,
Üzülürük, ölmürük,
Mübarizə bilmirik,
Quru qilü qalıq biz.

Bağlı qalır qolumuz,
Dumanlıdır yolumuz,
Dumandı sağ-solumuz,
Dəryadakı salıq biz.

Yetər artıq əziyyət,
Dərdü bəla müsibət,
**Əfqani**, çəkir zillət,
İndi halbahalıq biz.

***1948***

## DİLBƏR

Nədən məni hər görəndə,
Bürünürsən şala, Dilbər.
Qəfil çıxanda qarşıma,
Qayıdırsan dala, Dilbər.

Qurban olum göz-qaşına,
Gündə dolanım başına,
Gedib demə qardaşına,
Salma məni qana, Dilbər.

Sənsən aşiqlərin canı,
Aldın əldən din-imanı,
Qoysana məzlum **Əfqanı**,
Qadan, balan ala, Dilbər.

***27.12.1961***

## SARI BÜLBÜL

Xəzan olmuş bu bağçamda,
Nə gəzirsən, sarı bülbül?
Gəl görünmə gözlərimə,
Ağlamayım barı, bülbül.

Fələk soldurdu bağımı,
Xəzəl etdi yarpağımı,
Artırdı sinə dağımı,
Bir çalmadım tarı, bülbül.

Duman almış dörd yanımı,
Qəm-qüssə üzmüş canımı,
Yarım pozub peymanımı,
Mehman edib sarı, bülbül.

Sızlayır məzlum **Əfqanım**,
Kimsəyə gəlmir gümanım,
Ölüb-itmir mənim canim,
Yoxmuş qeyrət-arı, bülbül.

***1948***

## OĞLAN

*(Sevgilimin dilindən)*

Bu nə işdir, sən tutursan,
İnsaf elə, dayan, oğlan.
Ya keflisən, ya yuxulu,
Aç gözünü, oyan, oğlan.

Qulaqlarım qalıb səsdə,
Göz tikirəm yolun üstə,
Həsrətindən oldum xəstə,
Dərdim sənə bəyan, oğlan.

İşarənin çoxu himdir,
Him eyləmə, açıq dindir,
Soruşanda dostun kimdir?
Məni əvvəl sayan oğlan.

**Əfqan** ağlar zarı-zarı,
Dünyanın yox etibarı,
Sən sözündə düz ol barı,
Saf eşqimi duyan oğlan.

***1961***

## MƏNİ

Bir sevdayə düşmüşəm ki,
Məhbus edib teldə məni.
Hansı yerdən evə gəlsəm,
O gözləyir yolda məni.

O, oduma şamtək yanır,
Həsrətimdən alovlanır,
Xəlvətdə qul tək dayanır,
Bəyənməyir dildə məni.

Həsrətindən düşüb oda,
Cavan ömrü verdim bada,
Dərd əlindən gəldim dada,
Tənə edir el də məni.

***12.01.1963***

## EY DAŞ

Ey daş, qəmli baxışların,
Bilsən nələr dedi mənə?
Ömründə bir dəfə gülən,
Hər vaxt mələr, dedi mənə.

Dedi, bir vaxt mən cavandım,
Səntək qəmli dolanardım,
Çox tələsmə, səbr et bir az,
Üzün gülər, dedi mənə.

Dedi, miskin, oyanginan,
Şəfəqlərə boylanginan,
Ey **Əfqani**, dayanginan,
Kömək gələr, dedi mənə.

***1947***

## QURBANDIR

Ey tazə cavan dilbər,
Aləm sənə heyrandır.
Ey başımıza sərvər,
Qurban sənə bu candır,
Canlar sənə qurbandır.

Sənsiz yox olur karım,
Həm dövləti-varım,
Ey ruhi-vəfadarım,
Sənsiz ürəyim qandır,
Canlar sənə qurbandır.

Dün sən ki, qanad verdin,
Sandım ki, imdad verdin,
Canıma həyat verdin,
Qurban sənə **Əfqandır**,
Canlar sənə qurbandır.

## DEYİLMİSƏN?

Ömrümüzün vəfasından,
Yalan dünya deyilmisən?
İrişməz heç biri qandan,
Ziyan dünya deyilmisən?

Çatıbdır aləmə təmrin,
Keçir qafillərdə əmrin,
Günü-gün azalır ömrün,
Yalan dünya deyilmisən?

Düz atdın sehrilə kəndün,
Edərsən hər kəsə fəndün,
Bu möhlət yara kəməndün,
Salan dünya deyilmisən?

Bu xəlqi aldadan sözə,
Tökərsən torpağı gözə,
İçi xain, gülən üzə,
Uman dünya deyilmisən?

Gedərsən hər ziyan izə,
Uyub qafil deyən sözə,
Gədanı şah edib bizə,
Səran dünya deyilmisən?

Yürü, ey bivəfa, yürü,
Qırmırsan köhnə zənciri,
Neçə belə köçdən geri,
Qalan dünya deyilmisən?

Buna, ey canım, aldanma,
Bunun var- dövlətin sanma,
Bunun şuğlinə aldanma,
Dana dünya deyilmisən?

Veribsən **Əhmədə** meyli,
Bu dünya şuğlinə xeyli,
Axıdan gözlərdən seyli,
Viran dünya deyilmisən?

# QOŞMALAR

## QARA GÖZLƏR

Ey loğman baxışlı, dərya kamallı,
Söylə, kimi gözlər o qarə gözlər?
Ey surahi boylu, günəş camallı,
Nədəndir olubdur avarə gözlər?
Söylə, kimi gözlər o qarə gözlər?

Qaşların cəllad tək alır canımı,
Kipriyin ox kimi tökür qanımı,
Göz yaşım çay misal tutub yanımı,
Hayıf ki, etməyir bir çarə gözlər?
Nədəndir olubdur avarə gözlər?

Könül arzulayır qucsun belini,
Sorsun dodağını, əmsin dilini,
Öpsün gül üzünü, hörsün telini,
Neçin düz çıxmayır ilqarə gözlər,
Nədəndir etməyir bir çarə gözlər?

Mailəm üzündə həbəşi xalə,
Çoxların batırıb dövrü məlalə,
**Əfqani** istəyir yetsin vüsalə,
Hayıf ki, etməyir bir çarə gözlər,
Nədən düz çıxmayır ilqarə gözlər?

***1954***

## DODAĞINDAN

Başına döndüyüm, ay mələkzadə,
Qoy bir öpüm sənin al dodağından.
Vüsal həsrətində üzmüşəm canım,
Əmim şəhdü şəkər bal, dodağından.

Sənin hicranından gəldim fəryada,
Verdim gənc ömrümü nahaqdan bada,
Bilirəm, şübhəsiz, cümlə dünyada,
Yoxdur bir qiymətli pay, dodağından.

Neçənci istəyir min hilə qura,
**Əfqani**tək sənin qarşında dura,
Oxşadıb özünü zənci quldura,
Nə dilər o qara xal, dodağından?

***1954***

## BU GÜN

Fələk məni yaman yerdə qarğadı,
Vuruldum dilbilməz nadanə bu gün.
Dərdimi demədim, təhna dolaşdım,
Məni zənn etdilər divanə bu gün,
Vuruldum dilbilməz nadanə bu gün.

Eldən gizli gəzdim, gizli dolandım,
Həsrət çəkdim, eşq oduna qalandım,
Uçdu könül quşu, qəfil talandım,
Laçın idim, oldum pərvanə bu gün,
Məni zənn etdilər divanə bu gün.

Bəzən Kərəm kimi coşdum çağladım,
Bəzən Məcnun kimi qara bağladım,
O, məni duymadı, küsdüm, ağladım,
Dedilər, eşqimə əfsanə bu gün,
Laçın idi, oldum pərvanə bu gün.

Yalan sözdür, kim söyləsə tarı var,
Hər ürəyin min bir ahu zarı var,
Xoşbəxt odur qəlbən sevən yarı var,
Səadət yox imiş **Əfqanə** bu gün,
Dedilər, eşqimə əfsanə bu gün.

***1959***

**OLUR**

Könül, dersən, mənim yüz qardaşım var,
Yaddan qardaş olmaz, quru ad olur.
Yolunda tapdığım qazanclarım qar,
Çovğun, boran olur, bir də bad olur.

Yaxşı gündə geyib, yeyib, içənlər,
Səni özlərinə sultan seçənlər,
Çətin gündə salam verib keçənlər,
İki günündə qohum, qardaş yad olur.

**Əfqaniyəm**, dosta qurban mən oldum,
Onlar aqil, yenə nadan mən oldum,
Axır gündə əhli-zindan mən oldum,
Belə gündə əğyar, hamı şad olur.

***1954***

## KÖNLÜM

Düşmənlərim hücum çəkdi üstümə,
Alovlandım, yar gəlmədi tüstümə,
Onda bildim hamı durub qəsdimə,
Gəldi xəzan, əsdi çovğun, bad, könlüm,
Nədən bir an sən olmadın şad könlüm?

Min bir bəla gəldi mənim başıma,
Zalım fələk zəhər qatdı aşıma,
Rəhm etmədi gözdən axan yaşıma,
Çox ağladım, etdim aman, dad, könlüm,
Nədən bir an sən olmadın şad, könlüm?

Neçə müddət həsrət qaldım ellərə,
Dərd əlindən qaçıb getdim çöllərə,
Tale məni saldı coşqun sellərə,
Getdi əldən keçmiş şöhrət, ad könlüm
Nədən bir an sən olmadın şad, könlüm?

Ötən günlərimi saldım yadıma,
Bir kimsə olmadı yetsin dadıma,
Neçə böhtan söylədilər adıma,
Tənə etdi mənə qohum, yad, könlüm,
Nədən bir an sən olmadın şad, könlüm?

Xilas oldum neçə cövrü cəbirdən,
Neçə illər səsim gəldi Sibirdən,
Elə bil ki, qayıtmışam qəbirdən,
Yoxdur daha çovğun, boran, bad, könlüm,
Nədən bir an sən olmadın şad, könlüm?

Bir yar sevdim, amma mənim olmadı,
Çox yalvardım, mənlə birgə qalmadı,
Dərdə düşdüm, bir yadına salmalı,
Bir etmədi mən yazığı yad, könlüm,
Nədən bir an sən olmadın şad, könlüm?

***1961***

## MƏNƏM, MƏN

Ay məni həsrətlə yandırıb, yaxan,
Sənə çox nəğmələr qoşan mənəm, mən!
Vurğun tək üzünə durmadan baxan,
Eşqi ümman kimi coşan mənəm, mən!

Bilmirəm dostumsan, ya da ki, qəni,
Hər gün ildırım tək çalırsan məni,
Milyonlar içində görürkən səni,
Doğru yerişini çaşan mənəm, mən!

Nə etmək bir müddət mən **zindaniyəm**,
İlahi yazdığı bəxtə qaniyəm,
Dünya dəyişsə də, o **Əfqaniyəm**,
Ardınca dağları aşan mənəm, mən!

## DOSTUM

Nədəndir, bilmirəm, xeyli zamandır,
Üzündə borandı, kədərdi, dostum?
Bu qədər incinib etmə ahu-zar,
Çəkdiyin əziyyət hədərdi, dostum!

Nahaqdan uçurma körpünü, bəndi,
Səndən nə şeyx olmaz, nə də əfəndi,
Yaxşı bilirsənmiş yüz cürə fəndi,
Hərəsi bir qəzavü qədərdi, dostum.

Nə inciklik olub, nə də dəydi göz.
İstər qan-yaş axıt, istər isən döz.
Əgər ki, qəlbimiz desəydi bir söz,
Məhəbbət başadək gedərdi, dostum!

Tapmazsan dünyada mən kimi insan,
Sənə fəda etmiş malü mülkü can,
Nə Məcnun, nə Fərhad, nə də ki Sənan,
**Əfqanın** etdiyin edərdi, dostum!

***1956***

## SƏNİNLƏ GETDİ

İstəsən biləsən necədir günüm,
Hər sözüm, söhbətim səninlə getdi.
Qalxır asimanə naləvü ünüm,
Düşüncəm, niyyətim səninlə keşdi.

Axır göz yaşlarım sabaha qədər,
Üzür mən misgini qüssəvü kədər,
Demək belə imiş qəzavü qədər,
Taxtım, səltənətim səninlə getdi.

İşıqlı günlərim olubdu qara,
Bir kimsə etməyir dərdimə çara,
Sanki pərvanəyəm, yanıram nara,
Baxtım, səadətim səninlə keçdi.

Dərdlər üzmədədir misgin Əfqanı,
Bircə Allahadır onun gümanı,
Ürək qəbul etmir heç bir insanı,
Eşqim, məhəbbətim səninlə keçdi.

***1956***

**UNUTMA**

*(Sürgün dostum Əsgərov Bayrama məktub)*

Başına döndüyüm, vəfalı igid,
Dost dediyin bir insanı unutma.
Nə qədər xoşdur ömrün günləri,
O həyatda bu dünyanı unutma,
Ömrü boyu sən **Əfqanı** unutma.

Əgər səhər-axşam edəsən şadlıq,
Evində, yurdunda qursan abadlıq,
Əgər məst etsə də, səni azadlıq,
Bu yerdə qoyduğun canı unutma,
Ömür boyu sən **Əfqanı** unutma.

Gəzəndə arabir sevdiyim dağı,
Görəndə oynayan oğul-uşağı,
Baxıb **şimal** tərəf hər axşam çağı,
Nə vədəni, nə peymanı unutma,
Ömür boyu sən **Əfqanı** unutma.

Baxtın parlaq olsun, olmasın qara,
Hər müşkül işinə tapılsın çara,
Bəzən də yalvarıb pərvərdigara,

Nə Ağbaba[1], nə Şirvanı unutma,
Ömür boyu sən Əfqanı unutma.

Artsın günbəgündən hörmətin sənin,
Dünyaya yayılsın şöhrətin sənin,
Aləmə bəs olsun dövlətin sənin,
Şah olsan da o zindanı unutma,
Ömür boyu sən **Əfqanı** unutma.

***1956***

## SƏNİN

Söylə ay insafsız, ay etibarsız,
Varmı etiqadın, imanın sənin?
Görürsən dərdindən nələr çəkirəm,
Necə qəbul edir vicdanın sənin?

Mən səni özümə sultan sanardım,
Sübhədək oduna tənha yanardım.
“Sevirəm” deməyə çox utanardım,
İstəyirdim olam mehmanın sənin.

Elə bilirdim ki, sevirsən məni.
Aqil bir kimsəsən, deyilsən qəni,
Şərh etmək nə lazım bitmiş cümləni,
Hazırdım olmağa qurbanın sənin.

Nədən utanırsan, açıq söylə bir,
Belə soyuqluğun mənası nədir?

---

[1] Əsgərov Bayramın doğulduğu məkan

Qəlbini titrədən hansı nöqtədir?
Ona yetişmirmi ürfanın sənin?

Kişi olan kimsə qorxmaz dünyada,
Zərrə qulaq asmaz qohuma, yada,
Ağıllı, gəncliyin verərmi bada?
Düşün, kimdir dostun, düşmanın sənin?

Mən arzu edirdim ruhum ölməsin,
Fikir kəlməsini dilin bilməsin,
Dərdü qəm eşqini qəlbdən silməsin,
Xuda tez yetirsin dərmanın sənin.

Əgər səndə varsa doğru məhəbbət,
Gəl, çəkdirmə mənə dürlü əziyyət,
Bu gündən dost kimi eyləyək ülfət,
Bil ki, ölməkdədir **Əfqanın** sənin.

***1956***

## SƏNƏ QURBAN

Ey sevdiyim, hərdəm-hərdəm gəl bizə,
Ürək sənə qurban, qan sənə qurban.
İstər al qoynuna, istər vur öldür,
Bu baş sənə qurban, can sənə qurban.

Mənə həyat verir sözlərin sənin,
Bilməm nə istəyir gözlərin sənin?
Artıq titrəməsin dizlərin sənin,
Sultan sənə qurban, xan sənə qurban.

Gəl məni xilas et dürlü naridən,
Qəlbimə nicat ver intizaridən.
Yolunda keçərəm mülki-varidən,
Şöhrət sənə qurban, şan sənə qurban.

Sənsiz açılmayır mənim sabahım,
Göylərə ucalır dad ilə ahım,
**Əfqanam**, bağışla, olsa günahım,
Məkan sənə qurban, kan sənə qurban.

***1956***

## SƏNƏ

*(Bacım Əzizəyə)*

Anadan olduğun bu əziz gündə,
Daimi xoşbaxtlıq istərəm sənə.
Bircə bilməyəsən nədir çətinlik,
Hər cürə rahatlıq istərəm sənə.

Nə kədər biləsən, nə də göz yaşı,
Evdən əsgilməsin növrağın, aşın,
Səni qəlbən sevsin həyat yoldaşın,
Ömür boyu şadlıq istərəm sənə.

Günü gündən artsın adü hörmətin,
Göylərə ucalsın şanu şöhrətin,
Sultanı olasan incəsənətin,
Elmidə ustadlıq istərəm sənə.

Yaşın yetişəydi bir neçə yüzə,
Mənlə oturaydın hərdəm üz-üzə,

Zülmət gecələrin dönsün gündüzə,
Bu yolda Fərhadlıq istərəm sənə.

**Əfqanın** ürəyi sanma ki, qandır,
Məskənim bu günlük qara zindandır,
Qəlbimdə səninlə Azərbaycandır,
Həqiqi azadlıq istərəm sənə.

***20 dekabr 1955***

**ODURMU?**

Dayan qara gözlüm, məni öldürən,
Bilmirəm sənmisən, yoxsa odurmu?
Dostu, düşmənləri mənə güldürən,
Bilmirəm sənmisən, yoxsa odurmu?

Məni hicr oduna yandırıb yaxan,
Eşqi dərya kimi çağlayıb axan,
Xəlvət-xəlvət mənə gözaltı baxan,
Bilmirəm sənmisən, yoxsa odurmu?

Eşqi ümman kimi coşub çağlayan,
Daim qara geyib, qara bağlayan,
Gecələr sübhədək mənsiz ağlayan,
Bilmirəm sənmisən, yoxsa odurmu?

Bütün dünya ilə söhbəti pozan,
Dindən, etiqaddan, imandan azan,
Mənə sevgi dolu məktublar yazan,
Bilmirəm sənmisən, yoxsa odurmu?

Gecələr sızlayıb yatmayıb duran,
Ürəyi hər anda eşqimlə vuran,
Məni görməyəndə boynunu buran,
Bilmirəm sənmisən, yoxsa odurmu?

**Əfqanın** sözündə olmayır yalan,
Eşqimdə can evim olubdur talan,
Çoxdandır xoşbəxtə könlümü çalan,
Bilmirəm sənmisən, yoxsa odurmu?

***1956***

## BİLMƏDİM

Elə bir zamanda keçirdim ömrü,
Ağladım, göz yaşım silə bilmədim.
Eşqidən Məcnun tək düşdüm çöllərə,
Aləm mənə güldü, gülə bilmədim.

Dolaşdım dilləri əfsanələrtək,
Yandım eşq oduna divanələrtək,
Dərd əlindən oldum məstanələrtək,
Kim məni tulladı selə, bilmədim.

**Əfqanam**, açmadım **dərdin düzünü**,
Bir deyə bilmədim ürək sözünü,
Bütün ömrüm boyu, ömrüm uzunu,
Neçin yaşayıram, bilə bilmədim.

***1961***

## İLAHİ

Bilmədim nə idi mənim günahım,
Həmişə göz yaşım axdı, İlahi?
Bir an azalmadı naləvü ahım,
Zəmanə yandırıb yaxdı, İlahi!

Dünyadə hamını bir dost bilərdim,
Kim ki, ağlasaydı, yaşın silərdim,
Kimə ki, canımı qurban verərdim,
Mənə düşman kimi baxdı, İlahi!

Kimin ki, dizinə qoydum başımı,
O, zəhər elədi hər gün aşımı,
Məndən uzaq saldı yar-yoldaşımı,
Bir ildırım kimi çaxdı, İlahi!

Nələr deyilmədi mənim adıma,
Bir kimsə olmadı yetsin dadıma,
Ürəyim daima qol-qanadıma,
Köləlik zəncirin taxdı, İlahi!

***1962***

## OLDUM

Ömrünün çırağı səndin dünyada,
Mən sənin başına pərvanə oldum.
Adım Məcnun kimi düşdü dillərə,
Özüm səhralarda divanə oldum.

Bu dünya işində mən oldum naşı,
Axıtdım üzümə qanlı göz yaşı,

Əydim əlif qəddi, ağartdım başı,
Cavan vaxtlarımda piranə oldum.

Ağladım adıma **Əfqan** dedilər,
Eşqimi duymayıb böhtan dedilər,
Olmaz sənin kimi insan dedilər,
Bu fani dünyadə əfsanə oldum.

***1961***

## ZƏMANƏ MƏNİ

Başına döndüyüm yadelli qardaş,
İncidir bu dövrü-zəmanə məni,
Dostun xəyanəti, əğyarın sözü,
Əyib döndəribdir kəmanə məni,
İncidir bu dövri-zəmanə məni.

İtirdim dövləti mülki-varımı,
Çoxları eşitdi ahu-zarımı,
Alıb hüququmu, ixtiyarımı,
Qatdılar bir bölük nadana məni,
İncidir bu dövrü-zəmanə məni.

**Əfqanə** kar aşmaz zərdən, zibadan,
Viran ölkə ola bilməz abadan,
Zülmilə ayırıb eldən, obadan,
Saldılar çiskinə, dümanə məni,
İncidir bu dərdi zəmanə məni.

***1960***

## DƏDƏ

Bircə soruşmadın mənim dərdimi,
Həvəs eyləmədin dərmanə, dədə.
Ahu-zar etməkdən üzüldü canım,
Az qalıb ki, olam divanə, dədə.

Dərdim bilib bir halıma qalmadın,
Mənlə onu tək otağa salmadın,
Sevdiyimi bircə xəbər almadın,
Oxşadın insafsız sultanə, dədə.

Bir dəfə etmədin dərdimə çara,
Bilmədin nə üçün düşmüşəm dara,
Mənsumu dədəsi çatdırdı yara,
Məni yetirmədin cananə, dədə.

Nə möhnətlər çəkir bəlalı başım,
Tökülür üzümə qanlı göz yaşım,
Məndən uzaq gəzir yaxın sirdaşım,
Bir köməklik elə **Əfqanə,** dədə.

***1961***

## ZİNDAN SƏSİ VAR

Zülmət gecələrin qaranlığında,
Gurultu səsi var, boran səsi var.
Bir kimsə bilməyir nədən belədir,
Hər yanda haqsızlıq, divan səsi var,
Cinayət səsi var, **zindan səsi var**.

Yenə də səmalar çatıb qaşını,
Tökür yer üzünə qanlı yaşını,
İtirib çoxları indi başını,
Cahanda ah səsi, aman səsi var,
Nə bircə tar səsi, kaman səsi var.

Göylər tərəf çıxmış sanki saraya,
Rəhbər bilməyir ki, gedir haraya,
Bilmirik kimlərə gedək çaraya,
Daxildə ixtişaş, tufan səsi var,
Cahanda ah səsi, aman səsi var.

Saray iki yerə bölünür bu gün,
Kim bilir, bəlkə də açıldı düyün.
Fikirlər dumanlı, vicudlar ölgün,
Ölkədə, həyatda böhran səsi var,
Daxildə ixtişaş, tufan səsi var.

Yenə ildırımlar çaxır dalbadal,
Üzür insanları min cürə xəyal,
Hamı kar, kor olub, hamı indi lal,
Lakin ürəklərdə üsyan səsi var,
İnilti səsi var, qurban səsi var.

Ey zülmət, qaranlıq, gəlmə bir daha,
Qoy çıxsın ölkəmiz aydın sabaha,
Həyat ucuz olub, azadlıq baha,
Çünki nə haqq səsi, vicdan səsi var,
Nə də bir mübariz insan səsi var.

Sarayda fikirlər çıxıbdır üzə,
Nə onlar, nə bunlar gərəkdir bizə,
Onlarsız ömrümüz dönər gündüzə,

Çünki gələcəyə güman səsi var,
Min-min mənim kimi **Əfqan** səsi var.

***1957***

## GƏL

Başına döndüyüm, qurban olduğum,
Bir tərəhhüm eylə, bu yanə tez gəl.
İnan ki, cismimə düşüb vəlvələ,
Baxma qarlı qışa, borana, tez gəl.

Nə müddətdir yollarına baxıram,
Cavan canı yandırıram, yaxıram,
Ömür  keçir, çaylar kimi axıram,
Etibar eyləmə zamana, tez gəl.

Xeyli vaxtdır gözüm dolhadoldadır,
Uçub könül quşu, hansı koldadır?
Demirsən, **Əfqanın** gözü yoldadır,
Səni and verirəm "Quran"a, tez gəl.

***fevral, 1962***

## DEYİRSƏN

Ey sevdiyim, bircə məni başa sal,
Nədən belə sən olmusan halbahal?
Can deyirəm, qışqırırsan, söyürsən,
"Canın çıxsın, bir az dayan", deyirsən.

Özgələrə nazü qəmzə satırsan,
Məni görcək gün batmamış yatırsan,

Üstəlik də ağız-burun əyirsən,
“Canın çıxsın, bir az dayan”, deyirsən.

Başqasıynan danışırsan, gülürsən,
Məni görəcək azarlayıb, ölürsən,
Mən göndərən konfetləri yeyirsən,
“Canın çıxsın, bir az dayan”, deyirsən.

Gəl **Əfqanın** üzmə cavan canını,
Səhər-axşam qaraldırsan qanını,
Əl vurmamış yumruqlayıb yanını,
“Canın çıxsın, bir az dayan”, deyirsən.

***1962***

## NAKAM MƏHƏBBƏT

Sən ey bu məzarə gömülən cavan!
Sıxılır ürəyim, tutulur dilim.
Səni torpaqlara qərq etdi zaman,
Bir imkan vermədi amansız ölüm.

Düşünmə dünyada səni anan var,
Ya ki, gəncliyini yada salan var,
İnan, əziz dostum, məzarın üstə,
Bir qəlbi sıxılıb, qəlbi yanan var.

O kimdir beləcə geyinib qara?
Bu qəbristanlıqdan çıxmır kənara,
Dolanıb hər zaman burada tənha,
Sənin məzarından gözləyir çara.

O kimdir, görəsən nə olmuş ona?
Nə üçün geyinmiş matəmli dona?
Sən onu tanıdın bəlkə, fikirləş,
İlk dəfə “sevirəm” demişdin ona.

O bircə kəlməyə yazıq inanıb,
Gecə pərvanə tək atəşə yanıb,
Verdi gəncliyini sanki küləyə,
Sənin boş sözünü həqiqi sanıb.

O gündən o yazıq qan ağlayardı,
Ömrünün kitabın varaqlayardı,
Sən busə alanda, şərab içəndə,
O, hicra guşədə qan ağlayırdı,

Sənsə düşünmədin, yanmadın ona,
Hər sabah axtardın başqa bir sona,
Gah bir ümid verdin, gah da çəkildin,
Onun gənc ömrünü çatdırdın sona.

Sənin ömrün keçdi toyda, baharda,
O min nalə etdi min ahu-zada,
Sən gah xaqan oldun, gah da müştəri,
İndi də yatırsan dərin məzarda.

Sən öldün, dostların gəlmədi vaya,
Çünki getmişdilər o günü toya.
Təkcə bu talesiz ağladı sənsiz,
Döndü göz yaşları coşqun bir çaya.

İndi də ağlayır, bilmir özünü,
Sənin məzarına tikmiş gözünü,

Öpərək son dəfə sənin baş daşın,
Deyir müttəhim tək ən son sözünü.

O batmış matəmə, qüssəyə, qəmə,
Sanki pərvanədir, dolanır şəmə,
Baxıb intizarla qəbrinə sənin,
Öz sirli küskünə söykəyir qəmə.

O çıxmaq istəmir sabahkı günə,
Lənətlər yağdırır özü-özünə,
Son dəfə "sevirəm səni" söyləyib,
Xəncəri qınadək basır köksünə.

O düşüb dağlara, dincəlir əlbət,
Əcəlin əlindən içibdi şərbət,
Barmağın batırıb axan qanına,
Yazır məzarına "nakam məhəbbət".

***1949***

## TƏK SƏNİ SEVİRƏM

Rəhmə gəl, ey gözəl, ağlatma məni,
Tək səni sevirəm, gülüm, tək səni.
Hurilər, mələklər ensə də yenə,
Dünyalar durduqca sevməm özgəni,
Tək səni sevirəm, gülüm, tək səni.

Keçsə də aradan yüz belə bahar,
Əskilməz məndəki sevgi, etibar,
Qəlbimi verəndə sənə yadigar,
Dedim, aləm mənlə olsa da qəni,
Tək səni sevirəm, gülüm, tək səni.

Deyirlər, sevginin dövranı keçmiş,
Yalandır, bu dərsi **Əfqani** keçmiş,
Eşqim aşıb-daşmış, ümmanı keçmiş,
Torpaqlar alsa da qoynuna məni,
Tək səni sevirəm, gülüm, tək səni.

***25.11.1957***

## OLMAZ

Ey məni həsrətlə gözləyən fəqir,
Sevməyən ürəkdə nar olmaz, olmaz.
Utanma, dərdini eylə aşikar,
Gülüstan fikirdə xar olmaz, olmaz.

Bilirəm, od tutub yanır bədənin,
Çoxunu yatmırsan bəlkə gecənin,
Qorxma, ağarsa da saçların sənin,
Tülək tərlan dönüb sar olmaz, olmaz.

Üzməsin qəlbini qəm, qüssə, kədər,
Keçirmə ömrünü bir ləhzə hədər,
Nə edim beləymiş qəzavü qədər,
**Əfqanindən** sənə yar olmaz, olmaz.

***mart, 1957***

## OLSUN

Namə göndərməklə məhəbbət olmaz,
Gərək yar yolunda cürətin olsun.
“Sevirəm” deməklə sevilməz insan,
Çalış aralıqda hörmətin olsun.

***1957***

## EY DOST

Bilirəm ki, bir azadlıq ucundan,
Sən düşmüsən dərin zindanə, ey dost!
Məskənin olubdur diyari-qürbət,
Səsin yetmir heç bir insanə, ey dost!

Dünyada axtarma etibar, vəfa,
Yoxsa ki, görməzsən bircə gün səfa,
Dostların yetirər sənə çox cəfa,
Olarsan bir növü divanə, ey dost!

Həqiqət kəlməsi axtarma, bala,
Çünki yetişərsən dövrü-zavala,
O söz əfsanədir, gəlib bu hala,
Nahaqdan yayılıb cəhanə, ey dost!

Ədalət sözünün yoxdur əsası,
Kağız üstündədir onun mənası,
Hələ olacaqsan Allaha ası,
Yadına düşəndə tək ana, ey dost!

Bu dünya dediyin ibrətxanədir,
Onun hər guşəsi, eşq viranədir,
Səadət kəlməsi lai əfsanədir,
Hərçəndi yazılıb “Quran”ə, ey dost!

Təbii qanundur bil ki, əzəldən,
Dəstə bağlanılmaz solğun xəzəldən,
Uzaq dur ağılsız, bivec gözəldən,
Yetişirsən onda ad-sanə, ey dost!

Kimi şadlıq edir, kimi ağlayır,
Kimi qəmgin olub qəlbin dağlayır,
Kimi dərya kimi coşub-çağlayır,
Qovuşur lənəli ümmanə, ey dost!

Çox da fikir eyləmə, ey könlü talan,
Eşitsən hər ləhzə min cürə yalan,
Ümiddir yaşadan insanı hər an,
Dünyaya gəlmisən mehmanə, ey dost!

Qocalsan övladın baxmaz üzünə,
Dostların etibar etməz sözünə,
O vaxtı vurarsan bərkdən dizinə,
Çünki yetməz əlin bir yanə, ey dost!

Nə qədər dövlətin olarsa sənin,
Axır qara torpaq olar məskənin,
Eşitmə sözünü əsla kimsənin,
Tez coşub oxşama tufanə, ey dost!

Çalış ki, qəlbində olmasın ləkə,
Bir kimsə işindən düşməsin şəkə,
Bilmədiyin şeydən etmə səksəkə,
Bənzəmə zülmkar sultanə, ey dost!

Bu dünya işinə etmə etibar,
Bil ki, hər güncündə min bir sirr var,
Səbr elə, qönçə tək olmaginan xar,
Uğrama səbəbsiz xəzanə, ey dost!

Gələcək gününü düşün hər zaman,
Heç vaxtı yaxşını eyləmə yaman,

Səni aldatmasın hər qaşı kaman,
Yoxsa ki, dözməzsən hicranə, ey dost!

Paxıllıq eləmə hərgiz bir kəsə,
Heç də qulaq asma hər gələn səsə,
Aldanma xəbisə, uyma nakəsə,
İnanma verilən fərmanə, ey dost!

Xoşbaxtlıq sözünün əslini unut,
Başını dağ kimi ucalıqda tut,
Əğlini itirmə görcəyin bulud,
Başlama naləvü əfqanə, ey dost!

Kişinin həvəsi şöhrət üçündür,
Qadının səyləri şöhrət üçündür,
Yaxşılıq, öldüyün səadət üçündür,
Daxil olur hər bir imanə, ey dost!

Kimisi yeməyə tapmayır nani,
Kimisi tutubdur cümlə cahani,
Çürüyür zindanda məzlum **Əfqani**,
Ona gün verməyir zəmanə, ey dost!

***

Sənə üz tutanda xah, ya naxah,
Hamı söyləyir ki, “ey adil Allah”,
Doğrusu düşmürəm bu şeyi başa,
Xaliqim, təkmisən yoxsa ki, qoşa?

Kimə ki, vermirsən sim ilə zəri,
Onda yox səxanın, rəhmin əsəri,

Kimə ki, kəramət etmisən səxa,
Onun simü zəri çıxıbdı yoxa.

Əgər “vahidsənsə” bütün dünyada,
Neçin ömrümüzü verirsən bada?
Əgər “vaqif” sənsə cümlə cahana,
Neçin çəkdirirsən cürmü insana?

Əgər “kərim”isən, kəramət eylə,
Əgər “rəhim”isən, mərhəmət eylə,
Əgər “sabit”sənsə neçin böylə sən,
Mövcud cəmiyyəti dəyişdirirsən?

Əgər “şamil”sənsə fikrim bilirsən,
Əgər “kamil”sənsə neçin gülürsən?
Sən “sabir” olsan da tükəndi səbrim,
Ya ver yaşayışım, ya da ki, qəbrim.

Əgər “adil” sənsə göstər ədlini,
Apar yer üzündən insan qətlini,
Əgər “qadir”sənsə zülmə ver xitam,
Əfqan ağlamasın hər səhər-axşam.

***03.11.1957***

## AY DƏLİ

Bircə il mənimlə dost oldun, amma,
Elədin adımı bədnam, ay dəli.
Daha keçib, nə alışma, nə yanma,
Elədin adımı bədnam, ay dəli.

Mən səni özümə ilahi sandım,
Sübhü şam həsrətlə oduna yandım,
Düşməndən dost olmaz, indicə qandım,
Elədin adımı bədnam, ay dəli.

Dağların başında qar olmaz imiş,
Müxənnətdə namus, ar olmaz imiş,
Səndən **Əfqaniyə** yar olmaz imiş,
Elədin adımı bədnam, ay dəli.

## XƏRABƏ YOLLAR

O görünən İncəbelin[1] yoludu,
Ora yağan qar-yağışdı, doludu.
Baxt var idi orda karvan bol idi,
Niyə siz qaldınız xərabə, yollar?

Körpünüz, bəndiniz tamam sökülüb,
Aranıza qaya daşlar tökülüb,
Hər yeriniz arpa, buğda əkilib,
Niyə siz qaldınız xərabə, yollar?

Eniş, yoxuşunuz olubdur xarab,
Əbədi yolçunuz qarışqa, qurab,
**Əfqanın** göz yaşın eylədiz sirab,
Niyə siz qaldınız xərabə, yollar?

***1947***

[1] İncəbel – Udulu ərazisinə yaxın yer

## EY DOST

Oxu, sənin son nəğməni eşidim,
Arzum ürəyimdə qalmasın, ey dost!
Qəlbimdə matəmdir, söylə tarizən,
Bir daha musiqi çalmasın, ey dost!

Bülbül atsın özün yol ortasına,
Güllər dəstə-dəstə gəlsin yasına,
Rəqqaslar bürünsün qəm libasına,
Əlinə çarpara almasın, ey dost!

Məhbus **Əfqaniyəm**, eylərəm əfqan,
Gözümdən tökərəm şur ilə yaş-qan,
Ağlasın mənimlə yer və asiman,
Şadlığı yadına salmasın, ey dost!

***1947***

## BU GÜN

Fələk məni yaman yerdə qarğadı,
Vuruldum dilbilməz nadanə bu gün.
Dərdimi demədim, tənha dolandım,
Məni zənn etdilər divanə bu gün,
Vuruldum dilbilməz nadanə bu gün.

Eldən gizli gəzdim, gizli dolandım,
Həsrət çəkdim, eşq oduna qalandım,
Uçdu könül quşu, qəfil talandım,
Laçın idim, oldum pərvanə bu gün.

Yalan sözdür, kim söyləsə tarı var,
Hər ürəyin min cür ahu-zarı var,
Xoşbəxt odur, qəlbən sevən yarı var,
Səadət yox imiş **Əfqanə**, bu gün,
Dedilər, eşqimə əfsanə, bu gün.

## BÜLBÜL

Zəmistan fəslidir yenə dağlarda,
Bilirəm gəlmisən fəğanə, bülbül.
Sənin də gülşənin mənimki kimi,
Gör necə dönübdür xəzanə, bülbül!

Bu zülmü görməyib Rum ilə Ədən,
Çatlayır bağrımız qəmdən, qüssədən,
Bir günah etməmiş bilmirəm nədən,
Bizə gün verməyir zəmanə, bulbul?

Yalandır, hər bəndi şah fərmanının,
Yoxdur etibarı el dövranının,
Nə dərddir, həm sənin, həm **Əfqaninin**,
Döndərib belini kəmanə, bülbül?

***03.01.1955***

## A DAĞLAR

Yenə də qəflətən düşdüz yadıma
Bu qərib ölkədə, aman, a dağlar!
Vətən həsrətində üzülmüş canım,
Qalmayıb etiqad, iman, a dağlar.

Zalım cəllad öz zülmünü bildirir,
Ağladıban düşmənlərim güldürür,
Rəhm etməyib bu qurbətdə öldürür,
Eyləyir halımı yaman, a dağlar!

Alıbdır əlimdən mülkü varımı,
Qaldırıbdır ərşə ahu-zarımı,
Alıb hər hüququm, ixtiyarımı,
Mənə gün verməyir zaman, a dağlar!

Hər saatda alır mənim canımı,
Qarovullar tutur dörd bir yanımı,
Öldürür zindanda gənc **Əfqanımı**,
Çıxmağa verməyir güman, a dağlar!

***12.01.1955***

## OLMAZ

Qəmli könlüm, nə ağlarsan, sızlarsan?
Hər dəm xəzan olmaz, zimistan olmaz.
Uçular hasarlar, bitər ayrılıq,
Dilində nə nalə, nə əfqan olmaz.

Unutma quyuda  qalan Kənanı,
Dəryadə Yunisi, Şeyx Sənanı,
Neçələr tərk etdi fani dünyanı,
Darıxma, cəbr edən natəvan olmaz.

Düşünmə dostları, yaru yoldaşı,
Axıtma sübhü şam qanlı göz yaşı,
Axtarma, tapmazsan doğru sirdaşı,
Pis günündə sənə pasiban olmaz.

Nə qədər əlində vardır ixtiyar,
Düşmənin də olar sənin də qəmxar,
Elə ki, yıxıldın, olarlar kənar,
Qohumundan başqa bir yanan olmaz.

Dinlə **Əfqaninin** ürək sözünü,
Vətən yollarına tikmə gözünü,
İtirmə həsrəti-qəmdən özünü,
Havalar hər zaman qar,duman olmaz.

***1955***

## MƏNƏM, MƏN

Qaranlıq meşənin dərinliyində,
Tənha ağac qıran bil ki, mənəm, mən.
Sübhdən şamadək ahu-zar edən,
Ağır balta vuran bil ki, mənəm, mən.

Daima yağışlar yağan başına,
Azadlıq günləri düşən xaşına[1],
Hər an həsrət çəkib yar-yoldaşına,
Məzlum boyun buran bil ki, mənəm, mən.

Daha can qalmayıb miskin **Əfqanda**,
Doğru bir azadlıq yoxdur cahanda,
İllərlə çürüyüb qara zindanda,
Yenə də dağ kimi duran mənəm, mən.

***05.11.1955***

---

[1] Xaş – arzu, meyil

## QADASIN ALDIĞIM

Nə müddətdir məndən uzaq gəzirsən,
İnsaf elə, ay qadasın aldığım.
Zülm eləyib cavan canım üzürsən,
Vaxtsız oldum zay, qadasın aldığım.

Lalə rəngin alır al yanağından,
Abi-həyat axır bal dodağından,
Rəhm elə, qovlama öz otağından,
Deyiləmmi tay, qadasın aldığım?

Məhbus **Əfqaniyəm**, eylərəm əfqan,
Gözümdən tökərəm şur ilə yaş-qan,
Sailəm, istərəm səndən bir ehsan,
Ver qəlbini pay, qadasın aldığım.

***1953***

## GƏLMİŞƏM

Ay nainsaf, bir aç görüm üzünü,
Al yanaqda **xal** almağa gəlmişəm.
Uzaq gəzib nahaq yorma özünü,
İpək, tirmə, **şal** almağa gəlmişəm.

Siyah zülfün qonça gülnən hörülüb,
Belə zillət hansı yerdə görünüb,
Mən qalmışam, paltar sənə bürünüb,
Bu viladən **yol** almağa gəlmişəm.

Qurban olum sənin qələm qaşına,
Məni sevmək gələcəkmi xoşuna?
Gündə yüz yol qoy dolanım başına,
Dodağından **bal** almağa gəlmişəm.

Arzum budur bizim evdə gəzəsən,
Kəklik kimi cilvələnib süzəsən,
Bilirəm ki, əl dəyməmiş təzəsən,
**Dəymiş** çoxdur, **kal** almağa gəlmişəm.

Üzün görcək meyit olsa dirçəlir,
Əlin tutan ömrü boyu dincəlir,
Dinməməyin mənə daha xoş gəlir,
Dilli çoxdur, **lal** almağa gəlmişəm.

**Əfqaninin** vardır doğru ilqarı,
Sən olmusan indi könül sərdarı,
Aç pərdəni, soyun palı-paltarı,
Müştəriyəm, **mal** almağa gəlmişəm.

***1953***

## QARDAŞIM

Neçə müddətdi ki, zillət içində,
Çəkirəm ahu-vay, aman, qardaşım.
İllər əziyyəti, ayrılıq dərdi,
Etmiş əlif qəddim kaman, qardaşım.

Yağı düşmən durub mənim qəsdimə,
Utanmayıb böhtan atdı üstümə,
Od tuturam, gələn yoxdur tüstümə,
Məni çox incidir zaman, qardaşım.

Qalxıb asimanə naləvü ahım,
Özüm də bilmirəm nədir günahım,
Bəlkə də açılar mənim sabahım,
Tezliklə dağılar güman, qardaşım.

***30.03. 1956***

## QARA BAXTIM

Tutubdur gözünü qəflət yuxusu,
İnsaf elə, dayan, ay qara baxtım.
Mənə çəkdirdiyin dərdü bəladan,
Özün də ol əyan, ay qara baxtım.

Neçə illərdir ki, əziyyətdəyəm,
Ah-nalə içində, müsibətdəyəm,
Bircə Allah bilir nə möhnətdəyəm,
Söylə, yoxmu həyan, ay qara baxtım?

Ümidim kəsilib indi hər yandan,
Ağrıyır bədənim, bezmişəm candan,
Əyər yolun düşsə Azərbaycandan,
Halım elə bəyan, ay qara baxtım.

Göz yaşı tökürəm qara zindanda,
Buludlar görünür indi hər yanda,
Artıq tab qalmayıb **Miskin Əfqanda**,
Bəsdir, daha dayan, ay qara baxtım.

***1955***

## SƏN OLDUN

Bu qara zindanda zillət çəkəndə,
Məni eşq oduna salan sən oldun.
Qəmlər mənim əlif qəddim bükəndə,
Dərdimə, qeydimə qalan sən oldun.

Mənə həyat verən bal dodağından,
Ehtiras süzülən gül yanağından,
Gül verməkistəyən güllü bağından,
Əğlimi, huşumu alan sən oldun.

Gah naümid edib, gah inandırıb,
Gah sabaha kimi oda yandırıb,
Min işarə ilə sözün qandırıb,
**Əfqanın** qəlbini çalan sən oldun.

***1956***

## SABAHI GÖZLƏYİR GÖZLƏRİM MƏNİM

Baxaraq gecənin qaranlığına,
Sabahı gözləyir gözlərim mənim.
Qəlbim dərya kimi coşub çağlayır,
Axır, dayanmayır sözlərim mənim,
Sabahı gözləyir gözlərim mənim.

Gəliniz dağıdaq bu zindanları,
Qurtaraq zülümdən növcavanları,
Məhv edək qaniçən hökmüranları,
Onda qüvvət tapar dizlərim mənim,

Sabahı gözləyir gözlərim mənim.

Tutmasın sizləri qəflət yuxusu,
Artıq hiss olunur vurmuş qoxusu,
Durmayın tərəfdir bizə çoxusu,
Qorxmayın, minlərim, yüzlərim mənim,
Sabahı gözləyir gözlərim mənim.

**Misgin Əfqaniyəm**, dönmərəm yoldan,
Keçmişəm el üçün baş ilə candan,
Azadlıq dərdidir məni saraldan,
Odur dayanmayır sözlərim mənim,
Sabahı gözləyir gözlərim mənim.

***1949***

## OĞLUM

Sabahkı davaya şir tək gir, oğlum,
Yağı obamızı almasın gərək.
Düşmən orduların edək tarümar,
Davanı yadına salmasın gərək.

İndidən səngərlər olsun məskənin,
Qoru hər küncünü ana vətənin,
Bizim ölkəmizə girən düşmənin,
Daşı daş üstündə qalmasın gərək.

Amansız əsgər ol, bağla qolları,
Xainin qanıyla boya kolları,
Hər axşam gözləyir uzaq yolları,
Anan düşüncəyə dalmasın gərək.

Fildən də böyük ol, olma qarınca,
Atan Əfqanitək sarıl qılınca,
Zalımdan qisası biz almayınca,
İsrafil surunu çalmasın gərək.

Haydı irəliyə, haydı, keç oğlum,
Düşməni parçala, doğra, biç, oğlum.

## İNSAN

Ayıl bu qəflətdən, eşit sözümü,
Ey gözü torpaqdan doymayan insan.
Qocalıb dünyadan gedən gündə də,
Pisliyin əlindən qoymayan insan,
Ey gözü torpaqdan doymayan insan.

Varın çoxaldıqca yoldan azırsan,
Gündə birisinə quyu qazırsan,
Böhtan qurayırsan, ərzə yazırsan,
Gecəni dincəlib uymayan insan,
Pisliyi əlindən qoymayan insan.

Özgeynen oturub, özgeynen duran,
Qohumnan, qardaşnan aranı vuran,
Min hiylə işlədib, fırıldaq quran,
Atanı, ananı saymayan insan,
Gecəni dincəlib uymayan insan.

Özünü düşünüb özündən deyən,
Təzəyə qıymayıb köhnəni geyən,
Qonşuyla savaşıb, obanı söyən,

Kimsənin dərdini duymayan insan,
Atanı, ananı saymayan insan.

Haram tikə yeyib, şərabı içən,
Aləmi qayçıtək doğrayıb biçən,
Dövlətçün namusdan, qeyrətdən keçən,
Bir kəsə bir qəpik qıymayan insan,
Kimsənin dərdini duymayan insan.

Sanma, **Kərbəlayi** söyləyir lafı,
Eşit, bu sözlərdi sözlərin şahı,
Doğru yola qayıt, tanı Allahı,
Ey qara torpaqdan doymayan insan,
Bir kəsə bir qəpik qıymayan insan.

## QARA GEYDİ AZƏRBAYCAN

Hər obada, hər ulusda, hər şəhərdə qopub tufan,
Həyətlərdə, küçələrdə, meydanlarda tökülür qan,
Yasa batıb Bakı, Gəncə, Şuşa, Qazax, Şəki, Şirvan,
Dünən bizə dost deyənlər bu gün olub qatı düşman,
Neçə igid oğlu-qızı bir gecədə getdi qurban,
İnildədi, sızıldadı, qara geydi Azərbaycan.

Sorub dərin quyulardan apardılar neftimizi,
Yayın qızmar günlərində işlətdilər qultək bizi,
“Dinmə!” deyib susdurdular “imdad!” deyən dilimizi,
Ağır taylar daşıtdıb sındırdılar belimizi,
Dağladılar sinəmizi, söylədilər yenə qan-qan,
İnildədi, sızıldadı, qara geydi Azərbaycan.

Əskilmədi başımızdan göydən gələn minbir qada,
Dinü iman, elmü sənət, namus-qeyrət getdi bada,
Neçə millət oğulları satıldılar pula, ada,
Xəcil olduq, rüsvay olduq, zəlil olduq bu dünyada,
Neçə qansız, din-imansız bu torpaqda sürür dövran,
İnildədi, sızıldadı, qara geydi Azərbaycan.

**QALIB**

Çürüyür çoxları indi Sibirdə,
Keçir ömürləri çoxu qəbirdə,
Ölsək rahat olaq bəlkə qəbirdə,
Nə vuruşma qalıb, nə üsyan qalıb,
Nə təşkilat qalıb, nə meydan qalıb.

Rusiya çəkibdir sinəyə dağı,
Artırır gün-gündən zülmü, fərağı,
Sönüb işıldayan ümüd çırağı,
Nə **Tövrat**, nə **İncil**, nə **Quran** qalıb,
Nə kafər, nə də ki, müsəlman qalıb.

Tükənib  qalmadı, malü mülkü var,
Artıb ürəklərdə həsrət, intizar,
Gedibdir əvvəlki hüquq, ixtiyar,
Nə Gəncə, Qarabağ, Naxçıvan qalıb,
Nə Bakı, nə Şəki, nə Şirvan qalıb.

**QALIB**

Neçə illərdir ki, əziyyətdəyik,
Nə səhhət, nə taqət, nə də can qalıb.
Dərdü qəm əlindən müsibətdəyik,

Nə hörmət, nə şöhrət, nə də şan qalıb,
Nə həvəs, nə istək, nə də can qalıb.

Gedibdir əvvəlki gözəl zəmanə,
Əlif tək qəddimiz dönüb kəmanə,
Qulaq asan yoxdur ahu fəğanə,
Nə etiqad qalıb, nə aman qalıb,
Nə fədakar qalıb, nə qurban qalıb.

Vurulub sinəyə çoxlu yarələr,
Analar bağlayıb indi qarələr,
Dərdlər artıbsa da yoxdur çarələr,
Nə məlhəm, nə dəva, nə dərman qalıb,
Nə əlac, nə şəfa, nə Loğman qalıb.

Çoxları vətəndən dərbədər olmuş,
Həqiqət yerinə hakim şər olmuş,
Etibar, məhəbbət dönüb zər olmuş,
Nə aqil, nə adil, nə insan qalıb,
Nə alim, nə cahil, nə ürfan qalıb.

***1948***

## QARDAŞLARIM

Nə vəd etsələr bizə, yalandı, qardaşlarım,
Oyanın vaxt yetişib, amandı, qardaşlarım.
Onlar talan etdilər Şəki, Şirvan mülkünü,
Onlar yasaq etdilər muğamatı, türkünü,
Onlar **“dahi” etdilər Yusif kimi tülkünü**,
Vətənin hər guşəsi zindandır, qardaşlarım.

Onlar aldı millətin nahaq yerə qanını,
Onlar aldı hamının dinini, imanını,
Onlar sordu millətin iliyini, qanını,

Torpağımız büsbütün virandı, qardaşlarım,
Millət düşüb ayaqdan, giryandı, qardaşlarım.

Onlar oldu həmişə erməninin qardaşı,
Onlar bizə qoydu ad "çuçmek" ilə "yoldaşı",
Onlar viran qoydular yüz minlərlə dam-daşı,
Günü-gündən halımız yamandı, qardaşlarım,
Hazır olun, qarşıda tufandı, qardaşlarım.

Onlar bizə gətirdi içki, qumar, rüşvəti,
Onlar çəkib apardı milyonlarca sərvəti,
Onlar qula çevirdi bütün eli, milləti,
Yollarımız çiskindi, dumandı, qardaşlarım,
**Aldanmayın ruslara**, düşmandı, qardaşlarım.

***1948***

## AĞLARAM

Başına döndüyüm ellər, obalar,
Əldən gedib nazlı yarım, ağlaram,
Qalmayıbdır tabü tavan səbr edəm,
Ərşə çıxıb ahu-zarım, ağlaram.

Ağlamaqdan bir cüt gözüm kor oldu,
Qanlı yaşım səhralara car oldu,
Yar özü getmədi, vallah, zor oldu,
Əldən aldı ixtiyarım, ağlaram.

Lal olubdur, bir söz deyən dilim yox,
Gülşən baxçasında qönçə gülüm yox,
Mən candan bezmişəm, ucuz ölüm yox,
Xəzan olub növbaharam, ağlaram.

Kasıb olan yar sevməsin dünyada,
Əgər sevsə, yetməz olur murada,
Məcnunsifət olub qaldım arada,
Sızıldaşır yaralarım, ağlaram.

Zalım fələk aşiqlərə cövr elər,
Sinəm başı tüstüləyər, qövr elər,
Uçar könlüm quşu, qəfil dövr elər,
Yara deyər intizarım, ağlaram.

Nə müddətdir yarı görə bilmirəm,
Siyah tellərini hörə bilmirəm,
Barısı ucadır, girə bilmirəm,
Yoxdur bircə havadarım, ağlaram.

## BİLMİRƏM

İsmi pünhan, həsrətindən yanıram,
Neynim ki, sizlərə gələ bilmirəm,
Xəlayiq çıxıbdır seyri-gülşənə,
Bir eynim açılıb gülə bilmirəm.

Yar gedəli həftə keçdi, ay oldu,
Bahar ötdü, isti düşdü, yay oldu,
Axdı gözüm yaşı, billah çay oldu,
Canımdan bezmişəm, silə bilmirəm.

Qəmli könül, heç şad olub gülmədin,
Yara qovuşmağa çata bilmədin,
Yar deyir, arsızsan, dözdün ölmədin,
Özümlə deyil ki, ölə bilmirəm.

**OĞUL**

Əyər ucalsan da Qaf dağı kimi,
Ağsaqqal döşündə uşaq ol, oğul!
İnsanı kobudluq alçaldar, inan,
Çalış ipək kimi yumşaq ol, oğul!

Nə qədər olsa da varın-dövlətin,
Dünyanı tutsa da şanın-şöhrətin,
Qədir-qiymətin bil elin-millətin,
Kasıba, fağıra dayaq ol, oğul!

Yol çəkdir, körpü sal, varsa imkanın,
Arxa-köməyi ol elin-obanın,
Sən də bir oğlusan Azərbaycanın,
Həmişə keşikdə sayaq ol, oğul!

Bir kəsi incitmə, nə də ağlatma,
Əyri yollar ilə mənsəbə çatma,
Namərd kölgəsində, amandı, yatma,
Evində, işində oyaq ol, oğul!

Bir ölməkdən ötrü demə yalanı,
Dağıtma boş yerə əldə olanı,
Evə dadandırma hər cür tulanı,
Alçaq adamlardan uzaq ol, oğul!

Dərdli adamların dərmanı ol sən,
Xəstə kimsələrin Loğmanı ol sən,
Yaxşı adamların qurbanı ol sən,
Yolun azanlara mayaq ol, oğul!

Xəbərçilik edib, danışma böhtan,
Bir kəsə şahidlik etmə nahaqdan,
Ən ağır gündə də əl üzmə haqdan,
Mənzil yaxınlaşır ayaq ol, oğul!

## QEYRƏTİN

Bir yanar atəşə atılıb vətən,
Özgə torpağına qatılıb vətən,
Düşün, neçə dəfə satılıb vətən,
Axı talan olur varın, dövlətin,
Bəs hanı vüqarın, hanı qeyrətin?

Xocalıda əyilmişdi belimiz,
Şuşa, Laçın lal eylədi dilimiz,
Kəlbəcərdə rusvay oldu elimiz,
Ayaq altındadır namus, ismətin,
Bəs hanı vüqarın, hanı qeyrətin?

Neçə obaları düşmən alıbdı,
Neçə sinələrdə dağlar qalıbdı,
Kim səni endirib taxtdan salıbdı?
Necə götürürsən elin, töhmətin,
Bəs hanı vüqarın, hanı qeyrətin?

Koroğlu yurdunda yağı gəzərmi?
Şahin məskənində quzğun süzərmi,

Söylə, kişi olan buna dözərmi?
Sənsənmi varisi keçmiş şöhrətin,
Bəs hanı vüqarın, hanı qeyrətin.

Düşməndə Murovtək dağlar qalıbdı,
Meyvəli bağçalar-bağlar qalıbdı,
Yeddi milyon adam ağlar qalıbdı,
Yoxsa tükənibdir gücün, qüvvətin,
Bəs hanı vüqarın, hanı qeyrətin?

Deyən unutmusan əhdi-ilqarı,
Atmısan namusu, qeyrəti, arı,
Kiminçün yığırsan dövləti, varı,
Haradır səfərin, nədir niyyətin?
Bəs hanı vüqarın, hanı qeyrətin?

Adam oğurlayır, meyid satırsan,
Silah çırpışdırır, ara qatırsan,
Pul üçün vətəni, eli satırsan,
Xəyanət, dönüklük olub sənətin,
Bəs hanı vüqarın, hanı qeyrətin?

Yoxsa unutmusan Babək babanı,
Koroğlu, Nəbi tək cəddü-əbanı,
Niyə tərk edirsən eli-obanı?
Bəlkə Rusiyada artır sərvətin?
Bəs hanı vüqarın, hanı qeyrətin?

Utan, xəcalət çək öz əməlindən,
Dönmüsən dinindən, ana dilindən,
Kişi də qaçarmı doğma elindən,
Geri qayıtmağa varmı cürətin?
Bəs hanı vüqarın, hanı qeyrətin?

Əl çək bu alverdən, burax tamahı,
Eşit göyə qalxan naləvü-ahı,
Düşün millətini, düşün sabahı,
Ayaq altındadır namus, ismətin,
Bəs hanı vüqarın, hanı qeyrətin?

Burax birdəfəlik bu təbliğatı,
Burax bu şayiə, bu təxribatı,
İnan ki, yetişib qisas saatı,
Necə götürürsən elin töhmətin,
Bəs hanı vüqarın, hanı qeyrətin?

***1994***

## YUSİF

Sən gələli bizim Azər elləri,
Çılpaq olub, tamam ac olub, Yusif!
İşləməkdən əyilibdir belləri,
Bir-birinə tamam qaç olub, Yusif!

Tamam məhsulları bizdən alırsan,
İldırımsan, başımızda çaxırsan,
Söz düməmiş zindanlara salırsan,
Neftimiz başına tac olub, Yusif!

Əvvəl qanad verdin, göyə apardın,
Sonra isə dilimizi qopardın,
Qızımızı, gəlnimizi apardın,
Harada bu qədər bac olub, Yusif?

Yaxşı saldın başımıza daşı sən,
Axıdırsan gözümüzdən yaşı sən,

Uzaq etdin bizdən əti, aşı sən,
Yediyimiz tək umac olub, Yusif!

İndi nə eləsən özün bilərsən,
**Əhmədin** qətlinə fərman verərsən,
Zaman keçər, bir də baxıb görərsən,
Taxtın sənin lap tarac olub, Yusif!

## STALİNDİR DÜŞMƏNİM

Axaraq dayanmayır qanlı yaşlar gözümdə,
Əziyyətin izi var vaxtsız solan üzümdə,
Qalmayıbdır taqətim ayağımda, dizimdə,
Əriyir bir şam kimi günbəgündən bədənim,
**Stalindir düşmənim**.

Neçə igid cavanlar can çürüdür zindanda,
Körpələr "çörək" deyib dilənirlər meydanda,
Heç bir hüquq, azadlıq qalmayıbdır insanda,
Ayaqların altında qul olubdur vətənim,
**Stalindir düşmənim**.

**Əfqanın** ömrü seltək bir an durmadan axır,
Zəmanə mən miskini daim yandırıb yaxır,
Gözlərim min həsrətlə sabahkı günə baxır,
Öləndən yüz il kecə, səs verər qəbrim mənim,
**Stalindir düşmənim**.

***1949***

## DİL BAĞLI

Ay həzarat, bir zamanda yaşaram,
İxtiyar yox, ayaq bağlı, qol bağlı.

Müşgül olsa viladan[1] qoşaram,
Bəkçisi çox, qapı bağlı, yol bağlı.

Hüququm yox deyəm ürək sözümü,
“Görmə” deyib bağlayıblar gözümü,
Bu meydanda tək görürəm özümü,
Millət avam, ağız bağlı, dil bağlı.

Mən **Əhmədəm**, bu zillətə dözmərəm,
Yad bağından qönçə güllər üzmərəm,
Cənnət olsa, belə yerdə gəzmərəm,
Qarşı zülmət, arxa, sağü sol bağlı.

## KÖNLÜM

İllər boyu yar yolunda qan ağlayanda,
Bilmirdim ki, bir cocuqsan, əfsanə könlüm!
Səhər-axşam neyçin adın əzbərləyirsən?
İtirmisən əğli, huşu, divanə könlüm!

Faydasızdır, yar başına dolanma bir də,
Ayağının torpağına bulanma bir də.
Zəhmət çəkib ətəşinə qalanma bir də,
Axır bir gün yanacaqsan, pərvanə könlüm!

Kim desə ki, dostam sənə, söyləyir yalan,
Ürəyində bir sirri var, etməyir bəyan.
İpək olma, cismi-tənin olacaq talan,
Dost yolunda düşməndinmi zindanə, könlüm?

[1] Vila- vilayət, ölkə.

Gecə-gündüz qan ağlama, qəlbən yar olmaz,
Yad oğlunda sevgi olmaz, etibar olmaz.
Aman baxtım, neçin səndə namus, ar olmaz?
Ömür keçdi, gün vermədin **Əfqanə**, könlüm!

## OLSUN

*(Əzizə bacımın ad gününə)*

Arzum budur, görməyəsən zərrə qəm-kədər,
Günəş sənin, ulduz sənin, ay sənin olsun.
Arzum budur, heç zəhmətin getməsin hədər,
Kainatda ən qiymətli pay sənin olsun.

Arzum budur heç axmasın göz yaşın üzə,
Yaş hesabın çatdırasan bir neçə yüzə,
Arzum budur, gecələrin dönsün gündüzə,
Qəlbi dağlar, göy səmalar, çay sənin olsun.

Arzum budur, kəsb edəsən ən uca ad-san,
Yer üzündə sən olasan hakimi-dövran,
Arzum budur, səcdə etsin sənə hər insan,
Kaman sənin, qaval sənin, ney sənin olsun.

Arzum budur, düşmənlərə qələbə çalaq,
Qızılgül tək hər fəsildə ətirli qalaq,
Arzum budur, gələn ildə bir yerdə olaq,
**Əfqani** də, sevdiyin də, ay sənin olsun.

***1955***

## BİR YADİGAR OLSUN SƏNƏ

*(Bacım Əzizəyə)*

Deyirsən ki, sən gedirsən, bir yadigar burax mənə,
Düşünürəm xeyli vaxtdır, bir şey varmı verim sənə,
Vətənimçin yanağıma süzələnən dənə-dənə,
Mənim ilkin göz yaşlarım bir yadigar olsun sənə.

Düşünürəm, bir əbədi şey varmı ki, yadigarlıq,
Baxıb ona xatirinə gələ keçmiş vəfadarlıq,
Hər qırpımda anlaşılan təmiz ürək, düz ilqarlıq,
Dünyaya ilk baxışlarım bir yadigar olsun sənə.

Miskin canım bir gül kimi tez açılıb tez solsa da,
**Əfqaninin** ürəyinə qara qurşun lap dolsa da,
Bu çox ucuz, çox tapılan, çox da sadə şey olsa da,
İlk ürək çırpınışlarım bir yadigar olsun sənə.

***1949***

## GƏL, EY SƏHƏRİM, GƏL

Hər bir açılan sübh mənə olsa da əngəl,
Gəl, ey səhərim, gəl.
Dövran məni hər ləhzə kəsib etsə də xingəl,
Gəl, ey səhərim, gəl.
Kim söyləsə: dünyadə vəfa var, mən inanmam,
Azadə həyat, zövqü səfa var, mən inanmam.
Bir müşkülə, bir dərdə dəva var, mən inanmam.
Ömrüm keçibən son günüm tez çatsa da sən gəl,
Gəl, ey səhərim, gəl.

**Əfqanidi** namim, vətənim cənnəti-Şirvan,
Gənc ikən hələ oldu yerim bir qara zindan,
Sağ qalsam əgər, mən də ona udduracam qan,
Dövran isə öz intiqamın alsa da əvvəl,
Gəl, ey səhərim, gəl.

# QƏZƏLLƏR

***

Çox öyünmə, gözəlim, bülbüli-şeyda kimiyəm,
Çox gözəldən gözələm, hüsndə Gülşa kimiyəm.

Olmaram razı ki, Yusif ola xidmətkarım,
Mən gözəllər gözəli, misri-Züleyxa kimiyəm.

Can alan qaş-gözümə aşiq olub məşuqlar,
Naz alıb, işvə satan dilbəri-Bəsra kimiyəm.

Həsrətindən çox adam əğl itirib, Məcnun olub,
Çox təəccüb eləmə mən dəxi Leyla kimiyəm.

Dərdli **Əfqani** deyir, şəms qürurilə bu gün,
İstəməm aləmi, mən bir fani dünya kimiyəm.

***1950***

***

Nə olubdur könülə, guşeyi-hicran dolanır,
Etməyib səbrü qərar, hər tərəf, hər yan dolanır.

Deyəsən, dostlarının bildi dəxi niyyətini,
Gəzməyib aləm-ara, indi də pünhan dolanır.

Yanaraq hicr oduna şəmidə pərvanə kimi,
Tökübən göz yaşını eyləyib **Əfqan** dolanır.

***1950***

***

Söyləyirsən, yanıram sübhə qədər atəşinə,
Söylə, ey sərvəri-mən, şəmmi, pərvanəmisən?

Gah verib xeyli ümid, gah gəzirsən aralı,
Böylə bir fikrilə sən əqlimi, divanəmisən?

Bu qədər göz yaşının axırı ümmanə dönər,
Yaxşıca fikr elə bir, göldəmi, dəryadəmisən?

O qədər zülm elədin, aləmi tutdu kədərim,
Bilmədim ömr boyu huşmi, məstanəmisən?

***1954***

***

Diyari-qürbət içrə xəstəyəm, tabü təvanım yox,
Gedibdir dövləti-varım, əlimdə nəğd canım yox.

Deyərlərdi çəkən zillət, olar axır günün rahət,
Çəkib yüz ah hər saət, nicatə bir gümanım yox.

Uçubdur uçmayan xanəm, yox olmuş əski kaşanəm,
Nə kafər, nə müsəlmanəm, nə bir özgə imanım yox.

Solubdur laləzar bağlar, çəkilmiş sinəmə dağlar,
Təbiət yas tutub ağlar, nə tarım, nə kamanım yox.

Tutulmuş göl fəğanımdan, yaranmış nəhr qanımdan,
Bezar oldum bu canımdan, bəli, keçmiş zamanım yox.

Kömək etməz mənə İsa, Məhəmməd, Davudü Musa,
Nə "Zəbur", "İncil"imin olsa, nə "Tövrat",
nə "Quran"ım yox.

Axıtdım cismidən qani, itirdim şöhrəti –şani,
Ölür məhbəsdə **Əfqani**, nə yurdum, nə məkanım yox.

***1955***

***

Gözəlim, sən kimi olarmı dünyadə,
Neçə biçarələr eşqində dönüb Fərhadə?

Bu məlahət, bu nəzakət, bu lətafət haradan?
Afərin sən kimi rəna yetirən ustadə.

Cəmi zindani nicat istərkən aləmdə,
Eşq əsiri fəqət olmaq diləməz azadə.

Bir kərəm qıl, dayan, zəmanə Leylasi,
Nə qədər aşiqi Məcnun elədin səhradə?

Lütf edüb gün kimi baş verməz isən hərdəm sən,
Gedər **Əfqani** kimi çoxların ömrü badə.

***1961***

***

Dinlə ey sərvi-rəvan, gör nə əziyyət çəkirəm,
Qalmayıb tabü təvan, dərdü müsibət çəkirəm.

Gün keçib, ömr gedib, tağəti-canım tükənib,
Yenə də yar kənarında məşəqqət çəkirəm.

Mən vəfa əhliyəm, ey gül, sənə izhar nə gərək,
Söz verib, əhd eləyib, müşgülü zillət çəkirəm.

Sən gələn yollara mən canımı qurban elədim,
İndi canım da gedib, aləmə həsrət çəkirəm.

Nola bir yol çaşıban bəlkə güzar eyləyəsən,
Görəsən yar fəraqında nə hicrət çəkirəm.

Ahu naləm ucalır göylərə, çatmırmı sənə?
Rəhmə gəl, bir nəzər et, qəddinə minnət çəkirəm.

Bəxti zülfün kimi tar oldu fəqir **Əfqanın**,
Tez yetiş, gör bu gülüstanda nə zülmət çəkirəm.

***mart, 1957***

***

Ey gözəl, səbr et, dayan, bir az da mehman ol mənə,
Taqəti-canım gedir, sən getmə, bir can ol mənə.

Öylə bir zillətdəyəm, hər kəs məni tərk eyləmiş,
Rəhmə gəl, əhd eyləyib qüdrətli sültan ol mənə.

Xəstəyəm, biçarəyəm, yoxdur təbibü məlhəmim,
Bari insaf eyləyib şəfqətli dərman ol mənə.

Görmədim dünyadə mən azadəlikdən bir nişan,
Bəxt yox, imdad yox, bir özgə dövran ol mənə.

Gün ötür, ömrüm keçir, gənclik gedir karvan kimi,
Misgin **Əfqanim** ölür, sən qeyri əfqan ol mənə.

***1956***

***

Çəkmişəm sübhə qədər naləvü əfqan bu gecə,
Getmiş əldən deyərəm beyətü iman, bu gecə.

Tərsinə dönmüş idi yoxsa ki, dövran bu gecə,
Təxtindən düşmüş idi sanki Süleyman bu gecə.

Nə qədər səy elədim, olmadı imkan bu gecə,
Gözlədim sübhə kimi, gəlmədi canan bu gecə.

***1962***

***

Dərdü halimdən mənim dünya xəbərdar olmadı,
Bilmədim üzrüm nədir, dostum mənə yar olmadı?

Yalvarıb tökdüm yaşım, rəhm etmədi ah-naləmə,
Əlli yol rədd eylədi, leyki mənə ar olmadı.

Gündə diz çökdüm müdam, imdadxahimsən dedim,
Leyli-Məcnun ülfətində böylə ah-zar olmadı.

Bülbüləm, eşqində mən şur ilə əfqan eylədim,
Verdi yüz vədi-xilaf, amma vəfadar olmadı.

Mən fəqir **Əfqaniyəm**, yarım, mənə naz eyləmə,
Qəlbimə səndən savay bir kimsə sərdar olmadı.

***1953***

***

Naşı bazarında mən dürdənəlikdən düşmüşəm,
Səhv edib zahir olub əfsanəlikdən düşmüşəm.

Dövrani almış bütün nursuz, qaranlıq pərdələr,
Şəmilər sönmüş dəxi, pərvanəlikdən düşmüşəm.

Xuni-aşiq bir şərab mislində paylardım müdam,
Camisiz qalmış bu gün, məstanəlikdən düşmüşəm.

Aşiqə qəlbim verib daxildə bir Məcnun idim,
Dərk edib axır günün divanəlikdən düşmüşəm.

Eybcunun bir sözü nun eyləmişdi qəddimi,
Çox sevinmə, ey fəqir, piranəlikdən düşmüşəm.

Yusifi-Kənan mənim göstər qulumdur hüsnidə,
Leyk görmür aşiqim, kasanəlikdən düşmüşəm.

Neyləyim, kəçrov fələk **Əfqani** etmiş namimi,
Sübhü şam əfqan edib rindanəlikdən düşmüşəm.

***1954***

***

Məlhəmü dərmanım ol, dərdim nihandır, dilbərim,
Bil ki, bu son şıltağım, son imtahandır, dilbərim.

Öpməyə gül sürətin daim könül eylər həvəs,
Arizumun qüvvəsi bir növ tüfandır, dilbərim.

Mən səni çox axtarıb axırda buldum könlüdə,
Gözəllərin gəl-gəl deyir, dövrən tikandır, dilbərim.

İstərəm şöhrət tapıb dillərdə söylənsin adın,
İstəyim indi deyil, xeyli zamandır, dilbərim.

Cürətin, məğrurluğun əsla zərər verməz sənə,
Qovğada əmr etməyin, bilsən, ziyandır, dilbərim.

Baxma kim namim mənim **Əfqani** olmuş dəhridə,
Sən fəqət fikr eyləmə, fəsli-xəzandır, dilbərim.

***1951***

***

Söyləyirkən, ey Xuda, bilməm ki, şahdır, ya gəda,
Qalmışam mən uyquda, bilməm ki, Allah varmıdır?

Ah çəkirkən hər səhər, canım üzürkən qəm, kədər,
Fikr edir kəndü şəhər, bilməm ki, Allah varmıdır?

Çox görüb insanları, aqilləri, nadanları,
Seyr edib zindanları, bilməm ki, Allah varmıdır?

Artıq olmuş qüssələr, itmiş, tükənmiş nəşələr,
Ac qalırkən körpələr, bilməm ki, Allah varmıdır?

Həddi yoxdur zillətin, dövrü bəla bu həsrətin,
Nami batmış millətin, bilməm ki, Allah varmıdır?

Yatmada üsyanımız, qalxır göyə əfqanımız,
Tərk olur imanımız, bilməm ki, Allah varmıdır?

Tapdanır ustadlıq, rövnəq tapıb bədxahlıq,
Ləğv olub azadlıq, bilməm ki, Allah varmıdır?

Gün keçir zindanidə, can qalmamış **Əfqanidə**,
Söylərəm hər anidə, bilməm ki, Allah varmıdır?

***1948***

***

Necə qan ağlamayım, sevgili cananım ölür,
Cismi cavan ki, ölür, birdəfəlik canım ölür.

Ey dilim, atəşə yan, həsrəti-dildari danış,
Susma bir ləhzə aman, Yusifi-Kənanım ölür.

Mənə tən eyləməyin, sübhü məsa[1] ah edirəm,
Çünki tərsa oluram, beyətü imanim ölür.

Taleyim döndü qəfil, yaxdı atam xanəsini,
Günəşim etdi qürub, səhnidə tərlanım ölür.

Gəncliyim keçdi hədər, kimsə əlac eyləmədi,
Tari-zülmətdə qalıb bağidə bağbanım ölür.

Sizi tari buraxın kəşti-biyaban dolanım,
Bəlkə bir çarə qılam, hakimi-Loğmanım ölür.

Ey xuda! Rəhm elə bir, zülmü bəla həddən aşıb,
Sevgilim etdi vəfat, indi də **Əfqanım** ölür.

***10.01.1955***

***

Gözəlim, sən kimi dilbər olarmı dünyadə,
Neçə biçarələr eşqində dönüb Fərhadə.

Bu məlahət, bu nəzakət, bu lətafət hardan?
Afərin sən kimi rəna yetirən ustadə.

Cəmi zindani nicat istərkən aləmdə,
Eşq əsiri fəqət olmaq diləməz azadə.

Bir kərəm qıl, dayan zəmanə Leylasi,
Nə qədər aşiqi Məcnun elədin səhradə,

[1] Məsa - axşam

Lütf edib gün kimi baş verməz isən hərdəm sən,
Gedər **Əfqani** kimi çoxların ömrü badə.

***

Fələk zülmilə dövr eylər, bizə verməz aman, Allah!
Saralmış mah rüxsarlar, olub bellər kaman, Allah!

Düşübdür ayrı qardaşlar, tökülmüş üzlərə yaşlar,
İtirmiş əğlini başlar, olubdur bir salam, Allah!

Solubdur laləzar bağlar, çəkilmiş sinəyə dağlar,
Təbiət yas tutub ağlar, hala yox bir yaman, Allah!

İtirmiş şəklini üzlər, xəyanət eyləyir gözlər,
Xilafi-əhd olub sözlər, nə pismiş bu zaman, Allah!

Olubdur vəhşi insanlar, axır hər gün nahaq qanlar,
Dolubdur qarə zindanlar, nicatə yox güman, Allah!

Ölüb çoxlar, qalan azdır, qalan matəmləri sazdır,
Biri yox, cümlə qanmazdır, tapılmaz bir qanan, Allah!

***1957***

## RÜBAİLƏR

***

Bir çoban edibdir mənə ustadlıq.
Daimi borcumdur ona övladlıq.
On il tədris etdi mənə bir elmi:
Məhəbbət, sədaqət, bir də azadlıq.

***1947***

***

Yanıram hicrində sənin, ay gözəl,
Deyim dərdlərimi, bir-bir say, gözəl.
Səhər yatağımdan durub gedəndə,
Axır göz yaşlarım, olur çay gözəl.

***1947***

***

Qəlbimdə iztirab, gözümdə həsrət,
Dərdindən çəkirəm min cürə zillət.
Fəqət deyirlər ki, əsəbdir xəstəliym,
Bir də alovlanmaz sönmüş məhəbbət.

***1949***

***

Ey məni hər anda yandıran oda.
Getdi cavan ömrüm xəzana, bada.
Bəlkə görüşmədik bir də həyatda,
Barı öz yuxunda məni sal yada.

***1949***

***

Zəmanə köksümü hər an dağlayır,
Zindandan qapını açmır, bağlayır.
Bu geniş dünyalar dar olmuş mənə,
Gözlərim gülsə də qəlbim ağlayır.

***1954***

***

Həyatın qədrini öləndə bildim.
Ağladım, göz yaşım siləndə bildim.
Namərd dostlarımın iti xəncəri,
Bağrımın başını dələndə bildim.

***1955***

## ƏHMƏD CƏFƏRZADƏNİN XATİRƏ VƏ HEKAYƏLƏRİ



## EŞİTDİKLƏRİMDƏN, GÖRDÜKLƏRİMDƏN YADIMDA QALANLAR

Bacım və qardaşım məni çətin vəziyyətə salıblar. Çünki, 1) özləri bu mövzunu yazandan sonra mənə də yazmağı təklif ediblər, 2) məndən nisbətən yaşlı olduqları üçün ailə tarixini daha yaxşı bilirlər.

Nə isə, çarə üoxdur, gərək mən də yazam.

Bəli, atamız Kərbəlayi Məmməd Məşhədi Cəfər oğlunun atası Tağılı, anası Şamaxı əhli olb. Atam mənim yadıma gəlmir, çünki o kənddə, mən şəhərdə yaşamışam və o vəfat edəndə 10 yaşım olub. Atamın ana qohumlarmdan dayısı oğlanları - Məşhədi Böyükağa (Tofiqin atası), Məşhədi Əliyusif (Məmədseyinin atası), Məşhədi Kazım (Ələsgərin atası), molla Hacağa (Ələkbər və Süleymanın atası), dayısı qızları Badam bibi və Bgyükxanım bibini (Əliheydərin anası) görmüşəm. Ata qohumlarımdan yalnız Məşhədi Cavadı görmüşəm. (O biriləri yadıma düşmür).

Anamın atası Kərbəlayi Əliheydər Kərbəlayi Vəliyar oğlu əslən Ağsunun Garıs elatındandır, XIX əsrin təxminən, 70-80-cı illərində atası ilə köçüb Şamaxıya gəlib. Garısın Curuğlu və Maşad Qanılı kəndlərində bəzi qohumabənzərləri qalıb. Babamın bir bacısı olub, uşaqları ölüb, Ağarza adlı bir qardaşı olub (İzzət bacınm atası), o da çox cavan ölüb. Babamın anası da çox cavan ikən ölüb. Atası Püstə adlı bir arvad alıb.

Babamın babası Alı bəy olub və çar hökuməti bəyləri qeydə alarkən qorxub və deyib ki, mənim adım Alı bəy yox, Bəyalıdır.

Anamın anası Seyid Rübabə Mirağası qızı Şamaxmm məşhur, dövlətli, ziyalı bir ailəsində anadan olub. (Babası Mirələsgər, ulu babası Mir Haşim). Anamızın dediyinə görə Seyid Rübabənin anası Zeyvənisə xanım Şirvanm sonuncu Xanı Mustafa xanın qızı olub. (Məncə o, qızı yox, nəvəsi ola

bilərdi)

Anamızın admı Zeyvənisə qoyublar, lakin Böyükxanım çağırıblar, heç bir bacı-qardaşları yaşamayıb, hamısı körpə ikən vəfat edib.

Seyid Rübabə nənə ilə atamızın bacısı Şərəfnisə bibi yaxın dost olublar. Bu səbəbdən nənə onu evdə tərifləyib və qardaşı Mir Seyfullaya alıblar. (Sonralar Mir Seyfulla tez ölüb, bibimi kiçik qardaşı Mir Əsədullaya, o da öləndən sonra ən kiçik qardaşı Mir Kərimə alıblar.) Bibimin 2-ci ərindən 1 oğlu - Mirağa, 3-cü ərindən də bir oğlu - Mirabtalıb olub. Bibimizin nəvələri İranın Tehran, Kərəc və Məşhəd şəhərlərində, ABŞ, İngiltərə, İspaniya və s. yaşayırlar.

Seyid Rübabə ilə Şərəfnisənin dostluğu nəticəsində Şərəfnisə bibi öz yeganə qardaşma (atamıza) Seyid Rübabənin qızı Güllübəyimi alır, nişan verilir, lakin Güllübəyim vəfat edir. Bu zaman anamız 4 yaşında olur. Şərəfnisə və Seyid Rübabə qohumluğu pozmamaq üçün səbrlə gözləyir və ana bir qədər böyüyəndən sonra onu atamıza verirlər.

Atamız anamızdan 17-18 yaş böyük olub. Hər ikisi ata-anasmm əziz övladı, ərköyün böyümüş, “düşmə yerə smarsan” olmuş, bəlkə elə bu səbəbdən də ömür boyu bir-birinə isnişə-uyuşa bilməmişlər.

Sovet hakimiyyəti qurulan zaman atamız Tağılıya gəlir, burada Xeyri adlı bir qadınla evlənir, 5-6 il müxtəlif yerlərdə işləyir. 1927-ci ildə Ata, ana, Xeyri, Seyid Rübabə nənə, Əzizə və Məmməd daimi yaşamaq üçün İrana - Məşhəd şəhərinə köçürlər. Lakin atamız və xüsusilə Meşədi Xeyri bu yerlərin adətinə, dilinə, qaydalarma uyuşa bilmir, tezliklə əllərində olan az - para da qurtarır, narazılıq başlanır və 1928-ci ilin payızmda Vətənə qayıdırlar.

Atamız və Meşədi Xeyri kəndə dönür, Tağılı camaatı köməkləşib bunlar üçün kərpic kəsir, 2 gözdən ibarət bir ev tikirlər. Ev kərpic olsa da kəndin ən gözəl evi idi: 2 gözdən

ibarət, pəncərəsi, səkisi, damları və s.

İrandan qayıdandan azca sonra Meşədi Xeyrinin oğlu olur və 3 gündən sonra ölür. Az sonra mən, Bakıda anadan oluram.

Ümumiyyətlə anamızm 7 övladı olub: Nurcahan (1919-da ölüb), Əzizə, Cəfər (1925-də ölüb), Məmməd, Əhməd, Validə (1933-də ölüb), Əliheydər (1934-də ölüb).

1928-ci ildən sonra atamız daimi olaraq Tağılıda, anamız isə Bakıda yaşayıb. Məmməd 4-5 yaşmdan etibarən atamızm yanmda qalıb, Əzizə və mən isə anamızm.

C. Məmmədquluzadənin “Xatiratımda” də yazdığı kimi ilk eşitdiyim (və uzun illər eşidəcəyim) söz ”allahü əkbər” , ilk gördüyüm şey - namaz qılmması olub. Evimizdə ancaq hədislər, rəvayətlər danışılır, möcüzələr, dini məsələlər şərh edilir, salavat çevrilir, şəkkakə, Yezidə, Şümrə, mütriklərə lənət deyilirdi və s. Bunlardan başqa boş vaxt qalmırdı, qalanda isə anamız öz ata-anasmm bəlalı məhəbbətindən, sonrakı talelərindən danışırdı. O, ata-anasının görüşlərini, toylarmı, həyatlarmm bütün şirin və ağrılı günlərini elə dəqiqliklə, elə bir məharətlə təsvir edirdi ki, deyərdin elə həmişə onlarla yanaşı olub, danışdıqlarmı öz gözləri ilə görüb, yadında saxlayıb. Anamızın öz ata-anası barədə danışdıqlarmm çoxunu Əzizə və Məmməd öz yazılarında veriblər. Mən, onlarm da bildiyi kimi, lakin yazmadığı bir əhvalatı, Kərbəlayi Əliheydər baba ilə Seyid Rübabə nənənin toylarmm səhəri günü olan bir hadisəni danışım: Toyun səhərisi, günorta vaxtı babanm ögey anası (Püstə, yaşlı kəndli qadın) aş bişirir, üstünə öz bildiyi kimi qəlyə düzəldib tökür, iri bir qaba çəkib pərdə arxasında oturmuş bəy və gəlinə (pərdənin altmdan keçirərək), verir. Seyid Rübabə nənə dövlətli bir əsilzadə evində böyümüş qız olduğundan xörəyi bəyənmir, lakin yeyir, fəqət qəlyənin içindən 4 bölünüb tökülmüş, iri-iri soğanları ayırıb qaşıqla qabm qırağma qoyur. Əliheydər baba başa düşür ki, əgər analığı gəlinin belə hərəkətini bilsə, indidən evə danışıq

düşəcək. Odur ki. qəfildən soğanları ağzına basır və ürəyi bulansa da, bir təhər udur.

Nənəmiz uşaq ikən (Şamaxıda) küçədə armud satan bərkdən deyir. "Armud var, armud. Batmanından batman yarım bəkməz çıxar". Nənə tez anasının yanına qaçır ki, bəs belə bir armud satırlar. Anası gülüb deyir: ay bala, bir batman armuddan heç bir girvənkə bəkməz çıxmaz. O, öz malmı satmaq üçün tərifləyir.

Ümumiyyətlə, anaya elə tərbiyə verilmişdi ki, o, heç kimin dediyinə şübhə etmir, yalan danışacağma inanmır, hər şeyə inanırdı. O, ümumiyyətlə, səsini ucaltmaz, etiraz etməzdi.

Evi dolandıran Seyid Rübabə nənə idi: ona çoxlu nəzir-niyaz verilirdi. Lakin bundan evdə heç nə saxlanılmır, bizdən kasıblara paylanırdı.

1935-ci ildə Seyid Rübabə nənə gizli yolla İrana, qardaşı uşaqlarma dəyməyə getdi. (Kərbəlayi Həcər adlı bir qadınla), lakin geriyə qayıda bilmədi. Biz həm maddi, həm mənəvi dayaqdan məhrum olduq. Ana - xəstəhal, sənəti yox, yanında xırda uşaqlar. Hər ayda, 2 ayda bir İrandan intizar, göz yaşı dolu məktublar gəlirdi. Ana çaş-baş olmuşdu. Evdən əvvəl yorğan-döşəyi, qədim padnos, lampa, qab-qacağı, sonra xalça-palazı və s. astarveşə (qapı-qapı gəzib köhnə-külə alanlara) su qiymətinə satıb birtəhər güzəran keçirməyə nail oldu. Lakin tezliklə ev boşaldı, nəsə bir ciddi tədbir görmək lazım gəldi. Deyəsən, 1937-ci il idi. Ana qısamüddətli bağça müdirəsi kursuna daxil oldu və 1938-ci ilin yazmda kursu bitirdi. Göyçay rayonuna təyinat verdilər. Ana məni də özü ilə götürüb qatarla Ucara, oradan furqonla Göyçaya gəldik. Bazarın yanmda hamı ilə birgə biz də düşdük. Anam, faytonçu Abduləlinin evini soruşdu. O kişi Haccavadın qızı Həcərin əri idi. Kimsə tezcə Abduləlini tapıb gətirdi, onun faytonunda evinə gəldik. Bağlı-bağatlı, geniş həyətli, yaraşıqlı ev idi. Arvadı Həcər bizi çox mehriban qarşıladı. Səhərisi günü maarif

şöbəsi ananı Yeniarx kəndində təzə açılan bağçaya müdirə təyin etdi. O birisi gün Abduləli bizi öz faytonu ilə gətirib bağçaya aşpaz və xidmətçi təyin edilən Zeynəb adlı bir qadınm evinə qoydu. Zeynəbin əri və uşaqları vardı və elə təxminən, ana yaşda olardı, kənddə şiə təriqətinə mənsub yeganə qadın idi ki, əslən şamaxılı olub 1918-ci il qırğınında bura düşmüşdü və bu qadını məhz anaya görə bu işə qoymuşdular.

Bağça üçün stol, stul, çarpayı, yataq ləvazimatı, qab-qacaq əvvəlcədən gətirilib məscidin həyətinə yığılıbmış və bağça məscidin içində yerləşməli imiş. Ana bunu bilcək çox narahat oldu, hətta geri qayıtmaq istədi. Lakin növbəti gün kəndin əfəndisi olduğumuz evə gəldi və anaya dedi:

- Qızım, sən olsan da, olmasan da bu bağçanı orada yerləşdirəcəklər, bəlkə lap klub, yeməkxana elədilər. Sən, görürəm ki, çadralı qadınsan, mənə dedilər ki, seyid qızısan, namaz qılan, quran oxuyansan. Heç narahat olma. Mən indicə gedib öz uşaqlarımı göndərərəm, avadanlığı məscidə yığarlar. Sən də Zeynəblə birlikdə gəlib sahmana sal. Sabah tezdən işinə başla.

Əfəndi dediyi kimi də oldu.

Səhəri gün cmdırından cin ürkən 20 çağlı 5-6 yaşlı uşaq bağçaya gəldi. Bu əsil mənada “Danabaş kəndinin məktəbi” idi. Uşaqdan çox iri yaşlı adamlar anamın nə edəcəyinə və bağçanın nə demək olduğuna tamaşaya gəlmişdi.
Ana heç tədbirini pozmadı, uşaqlara Sabir, Səhhət, Şaiq və b. şerlərini söylədi. Onları həyətə çıxarıb “Qaçdı-tutdu”, “Siçan-pişik”, “Bənövşə” və s. oyunları öyrətdi.

Nahardan sonra uşaqlara nağıl danışdı. Ana o qədər təbii, sadə, şirin, həvəsli danışırdı ki, yaşlı adamların çoxusu hər gün gəlib qulaq asırdı.

Ana uşaqlara mahnı öyrədirdi, sinədən gələn yapışıqlı səsilə “Durna”, “Dovşan”, “Keçi”, “Göyərin göy çəmənlərim”, “Quzu” və s. uşaq mahnılarını oxuyurdu. Uşaqlara 4 və 8 saylı

hərəkətlər, sıra təlimi, qaçış, hündürlüyə və uzununa tullanma və s. öyrədirdi.

Hər bazar günü meşələrə meyvə yığmağa gedirdik. Onda Ucarla Göyçayın arası meşəlik idi:alça, gavalı, armud, əzgil, alma, zoğal və s. yığırdıq, vəhşi heyvan çox idi. Ana çox cəld idi; ən hündür ağaclara çıxıb qoz çırpırdı.

Xeyli lavaşana, quru turşu, qax, qoz və mət turşu düzəltmişdik, bir qədər yarma, quyruq yağı, yemiş qurusu və s. əldə etmişdik. Qış ehtiyatı idi.

Həmin yay Əzizə Gəncədə qiyabi pedaqoci texnikumda sessiyada idi. Bir dəfə yanımıza gəlib 1-2 gün qaldı.

Beləcə 5 ay keçdi. Ana darıxdı, payızda kənd şəraiti ağır oldu, dözə bilmədi, və biz Bakıya qayıtdıq.

1937-39-cu illərdə ana bir neçə 50-60 yaşdı arvada yasin, quran tapşırması, süfrə duası, müxtəlif mərsiyə, hədis və s. öyrədirdi. Bu arvad- lardan Molla Püstə xüsusilə yadımdadır, çünki onun bizə gəlib-getməyi uzun illər davam etdi. Molla Püstə və o biri arvadlar anadan çox yaşlı olduqları üçün ana onlara acıqlanmır, səsini ucaltmır, bəzən bir cümləni 50-100 dəfə təkrar etməli olurdu. Ana nə qədər səbirli, təmkinli müəllim imiş!!! Molla Püstə tam savadsız olduğu halda onu arvad məclislərinin mollası vəzifəsinə hazırlamaq üçün yazıq ana nə qədər əzab çəkdi. Amma hər halda Molla Püstə, Əsbət Xanım, Xırda Xanım, Seyid Xədicə, Zivər və b. Şagirdləri məclisə çıxara bildi.

Zəif, xəstəhal ana evə az-çox qazanc gətirmək üçün çalışırdı. Onun müxtəlif fabrik-zavodlarda 8 saat ağır iş görməyə gücü çatmırdı. Odur ki, 1937-40-cı illərdə evlərdə müxtəlif ev arvadlarının üzünü alır, bununla da evə nəsə qazanc gətirirdi. Həmin illərdə bizim mənəvi dayağımız İzzət bacı, maddi dayağımız Meşədi Gövhər xala və Badam bibi idi. Allah onlara qəni- qəni rəhmət eləsin.

1938-ci ilin ortalarında eşitdik ki, Seyid Rübabə nənə ilə

İrana getmiş Kərbəl ayi Həcər gəlib. Ana, Gülsümxanım xala və mən Kəlbə Həcərin Buynanski küçəsinin Müxtədir küçəsilə kəsişdiyi yerdə, aptekin üstündə olan evinə getdik. Əvvəlcə arvad üzə çıxmadı, uzun söhbətdən sonra aralığa gəldi, ana onu görcək qucaqlayıb öpdü, ağladı, anasını soruşdu. Kəlbə Həcər özünü bilməməzliyə vurdu, dedi ki, mən heç yana getməmişdim, nə də sənin ananı görməmişəm. Gülsümxanım xala çox təmkinlə danışdı, and verdi, arvad dirəndi ki, məni nə çək-çövürə salırsız? Mən evimdən heç yerə getməmişəm, nə də Seyid Rübabəni görməmişəm. Xülasə, arvad bizə heç nə demədi. Həmin vaxtlarda iranlı pasportu olanları İrana sürgün etməyə başladılar. Şəhərdə elə bir vanəfsa qopdu ki, deyərdin bütün şəhər matəmdədir. - kiminin qızı, kiminin bacısı iranlıda ərdə idi, kimisi vaxtilə İran pasportu almışdı - indi məcburi şəkildə İrana getməliydi. Cəmi 3 gün vaxt verilmişdi. Bizim tanıdığımız adamlardan Seyid Rübabə nənənin bacılığı Meşədi Gülsüm, nənənin uzaq qohumlarından Kəbutər və əslən Tağılıdan, Tağı kişinin qızı Ağanisə ailəsi ilə (Əri Əkbər-Axanım əmdostunun qardaşı idi) gedirdi. Meşədi Gülsüm xalanın Ərdəbilin hansısa bir kəndində qardaşı oğlu var idi, dürüst yerini də bilmirdi. Kəbutərin əri İsgəndər Kəbutərin şəklinin dalına adres yazmışdı, o şəkli də, Kəbutərin oğlu Abduləli üzünü çıxartmaq üçün apardı və müharibəyə gedərkən özü ilə birgə tələf oldu. Ağanisə və Əkbər isə məlum yerə gedirdi. Ana bunlara nə qədər qayğı göstərdi, nə qədər kömək etdi, bunlara və cəmi gedənlərə yalvarıb and verirdi ki, imkan edib anamı görün, deyin ki, qayıdıb gəlsin. Dalanımızdakı 3 həyətdə 10 ailə yaşayırdı. Hər axşam (aprel-sentyabr ayları) Məlik əmi dalanın ağzında səkini süpürüb su çiləyər, hərə bir palaz gətirib döşəyər, kimi çay, kimi tum, ucuz konfet, bəzən halva, dolma və s. Kimi xörəklər gətirər, azacıq söhbətdən sonra Əziz əmi nağıla başlayardı. Ən çox danışdığı "Ceyfəlmülk", "İbrahimin nağılı", "Bağdagül", "Məlik-

məmməd”, “Yetim Əmrah” və b. idi. Çox maraqlı, canlı danışardı. Sonralar (bu nağıllar çap ediləndə) bildik ki, çoxusunu özündən quraşdırırmış. Bəzən də öz həyatından (əslən Cənubi Azərbaycandan idi) elə qəribə, ağlasığmaz əhvalatlar danışırdı ki, adamın ağzı açıla qalırdı: guya xan oğlu imiş, brilyantdan, yaqutdan, almazdan, zümrüddən dişləri var imiş. Hədsiz gözəl olduğu üçün küçədən keçməyə imkan tapmırmış- hamı tamaşaya çıxırmış.

Qəribədir, o mənəvi və maddi sıxıntılıq illərində hər il mayın 2-də Yasamala gəzintiyə çıxardıq - bütün dalan əhli birlikdə. Nəzərə alın ki, Sovet küçəsindən o yana nəqliyyat yox idi. Biz vedrələrlə su, samovar, odun, yemək şeyləri, palaz, döşəkçə və s. aparır, gün batana qədər çöldə olurduq.

Oktyabr və May bayramlarında İzzət bacının nəzarəti altında beşmər- təbənin altına gedir, oradan keçən nümayişə baxırdıq. Axşam İzzət bacı bizi tramvaya mindirib binaların üstündə yanan işıqları göstərirdi.

İnsanlar bir-birinə o qədər mehriban, qayğıkeş idi ki, mən o rəhmətlikləri “əmi”, “xala” adlandırır, tez-tez ruhlarına yasin oxuyur, salavat çevirirəm. Ağlım kəsəndən evimizi yığıncaq yeri görmüşəm, ərindən, oğlundan küsən, hökumətdən qaçaq düşən, xəstə olub Bakıya müalicəyə gələn, bazarlığa gələn mütləq gəlib bizdə qalırdı. Əvvəllər Seyid Rübabə nənə, sonra isə ana bunlara əncam çəkir, həkimə, bazara aparır, barışdırır, yedirirdi. Evimizdə Garısdan Curuğ kişi, Tağılıdan Fərrux, Tavadan Əlməmməd, Qəfərlidən Göyçək, Maşad Oruc və b. aylarla qalıb müalicə olunurdu.

1937-ci ilin payızında Maşad Oruc bizdə vəfat etdi. Yanında adamı yox idi. Yazıq ana məcbur olub onu Çəmbərəkənd qəbirisantılığında dəfn etdiridi.

Bunun kasıb, cavan qadın üçün nə qədər çətin olduğunu təsəvvür etmək də ağırdır.

Həmin illərdə məscidlər bağlandığı üçün evimiz təziyə yeri

olmuşdu - mərsiyə deyilir, hədislər danışılır, quran, yasin oxunur, ehsan verilirdi. Ev də, həyət də "məscid arvadları" ilə dolu olurdu, çox vaxt yatmağa da yerimiz olmurdu.

Bax, biz belə bir şəraitdə yaşamışıq.

Lakin nəinki evdə, həyətdə, hətta dalanımızda belə hamı- İzzət bacı, Gülsümxanım xala, Məlik əmi, Xeyransa xala və b. bizi düzlüyə, təmizliyə, elm oxumağa, yaxşılığa dəvət edir, qoruyurdu. Onsuz da bizim küçəyə çıxmaq, tində durmaq, məhlədə söhbət etmək, "küçə uşaqları" ilə oynamaq hüququmuz yox idi. Məktəb - ev - məktəb - işimiz və yolumuz bu idi.

Nənəmiz kimi anamız da çox əliaçıq adam idi. Kəndlərdən gələn nəzir və payı (yağ, pendir, yumurta, yarma,qatıq və s.) təcili olaraq xırda boşqablara yığar və bizi məcbur edib bizdən kasıblara qapı-qapı paylatdırardı. Anamız "əlsiz-ayaqsıza kömək etməli" prinsipini əsas tutaraq bizi təkcə özümüz və İzzət bacı üçün deyil, qonşular üçün də su gətirməyə (azı 500 m məsafədən), çörək, neft almağa göndərirdi.

Şəxsən mənim o illərdə (hələ lap çox sonralar da) təzə paltar geydiyim yadıma gəlmir. Hansısa köhnə-külədən ana mənimçün "təzə" paltar tikir, papaq düzəldirdi. Yeməyimiz də belə. Təkcə özümüzçün oturub çörək yedi- yimiz hallar olmayıb; kimsə, ya uzaq yerli qonaq, ya da hansısa bir məscid arvadı boğazımıza ortaq çıxıb, qabımıza qoyulan küftə, ət, dolma və s. müxtəlif üsullarla götürülüb, bunlara verilib.

İndi, üstündən 60-65 il keçəndən sonra da mən nənə və anamızın bu qeyri- adi hərəkətlərinə, bu ideal insanlıq duyğularına ad verə bilmirəm, axı bizim özümüzün heç bir gəlir mənbəmiz olmadığı, yalnız nəzir - niyazla dolandığımız o illərdə saysız-hesabsız yiyəli və yiyəsiz bədbəxtlərə, dövlətin dilənçi etdiyi, sərgərdan adamlara, əsil fanatik olan insanlara kömək etməyə, onlara mənəvi və maddi dayaq olmağa ixtiyarımız var idimi? Özümüzü narahat, yuxusuz, yarıac

qoyub başqalarına kömək göstərməkdə haqlı idikmi? Axı bizim evə gələn nəzir və paylar bizim gen-bol dolanaışığımıza kifayət edərdi? Nə üçün, hansı amal, hansı ideya xatirinə nənə və onun müti qulu olan ana bizi həm özlərini, həm də başqalarına xidmət etməyə, əlindəki sonuncu tikəsini özgələrə verməyə vadar edirdilər? Axı nənə və ananı bu işə təhrik edən yox idi! Bəs insanlara bu qədər rəhm, səxavət, əl yetirmək hissi hansı tərbiyənin nəticəsi idi? Elə bu tərbiyənin nəticəsi deyilmi ki, biz indi də insanlara təmənnasız xidmət edir, "çox sağ ol" kəlməsini də eşitmək istəmirik?

Bəli, məhz bu tərbiyənin nəticəsidir ki, biz həyatda alışan imarətlər, qızıl- gümüşlər toplaya bilmədik. Lakin nənə, ata və anamızın adından heç də geri olmayan ad-san, şöhrət qazandıq. Adımız hər yerdə hörmətlə çəkildi.

Övladlarımız da yaxşı oldu: sənət sahibi, ev-eşik sahibi, özünə görə hörməti və dolanacağı.

Ömür keçir, bəlkə də keçib... Bu gün geriyə, 60-65 il əvvələ nəzər salanda görürəm ki, nənə, ata və anamız deyəsən elə düzgün yol tutublarmış. Həyatın mənası insanlara xidmətdə, tərbiyəli övladlar yetişdirməkdə imiş.

# 1937-Cİ İLİN YEDDİ GÜNÜ

**Bazar günü.**

Gecədən xeyli keçmiş küçədə qıy-qışqırıq səsləri eşidib özümü həyətdən çölə atdım. Bizim daş qayadan çapılıb düzəldilmiş ensiz dalanımız adamla dolu idi. Hamı vahiməli bir şəkildə küçəyə tərəf baxır, lakin nədənsə dalandan çıxmağa cəsarət etmirdi. Mən onların arasından güclə keçərək dalanın ağzına tərəf gəldim. Dalanın girəcəyində durmuş Əsgər kişi məni küçəyə çıxmağa qoymadı. Güclə onun böyrünə sıxılıb küçədə toplaşanlara baxmağa başladım.

Bizim dalandan 10-15 metr aralıda hündür, üstü örtülü bir maşın dayanmışdı. Bu maşın adi maşınlardan deyildi. Bəziləri bu maşina **«it maşını»**, bəziləri isə **«qara qarğa»** deyirdilər.

Məhəllədəki evlərin qapı və pəncərələrindən adamların başı görünsə də, küçədə adam gözə dəymirdi.

Birdən dalanımızdan iki qapı o yana olan böyük həyətdən vanəfsa səsi ucaldı. **NKVD** forması geymiş dörd nəfər kişi hansısa bir idarədə işləyən Səkinəni qabaqlarına qatıb maşina doğru aparmağa başladılar.

Səkinənin dalınca onun qayınanası Umleyla xala başı açıq, ayaqyalın yüyürürdü. Onun tumanının balağından birisi 3-4, o birisi 5-6 yaşlı iki qız uşağı tutmuşdu. Umleyla xalanın qucağında tutduğu bələkdəki uşaq isə çığırırdı.

NKVD əsgərləri maşının arxa qapısını açıb Səkinəni ora mindirdilər. Umleyla xala işi belə görəndə özünü irəli atıb qışqırdı:

-Ay balam, siz Allah, qoyun barı uşaqlarını da özü ilə aparsın!

Səkinə bu səsi eşidib geri döndü və özündən asılı olmayaraq yerə düşməyə cəhd göstərdi. Qapı ağzında duran əsgər tüfəngin qundağı ilə Səkinənin sinəsindən zərblə vurdu.

Səkinə özünü saxlaya bilməyib arxası üstə maşının içinə yıxıldı.

Umleyla xala bunu görcək hər şeyi unutdu, özünü irəli atıb:

-Vaxsey, vaxsey! – dedi. – Siz Allah, qoyun balalarını özünə verim. Mən bu qundağ uşağı, bu dilsiz-ağızsız körpələri necə ovundurum?

Zabitlərdən birisi arvadı maşından geri itələdi:

-Von otsyuda!

Umleyla xala qundağı bir qoltuğuna vurub o biri əli ilə zabitin qolundan yapışdı:

-Səni and verirəm Həzrət Abbasın düşən qollarına, qoy gəlin uşaqlarını aparsın. Zabit dartınıb qolunu Umleyla xalanın əlindən çıxartdı, təpiyi ilə onun qarnına vurub çığırdı:

-Otstan, suka!

Umleyla xala yerə yıxıldı. Qundağ bir tərəfə düşdü, çığıra-çığıra qaldı. Arvad öz ağrısını, uşağın ağlamağını unudub bu dəfə sürünə-sürünə o biri zabitin ayağına yapışdı:

-Gətir ayağından öpüm!

Bu zabit tüfəngi arvada tərəf tuşladı. Lakin Umleyla xala bunun nə ilə nəticələnəcəyini bilmədiyindənmi, qorxudan çaş-baş olduğundanmı, nədənsə geri çəkilmədi. Əksinə, dikəlib zabitin əlindən tutmağa çalışdı. Onda maşının qapısını bağlayan NKVD işçiləri arvadı zabitdən aralayıb təpiklə döyməyə başladılar.

Bir neçə təpik dəyəndən sonra Umleyla arvad yerdə sərili qaldı. Qundağ bir tərəfdə çığırır, o biri uşaqlar isə əti kəsilmiş kimi qiyyə çəkirdilər. Bütün məhəllə gözə görünməkdən qorxaraq evlərdə, həyətlərdə, dalanlarda, damların üstündə ağlaşırdı.

Birdən bizim dalanda yaşayan qoca Xədicə arvad özünü küçəyə atıb qışqırmağa başladı:

-Ay Allah! Hardasan? Bu zülmü necə götürürsən? Dağılsın belə zəmanəni! Belə də od olar? Belə də yalo olar?

Bir neçə kişi irəli atılıb arvadı dalana çəkdilər. Maşın getdi.

Səhərə az qalmışdı. Bərk qıy-qışqırıq səsinə ayıldım. Anam çarşabını başına atıb qapıdan çıxanda alt paltarında yüyürüb ona çatdım. Küçə qapımız açıq idi. Qonşularımız açıq qapıdan dalana baxır, astadan nəsə deyirdilər. Üzbəüz qapıdan qıy-qışqırıq eşidilirdi. Sonra qapı açıldı, üç nəfər NKVD işçisi Xədicə xalanı itələyə-itələyə dalana çıxartdılar. Arvad ağlayır, yalvarır, ayağını yerə verib getmək istəmirdi. NKVD işçiləri onu irəliyə çəkəndə Xədicə xala ucadan qiyyə çəkdi, hər əlini dalanın bir tərəfinə söykədi, ət ürpəşdirən bir səslə üç dəfə çığırdı:

-Ya Həzrət Abbas! Ya Həzrət Abbas! Ya Həzrət Abbas!

NKVD əsgərləri tüfəngin qundağı ilə onun qollarına vurmağa, əllərini daş divarlardan qoparmağa başladılar.

Xədicə xalanın əri alt paltarında olduğu üçün utandığındanmı, yoxsa NKVD əsgərlərindən qorxduğundanmı, bir tərəfdə dayanıb gözünün yaşını tökür, döyülən, çığırıb imdada səsləyən arvadına yaxın gedə bilmirdi.

Nəhayət arvadın qolları sustaldı, növbəti zərbələrə dözə bilməyib arxası üstə dalana döşənmiş qəmbər daşların üstünə yıxıldı. Bir an içərisində başı yarıldı, ağ saçları qana boyandı.

NKVD işçiləri huşsuz arvadı sürüdə-sürüdə aparıb dalanın ağzında dayanmış qara maşina atdılar.

Qəribədir. Bütün qonşular ağlasa da, bəziləri üz-gözünü yolsa da, heç kim Xədicə xalanın həyətinə keçmədi, onun haraya və nə üçün aparıldığını soruşmadı.

**Bazar ertəsi.**

Axşamüstü idi. Qonşumuz Kərim kişi işdən qayıdan kimi nə üçünsə qonşuları yanına çağırdı. Az sonra anam hövlnak içəri girib bacıma dedi:

-Tez ol, kitablarını tök həyətə, yandır.

Bacım duruxdu:

-Nə danışırsan, ay ana! – dedi. Kitabları niyə yandırım?

Anam cavab əvəzinə kitab şkafına tərəf yeridi:

-Yekə qızsan! Eşitmirsən ki, bütün yazıçılar, şairlər, alimlər xalq düşməni çıxıblar? Deyirsən bu kitablardan ötrü adımız pis qələminə çıxsın?

Bacım yalvarıcı səslə dedi:

-Ana, bizə məktəbdə deyiblər. Xalq düşməni olan beş-altı nəfərdir. Onların kitabını yandırım, qurtarsın getsin. Daha bütün kitablarımı niyə yandırım?

Anam savadlı qadın idi. Xalq düşməni olanları da, çoxdan vəfat etmiş yazıçıları da yaxşı tanıyırdı. Amma Kərim əmi ona nə demişdisə, yumşalmadı:

-Məni xətadan-bəladan uzaq elə. Götür kitabları tök bayıra.

Bacım yalvarmağın yersiz olduğunu görüb, ağlaya-ağlaya kitabları şkafdan götürüb seçməyə başladı.

Həyətdə isə artıq böyük bir tonqal qalanmışdı. Qonum-qonşu evindəki kitabları gətirib Kərim əminin yanına qoyur, o da kitabın bir əvvəlinə, bir də axırına baxıb tonqala atırdı.

Bacım kitabları dəstələyib onun yanına gətirdi. Hərdən əyilib:

-Kərim əmi, - deyirdi, – bu ki Firdovsinin «Şahnamə»sidir, bunu niyə yandıraq?

-At getsin, görmürsən tərcüməçinin biri xalq düşmənidir?

-Bəs «Koroğlu» dastanı necə?

-Onun da toplayanı və redaktoru xalq düşməni çıxıb.

-Axı bu kitabın müəllifi fransız yazıçısı Balzakdır.

-Amma müqəddimə yazan tutulub.

-Bu kitablar ki Sabirin, Füzulinin, M.F.Axundovundur. Bunları saxlayımmı?

Kərim əmi hirslə kitabları tonqala atıb çığırdı:

-Birinin redaktoru, birinin tərtibçisi, o birinin də müqəddiməsini yazan xalq düşmənidir. Yəni, deyirsən bu kitablara görə Kəbleyi bacını tutub aparsınlar?

Bacım göz yaşlarını silə-silə soruşdu:

-Bu «Aşıqlar», «El şairləri», «Dastanlar» hayıf deyilmi?

-Ay qız, bircə çəkil o yana! Onları tərtib edən, toplayan, müqəddimə yazan adamlar heç bilirsən kimdir?

Bacım daha heç nə soruşmadı, kitablara baxmadan göz yaşını tökə-tökə gətirib tonqala atdı.

Qaranlıq düşmüşdü. Amma məhəlləmizdə elə bil günün günorta çağı idi. Tonqalların işığı bütün həyətləri çıraqban etmişdi.

**Çərşənbə axşamı.**

İkinci dərsə təzəcə başlamışdıq ki, dərs hissə müdiri Ayişə müəllimə sinfə girib müəllimə müraciətlə dedi:

-Bir vacib tədbirimiz var. Dərsi saxla, uşaqları sakitcə aşağıya – idman zalına apar.

Müəllimimiz partaların üstündəki kitab-dəftərləri yığışdırtdı, bizi sıraya düzdü və idman zalına gətirdi. Ayişə müəllimə bizim sinfi qabaq cərgədə oturtdurdu. Arxa cərgələrdə yuxarı sinif şagirdləri əyləşdilər. Çox keçmədi ki, məktəbin direktoru İlyas müəllim bir neçə nəfərlə gəlib irəlidə qoyulmuş qırmızı örtüklü mizin arxasında oturdu. Direktor bir qədər ölkədə gedən sosializm quruculuğundan, düşmənlərə qarşı aparılan mübarizədən danışıb uşaqları sayıqlığa, sinfi düşmənləri cəsarətlə ifşa etməyə çağırdı. Sözünün axırında dedi:

-Uşaqlar, siz dünyanın ən xoşbəxt adamlarısınız. Dünyanın heç bir yerində uşaqlar belə şən həyat görmürlər. Bu

gözəl həyatı, proletariatın qurub yaratdığı bu cəmiyyəti qorumaq üçün gərək siz də əlinizdən gələni əsirgəməyəsiniz. İndi sizin görüşünüzə gəlmiş bir pioner öz hərəkəti ilə sübut etmişdir ki, o, əsl sovet balasıdır.

Bunu deyib direktor ayağa durdu. Üzünü qapıya tərəf tutub əl çalmağa başladı. Ona baxıb yanındakı müəllimlər də, zalda oturmuş uşaqlar da ayağa durub əl çalmağa başladılar.

Qapı açıldı. Boynu qalstuklu, 11-12 yaşlarında bir oğlan uşağı əsgərsayağı addımlarla qırmızı örtüklü mizin yanına keçdi.

Biz xeyli əl çalandan sonra direktor dayanmaq işarəsi verdi. Hamı yerində oturdu. Tanımadığımız bir nəfər ayağa qalxıb dedi:

-Əziz balalar, qarşınızda duran bu pioner oğlan əsl qəhrəmandır. O, bolşeviklər partiyasına və sovet hökumətinə böyük xidmət göstərmiş, uzun illər təxribatçılıqla məşğul olan bir xalq düşmənini ifşa etmişdir. Siz belə qəhrəman pionerlərdən nümunə götürməli, onlar kimi sayıq olmalısınız. İndi sözü qəhrəman pioner Səlim Mikayılova veririk. Qoy o özü düşməni necə ifşa etməsindən danışsın.

Bizi maraq bürüdü. Görəsən bu balaca uşaq xalq düşmənini necə ifşa etmişdir?

Alqışlar kəsilən kimi qəhrəman pioner mizin qabağına çıxıb uca səslə, təmkinlə danışmağa başladı:

-Mən sovet pioneriyəm. Mənim atam - bolşeviklər partiyası, anam - sovetlər ölkəsidir. Onların yolunda canımdan keçməyə hazıram. Mən pioner baş dəstə rəhbərimizin «Həmişə sayıq olun!» sözlərini özüm üçün həyat şüarı eləmişəm. İki ildir pioner sıralarındayam. Həmişə, hər yerdə sinfi düşmənləri axtarıram. Bu iki ildə bir neçə oruc tutan, namaz qılan, «Quran» oxuyan, pirlərə ziyarətə gedən, evində qonaq saxlayan, mağazalardan çoxlu şey-şüy alan adamlar haqqında lazımi yerlərə məlumat vermişəm. Lakin mənim əsl sovet

pioneri kimi igidliyim ondadır ki, öz atamı xalq düşməni kimi ifşa etmişəm.

Bu sözü eşidən kimi direktorumuz ayağa qalxıb əl çalmağa başladı və bizə də işarə etdi.

Qəhrəman pioner isə özündən razı halda sözünə davam edirdi:

-Mən diqqət yetirib gördüm ki, atamın yanına müxtəlif adamlar gəlir, qapını örtüb nə barədəsə söhbət edirlər. Düşündüm ki, yaxşı adamlar gizlində söhbət etmir. Deməli, mənim atam yaxşı adam deyil. Onun yanına gəlib-gedənlərin birisinin keçmiş gimnaziya direktoru, bir başqasının isə xan nəslindən olduğunu biləndə atamın əsl xalq düşməni olduğuna inandım. Bunu NKVD-yə xəbər verdim. Mənim keçmiş atam xalq düşməni kimi ifşa edildi. Sizi də belə vətənpərvər və sayıq olmağa çağırıram.

Direktorun işarəsi ilə başlanan alqışlar uzun müddət kəsilmədi.

Qonaqlardan birisi ayağa qalxıb dedi:

-Uşaqlar, siz hamınız şəhərin qədim məhəlləsində yaşayırsınız. Bu məhəllədə seyid, molla, dərviş, hacı, kərbəlayi, məşədi və sair kimi çoxlu şarlatanlar yaşamışdır. Onların bir qismi indi də başqa cildə girərək cəmiyyətimizdə yaşayır. Onlar heç zaman sovet hökumətinin dostu ola bilməzlər. Sizin şərəfli vəzifəniz indicə gördüyünüz bu qəhrəman pionerə oxşamaq və dediyim sinfi düşmənləri ifşa etməkdən ibarətdir.

**Çərşənbə.**

Məktəbimizlə üzbəüz olan birmərtəbəli bina milis idarəsidir. Deyilənlərə görə orada bir neçə yüz adam tuta bilən zirzəmi də var. Küçədə-bazarda tutulan adamları gətirib ora salırlar, sonra isə qara maşın gələndə, ora mindirib harasa aparırlar. Axır günlər buraya çox adam gətirilir, özü də

əksəriyyəti abırlı geyimdə, ləyaqətli görkəmdə olur. Biz küçədə səs-küy eşidən kimi partaların üstünə çıxıb zirzəmiyə salınanlara tamaşa edirik. Müəllim qışqırıb bizi hədələsə də, qulaq asmırıq.

Bu gün böyük tənəffüs vaxtı oğlanlardan kimsə bağırdı:

-Uşaqlar, tez olun, küçəyə çıxın, milisionerlər Həmşəri palanı tərəfdən bir dəstə adam gətirirlər.

Tələsik özümüzü küçəyə atdıq. Hər iki tərəfdəki səkilər adamla dolu idi. Küçənin ortası ilə bir dəstə adam milis idarəsinə tərəf gəlirdi. Onları bir neçə milis, NKVD işçisi və 4 nəfər komsomolçu dövrəyə almışdı. Tutulanların demək olar ki, hamısı ağsaqqal qoca kişilər idi. Komsomolların işarəsilə dəstəni məktəbin qabağında saxladılar. Tutulanların çoxusu bu məhəllələrin sakini olduğu üçün uşaqlar onları bir-birinə göstərir, təəccüb və qorxu hissilə pıçıldayırdılar:

-Adə, Mir Salah ağanı görürsən?

-Buy, Seyid Məhəmməd ağanı da tutublar!

-Vay, Hacı Rəsul baba da buradadır…

-Adə, Həmzə, qonşumuz Kərbəlayi İman odu ey…

-Ay aman, cəddinə qurban olduğum Mir Əsədullah axund nə günə düşüb…

Komsomollar bu seyid, molla, hacı, kərbəlayi və məşədilərin saqqalından tutub sillələyir, üzlərinə tüpürür, başlarına qapaz vurur, NKVD işçiləri isə rezin şallaqla döyürdülər.

Komsomolçulardan birisi üzünü camaata tutub dedi:

-Vətəndaşlar, siz uzun illər boyu bu yaramaz, alçaq, yalançı, rüşvətxor, satqın, əxlaqsız seyidlərin, mollaların, hacı, kərbəlayi və məşədilərin əlindən öpmüş, onları mömin, pak adam hesab etmisiniz. Halbuki onlar sizin hesabınıza yaşamış, ömür boyu sizi aldatmışlar. Belə adamlara sosialist cəmiyyətində yer ola bilməz…

O biri komsomolçu onun sözünü kəsdi:

-Onlar nəşəxor, qumarbaz və əxlaqsızdır. Bax, bu seyid şəxsən məni nəşə çəkməyə öyrətdi və sonra namusuma toxundu. Mən ona tüpürürəm, siz də tüpürün! Onların hamısı alçaqdır…

Üçüncü komsomolçu Hacı Rəsulun belinə bir təpik vurdu. Kişi yerə yıxılıb başı yarıldı. Güclə ayağa durdu. Komsomolçu dedi:

-Bu alçaq Hacının yanında nökər idim. 14-15 yaşımda ikən mənə «Ləzgi gəldi» oyunu öyrətdi, sonra isə çılpaq şəkildə öz curlarının qabağında oynamağa məcbur elədi. Tüpürün buna! Vurun bunu!

Səkilərdəki adamlar elə bil daşa dönmüşdülər. Dinən-danışan olmadı. Dəstəni döyə-döyə zirzəminin qapısından içəri saldılar. Zəng vuruldu.

**Cümə axşamı.**

Həmşəri palanının yuxarı tərəfində, bazarın böyründəki «Oktyabr» yay kinoteatrında «Onüçlər» bədii filmi göstərilirdi. İki gün idi bilet tapa bilmirdik. Bu gün məhəllə cahıllari birtəhərlə xeyli bilet almışdılar. Xeyli yalvar-yaxardan sonra mənə də bir bilet verdilər.

Film başlanandan yarım saat əvvəl gəlib öz yerimi tutdum. Boş yer nədir, hətta cərgə aralarında da adamlar oturmuşdu.

İşıqlar söndü. Lakin film başlamaq əvəzinə ruporla verilən elan eşidildi:

-Hörmətli tamaşaçılar! Filmə baxmazdan əvvəl hörmətli şairlərimizlə qısa görüş keçiririk. Onlar sizə öz yeni şerlərini oxuyacaqlar.

Kimsə əl çaldı, hamı ona qoşuldu, 5 nəfər kişi və 1 nəfər qadın səhnəyə çıxdı. Kinoteatrın direktoru onları bir-bir tamaşaçılara təqdim edib uzaqlaşdı.

Şairlər sözə başladılar:

**I.** Mollaların hiyləsinin anladıq,
Cinləri, şeytanları qırmancladıq.
Falçıların falçasını qırmışıq,
Cümlə kitab-dəftərini cırmışıq...

**II.** Ayıl qəflət yuxusundan, a yoldaş!
Mollalar dəyyusdur, seyidlər oğraş.
Kərbəlayi lotu, Hacı şeyitbaz,
Məşədi yalançı, alçaq, uşaqbaz...

**III.** Bakıda tazə çıxıb bir Ətağa, Məsmə bacı,
Təri, çirki, nəfəsi dərdə dəva, Məsmə bacı...

**IV.** Əcəb ağ gündədir mənim vətənim
Günlər keçir bayram kimi, el gülür.
Rəngdən-rəngə girir çölüm-çəmənim
Aşığın sazında gülür, tel gülür.
El azaddır, dil azaddır.
Azad bağlarda gül azaddır...

**V.** Kommunizm canımızdır,
Partiya imanımızdır.
Stalindir rəhbərimiz
İrəliyə gedirik biz...

Şairlər bu qisim şerlərdən oxuduqca özləri əl çalır, tamaşaçılar da onlara qoşulurdu. Sonra onlardan birisi zala müraciətlə soruşdu:

-Bizim düşmənimiz kimlərdir?

Zaldan səslər eşidildi:

-Burjuylar, xanlar, bəylər, mülkədarlar, qolçomaqlar...

-Mollalar, seyidlər, dərvişlər...

-Xalq düşməni çıxan müsavatçılar, onların quyruğu olan alim, şair və yazıçılar...

Şairlərdən birisi sağ əlini yuxarı qaldırdı:

-Sosializmin düşmənlərinə, xalqımızın düşmənlərinə ölüm!

İşıqlar söndü, film başlandı.

**Cümə.**

Anam hələ axşamdan hazırlıq görürdü. Səhər Zübeydə xalanın qızı Nəsibəni Nardarandakı Rəhimə xatun pirinə aparacaqdılar. Xeyli qadın və uşaq gedəcəkdi. Uzun-uzadı yalvarandan sonra anam məni də aparmağa razı oldu.

Səhər saat 7-də 20-yə yaxın qadın və uşaq Sabunçu vağzalına gəlib elektrik qatarına mindik. Təxminən, saat 9-da Maştağaya gəlib çatdıq. Orada 2 araba kirayələyib Nardarana getdik. Lakin ziyarətgahın qapısının ağzında iri bir qıfıl, yanında isə əli tüfəngli bir komsomol durmuşdu.

Zübeydə xala nə qədər yalvarıb-yaxardısa ki, qızın ürəyi gedir, nəzir eləmişəm, qoy içəri girək, komsomol qulaq asmadı. Axırda piri də, Zübeydə xalanı da, bizi də elə sözlərlə söyüb-yamanladı ki, anam dözmədi, dəstəni geri qaytardı, arabaçılara dedi:

-Ay qardaşlar, o qədər yolu gəlmişik, boş qayıtmayaq, haqqınızı verəcəyik, bizi kəndin məscidinə aparın, barı qızı minbərə bağlayaq, namaz qılaq.

Arabaçılar səs-səsə verib dedilər:

-Ay bacı, bəxtəvərlikdən danışırsan! Bu həndəvərdəki məscidlərin hamısını klub, kinoteatr, bufet, mağaza eləyiblər... Biz elə bilirdik ki, siz kəndə qonaq gəlmisiz. Yoxsa elə Maştağada deyərdik ki, zəhmət çəkməyin.

Kor-peşiman geri qayıtdıq. Sabunçu vağzalında düşəndə arvad-uşaq hamı bir ağızdan dedilər ki, bəs dəniz qırağında bir

təzə, hündür vışka qurublar, adamlar ora çıxıb paraşütlə yerə atılırlar, barı gedək ona baxaq.

Dəniz kənarına gəldik, azacıq getmişdik ki, gördük körpünün qabağında minlərlə adam toplaşıb. Ağlaşma, vay-şivən, qıy-qışqırıq səsləri bir-birinə qarışmışdı. Milislər adamları qovalayırdı. Anam özünü irəli atdı. Mən onun əlindən yapışdım. İrəlidə dəhşətli bir vəziyyət var idi: kişilər bir tərəfdə, qadın və uşaqlar o biri tərəfdə ağlaşır, bir-birinə nəsə deyirdi; ağız deyəni qulaq eşitmirdi.

Məlum oldu ki, bunlar Qarabağ, Lənkəran və Muğan kəndlərindən zorla gətirilən adamlardır. Onları gecə ikən tələm-tələsik evlərindən çıxarıb, «Stalin yoldaşın əmrilə sizə Qazaxstanda yaxşı yer verəcəyik» deyə, yük qatarına doldurub buraya gətiriblər. İndi də kişiləri ayrı, arvad-uşağı bir ayrı gəmiyə mindirdikləri üçün belə vanəfsadır. Bunların heç bir günahı yoxdur, bütöv kəndlər köçürülür: bolşeviki, komsomolu, pioneri, staxanovçusu, zərbəçisi, ordenlisi, qocası və cavanı, kişisi və qadını da içində.

**Şənbə.**

Məhəllədə hüzür düşmüşdü. Məşədi Qənbər kişinin oğlu 1 ay bundan əvvəl xalq düşməni kimi həbs edilmiş, dünən isə gəlinini sürgünə, 4 balaca nəvəsini isə yetimxanaya aparmışdılar. Kişi çox yalvarmışdı ki, uşaqları ya qoyun gəlin aparsın, ya da verin mən saxlayım. NKVD işçiləri razı olmamışdı. Onlar gedən kimi kişi mətbəxə keçib balta ilə özünü öldürmüşdü. Arvadı işi belə görəndə dözməmiş, paltar asılan ipi açıb pəncərəyə bağlamış və özünü asmışdı.

Meyidlər yuyulub həyətin ortasında yan-yana qoyulmuşdu. Meyid namazı qılmağa molla tapılmırdı, bilənlər də qorxusundan səsini çıxartmırdı. Çarəsiz qalıb meyidləri götürüb namazsız, yasinsiz, duasız basdırmağa apardılar.

Həyətdə 40-50 arvad dövrə vurub oturdu. Ağlayan Nənəbacı irəli keçdi:

-Müsibətdi, müsibət!

Arvadlar səs-səsə veridilər:

-Olmaz belə müsibət!

-Getdi evin tək oğlu!

-Olmaz belə müsibət!

-Getdi cavan gəlini!

-Olmaz belə müsibət!

-Getdi körpə uşağı!

-Olmaz belə müsibət!

-Getdi Məşədi Qənbər!

-Olmaz belə müsibət!

-Getdi Dürnisə xanım!

-Olmaz belə müsibət!

Arvadlardan biri zil səslə şaxseyə başladı:

-Kərbəlada daş ağlar,
Torpaq ağlar, daş ağlar.
Belə zülüm görənlər
Tökər qanlı yaş ağlar.

Ağlayan Nənəbacı təzədən:

-Müsibətdi, müsibət! - deyəndə sanki təkcə həyətdəki arvadlar deyil, bütün dünya səs-səsə verib hönkürdü:

-Olmaz belə müsibət!

## GÖZLƏNİLMƏYƏN MƏKTUBLAR

Yazıçı Ayaz masanın arxasında oturub işləyirdi. Qəfil qapı zəngi onu ayırdı. Qalxıb qapını açdı. Gələn tanımadığı bir cavandı. Əlindəki qovluğu Ayaza uzadıb dedi:

– Bunun içindəki məktublar sizə çatacaq.

– Kimdəndir? Keçin içəri.

Cavan içəri keçmək təklifini qəbul etməyib dedi:

– Atam verdi. Təzəcə rəhmətə gedib. Son nəfəsində xahiş etdi ki, bunu sizə çatdırım.

– Allah rəhmət eləsin. Kimdədir məktublar?

–Dedi ki, sızın ustadınız Hüseyn müəllimdədir.

Söz Ayazı elə tutdu ki, gəncin tələm-tələsik sağollaşıb getməsinə belə mane ola bilmədi. Hüseyn müəllim... Ayaz masasının arxasına qayıtdı, Qovluğu açdı. Altı məktub – zərf idi. Zərfləri açıb vərəqlədikcə gördü ki, buradakı hadisələrin heç biri uydurulmamışdır. Müəllif Stalinin şəxsiyyətinə pərəstiş dövründə edilmiş bu haqsızlıqların böyük bir qismini siyasi məhbuslardan eşitmişdir.

Burada Hüseyn Mükayılzadə adı altında təsvir olunmuş məhbus yazısı Hüseyn Caviddir. Müəllif onu şəxsən özü görməsə də, Cavidlə bir düşərgədə yaşayan onlarla adamı danışdırmış, böyük yazıçının həbsdə keçən günlərini qismən də olsa, öyrənilmişdir.

Bununla belə müəllif burada təkcə Cavidin deyil, ümumiyyətlə şəxsiyyətə pərəstiş dövründə haqsız olaraq siyasi məhbus kimi həbs edilən adamların çəkdiyi əzab-əziyyəti təsvir etməyə çalışmışdır.

Ayaz başa düşdü ki, məktublar təkcə ona deyil, bəlkə də Hüseyin kimi sənətkarı yetirən xalqa müraciətlə yazılmışdır. Deməli, məktubları təkcə onun oxuması kifayət deyil, onları bütün xalq oxumalıdır.

Bir-iki gündən sonra Ayaz məktubları oxuyub qurtardı. Onları sahmanasalıb, olduğu kimi nəşr etdirməyi qərara aldı.

Həmin məktublar bunlardır:

## BİRİNCİ MƏKTUB

Mənim sevimli dostum!

Məktublarımın sənə çatmasına ümidim olmasa da, yazıram. Bəlkə də ondan heç olmasa biri sənə yetişər və sən mənim nə kimi bir fəlakətə düçar olduğumdan xəbərdar olarsan.

Məlumun olsun ki, məni gecə vaxtı öz otağımda yazı yazdığım zaman həbs edib MVD-ya gətirdilər. Mən nə qədər xahiş edib niyə müqəssir hesab edilməyimi öyrənmək istədimsə də, mümkün olmadı.

Məni qaranlıq zirzəmiyə saldılar. Burada 50-60 adam var idi. Qaranlıqda üzdən tanımaq mümkün olmasa da, söhbət əsnasında səslərindən bir çoxunu tanıya bildim. Bunlardan çoxu Azərbaycanın görkəmli partiya, dövlət, elmi və mədəniyyət xadimləri idi. Hamı böyük bir təəccüb içərisində idi, çünki nə kimi bir günahımız oduğunu bilmirdik. Bizə elə gəlirdi ki, bizi kimsə səhvən həbs edib və ən yaxın saatlarda gəlib buradan buraxacaq, dönə-dönə üzr istəyəcək.

Lakin təəssüf ki, belə olmadı. 3 gündən sonra bizi bir-bir çağırıb komendant otağına apardılar.

...Bakıda dəniz kənarındakı 5 mərtəbəli bu binanı təxminən hamı tanıyır, lakin onun içərisində nələr baş verdiyini çox az adam bilir. Bütöv bir məhəlləni tutan bu bina Daxili İşlər Nazirliyinin binasıdır.

Bu binanın geniş həyətində uzununa tikilmiş, alçaq qatları olan beşmərtəbəli başqa bir bina da vardır. Əhali bu binanın varlığından xəbərsizdir.

Bura Daxili İşlər Nazirliyinin daxili istintaq həbsxanasıdır (“Vnutrennaya türmə”). 1930-cu illərdə M.Bağırov bu

binanı xüsusi məqsədlər üçün tikdirmiş və sonralar məlum olduğu kimi öz məqsədinə nail ola bilmişdir.

Son illər ərzində bu iç binadan Azərbaycanın minlərlə ən mətin, ən sədaqətli oğlu və qızı gəlib keçmişdir. Onların əksəriyyəti öz ömürlərini buradaca – binanın alt qatındakı zirzəmidə başa vurmuş, qalanları Uzaq Şimalda məhv olmuş, çox az qismi isə çox əziyyətlər içərisində həbs düşərgələrində yaşayır.

İç binanın quruluşu ən ciddi və dəhşətli istintaq üçün əlverişli şəkildədir. Bina qəsdən belə tikilmişdir. Buradakı divarların arasından keçən yollar, müxtəlif əzabvermə otaqları, xaricə səs çıxmağa qoymayan xüsusi quruluşlu kameralar burada edilən cinayətlərin üstünü ört-basdır etmək çox əlverişli idi.

Bu binanın 2-ci mərtəbəsində qadınlar, qalan hissəsində isə kişilər saxlanılırdı. Binanın 1-ci mərtəbəsində mühakimə olunduqdan sonra saxlanılmaq üçün 2-4 adamlıq ümumi kameralar, qalan qatlarında isə yalnız tək adamlıq kameralar yerləşirdi. Kameraların qapısı bir-birinə çəp istiqamətdə idi. Dar bir koridor onları bir-birindən ayırırdı. Hər bir mərtəbədə 40 kamera hesabilə, binada cəmi iki yüz kamera var idi. (Zirzəmidəki çoxlu kameralar buna daxil deyil.)

Məni komendant otağına gətirən əsgərlər, nəzarətçilərə təhvil verib getdilər. Nəzarətçilər ac quzğunlar kimi üstümə cumdular; onlar ciblərimdə olanları stolun üstünə tökür, paltarlarımı əynimdən çıxardılar. Nəhayət, mən alt paltarında qaldım.

Nəzarətçi kobud səslə:

– Soyun,-deyə əmr etdi.

Mən bir şey başa düşə bilmədiyim üçün soruşdum:

– Nəyi?

– Necə yəni, “nəyi”? Əlbəttə ki, paltarını.

– Axı mən lüt qalaram.

– Eybi yoxdur, soyun, vəssalam.

Əlacsız qalıb oğlum yerində olan bu adamların qarşısında tamam soyundum. Onlardan birisi əlindəki iti bıçaqla paltarımdakı bütün düymələri kəsib stolun yeşiyinə atdı, şarf və qayışımı götürüb cibimdən çıxan şeylərin yanına qoydu və:

– Geyin, – dedi.

– Mən bunları düyməsiz necə geyim?

– Özün bilərsən, burada qayda belədir.

Paltarlarımı geyib, güc-bəla ilə onları bənd etdim. Şalvarımı əlimlə tutmasaydım, sürüşüb düşürdü.

Azacıq sonra başqa üç nəzarətçi də gəldi. Otaqdakılar məni bu nəzarətçilərə təhvil verib, qol çəkdirdilər. Nəzarətçilər məni qabağına qatıb pilləkənə tərəf apardılar və biz 4-cü mərtəbəyə qalxdıq.

Məni 145 №-li kameraya saldılar və qapını üç yerdən bağladılar.

Kameranın uzunluğu iki metr, eni isə 1 m 25 sm idi. Hər tərəfi sementlə suvaqlanmış bu kameranın yalnız bir qapısı və tavana yaxın yerdə kiçik bir nəfəsliyi (buna pəncərə demək olmaz) var idi.

Qapı nə isə çox ağır bir şeydən qayrılmış, üzünə dəmir təbəqə çəkilmişdi, qıfılın bir adəti yerində, ikisi isə çalın-çarpaz düzəldilmiş qalın dəmirlərlə vurulurdu. Kameranın əşyası bir dəmir çarpayı, kiçik bir "tumboçka" və qapının dalına qoyulmuş "paraşadan" ibarət idi.

Çarpayı kökündən olmasa daha yaxşı idi, çünki onu məhz dustaqları incitmək üçün düzəltmişdilər. Çox iri parça bərk metaldan qayrılmış bu çarpayı yerə bənd edilmişdi. Onun üstü setka əvəzinə qaynaq yolu ilə bir-birinə bənd edilmiş yoğun dəmirlərdən qayrılmışdı. İçərisi çox köhnə dəniz yosunu ilə doldurulmuş "döşək" adlandırılan şey, uzanan kimi bu dəmirlərin arasından süzülüb yerə tökülür və dəmirlər yatmağa imkan vermirdi. Yerdə yatmağa isə icazə yox idi. "Tumboçka" deyilən şey, əslində saysız-hesabsız taxtabitiləri kamerada

saxlamaqdan ötəri idi. Çünki əgər bu deyilsə, kamerada onun heç bir vəzifəsi yox idi. Dustaq ondan əsla istifadə etmirdi, etməyə də imkan yox idi. Taxtabitilər adamı quduz it kimi dalayırdılar.

"Paraşa" qapının dalında, çarpayının ayaq tərəfində qoyulmuş köhnə, dəmir vedrədən ibarətdir. Onun ağzına bir parça faner qoyulmalıdır. Əksər hallarda isə bu olmur. Dustaqları ancaq səhərlər ayaqyoluna apardıqları üçün onlar bütün günü və gecəni bu "paraşa" dan ayaqyolu kimi istifadə etməli olurlar. Səhərlər ayaqyoluna getdikdə paraşanı da aparır, orada boşaldır və yenə də özləri geri qaytarırlar. Paraşalar uzun illər bu vəzifəni ifa etdiklərindən çox pis, dəhşətli bir üfunət iyi verirlər. Deyə bilərəm ki, kamerada insanı ən çox narahat edən elə bu "paraşa" olur.

Tək kamerada saxlanan dustağın özünəməxsus gündəlik rejimi var. Burada qapı yalnız səhər saat altıda açılır. Bu zaman dustaq ayaqyoluna çıxarılır. Bundan sonra dustaq və nəzarətçinin əlaqələri qapıdakı kiçik pəncərəcik vasitəsilə olur.

Nəzarətçilər düstağa müraciətlə bir söz demirlər. Burada bütün gün ərzində cəmisi 12 söz işlənilir: "padyom (qalx)", "ubornaya (ayaqyoluna)", "şəkər, çay, selyotka, çörək, nahar yeməyi, praqulka (gəzinti), axşam yeməyi, çay, nömrənin soruşulması, yat".

Bütün gün ərzində bu sözlərdən başqa heç bir söz eşitmək mümkün deyildi. Dustağın bütün xahiş və suallarına qarşı nəzarətçilər lal və kar imişlər kimi susurlar. Tək kameranın uzunluğu cəmisi 1m 25sm olduğu üçün burada gəzmək çox çətin idi. Çarpayı ilə qarşı divarın arasında cəmisi 40-45 sm enində dar bir yer qalırdı ki, dustaq bütün günü burada, o baş-bu başa getməli olurdu. Mən bu kameralarda keçirdiyim bir neçə aylıq müddət ərzində min kilometrlə yol getmiş, bu səzsiz-səmirsiz guşədə xəyal aləminə qapılmışam. Bəzən bu xəyallar içində özümü memar hesab edir, abad

şəhərlər, gözəl-gözəl binalar, misilsiz saraylar yaradırdım. Bəzən böyük bir qoşunun sərkərdəsi olur, Dünya üzündəki bütün zülmləri məhv edir, dünya xalqlarını azadlığa çıxarırdım. Bəzən cəsur bir təyyarəçi olub göylərə qalxır, kainatın hələ öyrənilməmiş planetlərinə uçur, insanların hələ öyrənmədiyi, fəqət öyrənmək istədiyi şeyləri öyrənirdim. Bu xəyallar içərisində mən gah gəmi kapitanı olub, dalğalarla mübarizə aparır, gah həvəskar bir axtarışçı kimi insanların tarixi keçmişini kəşf edirdim.

Burada saxlandığımın 26-cı günü yatmaq əmri veriləndən bir qədər sonra məni kameradan çıxarıb aşağı endirdilər və 406-cı otaqda müstəntiq Melkumovun yanına gətirdilər.

Melkumov məni özü ilə üzbəüz küncdə qoyulmuş boş bir stulda oturtdu. İlk əvvəl demək olar ki, əhəmiyyətsiz şeylərə, mənim şəxsi həyatım, kamerada vəziyyətimin necə keçməsinə dair suallar verdikdən sonra birdən soruşurdu:

– Danışın!

Mən gözləyirdim ki, siz bu vaxtda qədər öz cinayətlərinizi ətraflı fikirləşər və mənimlə görüşmək arzu edərsiniz. Çox təəssüf ki, siz bunu etmədiniz və mən məcbur oldum ki, sizi yanıma çağırtdırım. İndi mənə deyin etmiş olduğunuz cinayətləri mənə danışırsınızmı?

Mən duruxdum:

– Vətəndaş müstəntiq, mən sizə hansı cinayətlərimdən danışmalıyam? Axı mən heç bir cinayət etməmişəm.

– Bəs sizi nə üçün həbs edib buraya gətirdiklərini bilmirsinizmi?

– Xeyr, bilmirəm, mənə elə gəlir ki, bu təsadüfi bir səhvdir.

Melkumov əlindəki qələminin ucunu stola bir neçə dəfə vurduqdan sonra:

– MVD heç zaman səhv etmir, vətəndaş Mikayılzadə, – dedi. Siz bura səhvən deyil, əsaslı surətdə, cinayətləriniz isbat

olunduqdan sonra gətirilmişsiniz. Mənə sizin bütün cinayətləriniz bəllidir. Mən yalnız onu istəyirəm ki, siz bu cinayətləriniz haqqında özünüz danışasınız.

Məni dərin bir fikir götürdü. Nə zaman və harada, hansı cinayətləri edə biləcəyim haqqında düşünməyə başladım. Müstəntiq də mənim düşüncəyə getdiyimi görüb mütaliəylə məşğul oldu.

Aradan 10-15 dəqiqə keçdikdən sonra o, başını qaldırıb:

– Fikirləşdinizmi, - deyə soruşdu. Zənnimcə, insan etmiş olduğu cinayətləri ömrü boyu yadından çıxarmır.

– Vətəndaş müstəntiq, - dedim, axı mən nə fikirləşim, mən ki, heç bir cinayət etməmişəm.

Bir qədərdən sonra müstəntiq komendantlığa zəng vurdu və dörd silahlı əsgər məni qabaqlarına qatıb kamerama qaytardılar.

Yuxusuzluqdan başım gicəllənirdi. Kameraya girən kimi tələsik soyunub (soyunmamış uzanmağa icazə verilmirdi) çarpayıya uzandım və çirkli, iyrənc bir qoxu verən adyalı üstümə çəkdim.

Təzəcə yuxuya getmişdim ki, qapı yenidən açıldı və məni aşağı endirib bu dəfə başqa bir otağa – müstəntiq Kərimovun yanına gətirdilər. Bu da məndən bir neçə əhəmiyyətsiz söz soruşub, etmiş olduğum cinayətləri danışmağı təklif etdi.

Təxminən bir saatdan sonra məni geri qaytardıqda artıq sabah açılırdı. Mən bu saat ancaq bir şey – yatmaq istəyirdim. Lakin dustaqxananın qanuna əsasən gündüz nəinki yatmaq, hətta uzanmaq, oturmaq belə qadağan idi. Mən bütün günü kamerada var-gəl etməli oldum. Danışmaq, oxumaq, ağlamaq, gülmək – bunlar hamısı qəti olaraq qadağan idi. Başqa sözlə desək, qəbirlə bu kameranın fərqi yalnız onda idi ki, qəbirdə ölü, burada isə diri insanlar olur.

Bu vəziyyət günlərlə davam edirdi.

Gecələr gah bu, gah o müstəntiqin otağına aparır, gündüz isə yatmağa imkan vermirdilər. Yuxusuzluq məni üzüb əldən salırdı. Tərs kimi yemək də olduqca az idi. Bu yeməklə hətta acından ölmək belə mümkün idi. Səhər 1, bəzən 2 selyotka başı və 150 qram qara çörək (hərçənd bu palçığa oxşar cismə çörək demək mümkün deyil), günorta vaxtı 100 qram çörək və sup (supun içində 1 və ya 2 qabıqlı çürük kartof və bir neçə çuğundur qabığından başqa şey olmurdu), axşam 50 qram çörək və sıyıq (bu sıyıq qabıqlı halda bişirilmiş vələmir, arpa və ya darıdan olurdu).

Bundan əlavə səhərlər bir qab isti su və 1 çay qaşığı şəkər verilirdi. Gündəlik menyu bundan ibarət idi ki və heç bir vəchlə dəyişdirilmirdi.

Qəribədir ki, evimizdən də mənə yemək gətirən yox idi. Mən bir dəfə bu haqda müstəntiqə müraciət etdikdə o, gülümsəyərək:

– Nə bilim, dedi, - gətirsəydilər, sizə verilərdi. Özümüz bazardan şey alıb sizə verəsi deyilik ki?

Sonra da əlavə etdi:

– Bir də ki, yəqin ailəniz sizin haraya düşdüyünüzü bilib, sizdən imtina edib. Əgər elə etmiş olsalar, düzgün hərəkət etmiş olarlar.

Mən yalnız sonralar ailəmlə məktublaşarkən öyrəndim ki, onlar hər ay 2 dəfə müntəzəm olaraq mənim üçün müxtəlif yemək və geyim şeyləri gətirirlərmiş. (2 dəfədən çox qəbul etmirlərmiş.)

Məlum olur ki, qəsdən bu şeyləri mənə vermir, ac saxlamaqla inancımı qırmaq istəyirlərmiş.

Mən həqiqətən də nədə müqəssir olduğumu dərk edə bilmirdim. Tez-tez müstəntiqlərin və prokururların təkrar etdiyi "fikirləşin", "gizlətməyin", "siz ancaq səmimi etirafınızla cəzanızı yüngülləşdirə bilərsiniz" və s. Buna oxşar təkliflər

məni doğurdan da düşünməyə, fikirləşməyə, həyatım boyu etdiyim “cinayətləri” xatırlamağa məcbur edirdi.

Artıq bir neçə gün idi ki, mən öz-özümü zehnən yorur, incidirdim, fəqət öz əməllərimdə bir cinayət nişanəsi tapa bilərdim.

Qəribə burasıdır ki, mənim cinayətimin nədən ibarət olduğunu müstəntiklər və prokurorlar da demirdilər.

Sən demə onlar da mənim kimi fikirləşir və mənim üçün cinayət axtarırlarmış. Mən bunu xeyli sonra öyrəndim.

Aprelin 1-də gecə kameranın gözcüyü aralandı Xəfif bir pıçıltı sanki eşidiləcəyindən qorxaraq soruşdu:

–150?

Bu mənim nömrəm idi. Artıq mən burada canlı bir vücud deyil, bəlkə 150 nömrəli əşya idim.

– Bəli! - dedim.

– Geyinin!

Mən cəld geyinib ayağa durdum. Qapı açıldı, yekəpər bir nəzarətçi yenə də yavaşdan:

–150? - deyə soruşdu.

– Bəli!

– S...s...s...

Bu nida “səssiz” deməkdir. Mən artıq bunu bilir və əməl edirdim.

Biz piləkənin başına çatdıqda orada 6 nəfər qarovulçunun dayandığını gördük. Qarovulçu da eyni yavaş səslə soruşdu:

– 150?

– Bəli! – deyə cavab verdim.

Qarovulçular məni dövrəyə alıb “s...s...s...”deyir, pilləkənin məhəccərini taqqıldadaraq qabaqda adam olub-olmadığını müəyyən edərək irəliləyirdilər.

Məni getdiyimiz yolu bilməyim deyə, sürətlə yürüdür, divarların arxasındakı dar yollarla gah aşağı, gah yuxarı aparır, getdiyimiz yolu bir neçə dəfə dolandırırdılar.

Nəhayət, bizi başqa bir qarovul dəstəsi qarşıladı. Onlar da ilk əvvəl məndən nömrəmi soruşdular və müsbət cavab aldıqdan sonra dövrəyə alıb apardılar.

Artıq biz nazirliyin binasında idik. Bu dəstə də məni 1-2 dəfə aşağı-yuxarı aparandan, koridorları dolandırandan sonra, nəhayət, müstəntiqin otağına gətirdi. Məni içəri salıb özləri qapıya çıxdılar. Otaqda mənim işimi aparan müstəntiq -15-ci şöbənin rəisi Məmmədov, prokuror Əliyev və 2 nəfər tanımadığım kişi var idi.

Məni küncdə qoyulmuş stulda oturtdular. Ətrafa baxmaq, qurdalanmaq, əl tərpətmək, icazəsiz danışmaq, prokuror və müstəntiqin dik gözünün içinə baxmaq və s. olmaz. Mən bu "qanunları" bilirdim, odur ki, səssizcə yerimdə oturdum.

Məni 3-4 gündən bəri görməyən bu adamlar, yəqin ki, bu müddətdə hədsiz dərəcədə arıqlayıb gerilədiyim üçün təəccüb-ləndilər.

İlk əvvəl müstəntiq:

– Sizə nə olmuşdur? Niyə bikefsiniz? - deyə soruşurdu.

Mən dinmədim.

– Sizinlə danışıram!

Mən nə cavab verəcəyimi bilmirdim.

Müstəntiq səsini ucaltdı:

– Siz eşitmirsinizmi?

Mən cavab axtarırdım ki, prokuror yenidən ayağa qalxdı və sərt bir sillə üzümü yandırdı. Ağrı məni qovursa da, din-mədim.

Prokuror:

-Siz bir söz danışacaqsınızmı? Etdiyiniz cinayətləri aça-caqsınızmı? – dedikdə, mən özümü ələ alaraq:

– Mən hansı cinayətləri etdiyimi bilmirəm, – dedim.

15-ci şöbənin rəisi quş kimi yerindən sıçradı. Mən hiss etdim ki, cavabım onu dəhşətə gətirmişdir. O, mənə 2-3 sillə vurub:

– Heyvan oğlu heyvan, – dedi, sən bizi nə vaxta qədər incidəcəksən?

Ağzımdan və burnumdan qan axmağa başladı. Lakin cibimdəki dəsmalı çıxarmağa ixtiyarım olmadığından qan üstümə tökülürdü.

Prokuror ağır yumruğu ilə sinəmə, kürəyimə, qarnıma və başıma bir neçə dəfə vurandan sonra böyrümdən bir təpik ilişdirdi. Mən döşəmənin üstünə yıxıldım. Lakin qalxmağa ixtiyarım olmadığını bildiyim üçün ayağa durmadım.

Şöbə rəisi əl-ayağa düşdü:

–Ayağa dur, əclaf, qan döşəməni buladı.

"Qan döşəməni buladı" - bu sözün mənə nə qədər acı təsir etdiyini deyə bilmirəm. Təki məni hər gün döyə idilər, amma bu sözü eşitməyə idim, demək, onları ağız-burnumdan qanın axması deyil, döşəmənin qana bulanması narahat edirdi.

Mən qalxıb yerimdə oturdum.

Müstəntiq mənə yaxınlaşdı:

–Bura baxın, özünüzü niyə incidirsiniz? Axı siz danışmalısınız.

– Mən daha heç bir şey deməyəcəm.

Müstəntiq təəccüblə:

– Necə? Necə? - deyə bağırdı.

– Mən daha heç bir şey deməyəcəm, – deyə qəti bir səslə təkrar etdim.

15-ci şöbənin rəisi üzünü prokurora tutub:

– Siz necə bilirsiniz, – dedi, – təcrübədən keçirəkmi?

Prokuror:

– Çox zəifdir, – deyə cavab verdi, – bilmirəm dözəcəkmi?

– Hər halda bir-bir sınaqdan keçirmək lazımdır. Mən əminəm ki, elə ilk təcrübədə bizimlə razılaşacaqdır. Yola gəlməsə, o biri təcrübələrə göndərərik. Bilirsinizmi, bunların it

kimi 40 canı olur, hələ-hələ ölmürlər. Ölsə də biz, böyük bir şey itirmirik.

– Razıyam.

“Bu söhbəti, görünür ki, məhz məni qorxutmaq üçün edirlər”, - deyə düşündüm. Burada hansı təcrübələr ola bilər ki? Mən bunları fikirləşirkən müstəntiq telefonun dəstəyini götürüb: - Kommutator, – dedi, – 316-cı otağa, 48-dən bir icra qrupu göndərin.

Şöbə rəisi və prokuror otaqdan çıxdılar. Müstəntiq otaqda gərdiş etdiyi halda:

– İndi görərsiniz, – dedi, – biz sizin qoca, mədəni, savadlı və zəif bir adam olduğunuzu nəzərə alır, sizinlə yumşaq rəftar edirik. Siz isə bizim bu münasibətimizə qarşı özünüzü ləyaqətlə aparmadınız.

– Mən nə etməli idim ki?

– Hər şeyi açıb deməkk lazımdır. Biz onsuz da hamısını bilirik.

– Əgər bilirsinizsə, daha məndən niyə soruşursunuz?

– Biz ümid edirik ki, siz vətən qarşısında etmiş olduğunuz cinayətləri özünüz boynunuza alacaq, günahınızı etiraf edəcək, bununla da öz cəzanızı yüngülləşdirəcəksiniz.

– Mən heç bir cinayət etməmişəm. Əgər siz bilirsinizsə, mənə deyin, – dedim.

Bu zaman qapı döyüldü və dörd nəfər adi sivil paltarlı, möhkəm bədənli, orta yaşlı kişi içəri girdi.

Müstəntiq məni onlara göstərib:

–Aparın, – dedi, – 6 №-li təcrübədən çıxarın.

Mən ayağa durub onların arasında qapıdan çıxdım.

Biz sürətlə irəliləyib dolanbac yollarla, nazirliyin qapısını tərk edib həbsxanaya daxil olduq. Mən bunu aralıq qapıda durmuş qarovul dəstəsini görəndə başa düşdüm.

Məni kiçik bir otağa gətirdilər. Burada divardan asılmış rezin meşoklardan birini götürdülər və məni qəfildən qamar-

layıb həmin meşokun içinə soxdular. Tələsik meşokun ağzını bağladılar və harasa 5-10 metr sürütdülər. Yaxşı ki, meşokda nəfəs almaq üçün bir neçə xırda deşik var imiş, yoxsa havasızlıqdan orada boğulmaq olardı.

Birdən mənə kimsə bir təpik vurdu və mən, deyəsən 6-7 ayağaltılı pilləkəndən aşağı diyirləndim. Orada məni nə isə o qədər də sərt olmayan bir şeylə (sonradan öyrəndim ki, bu şey içi boş olan rezin qırmanc imiş) insafsızcasına döyməyə başladılar. Kimsə məni tez-tez pilləkənin üstünə çəkir, oradan ağır ayaqlarla təpikləyərək yerə salır, yerdəkilər də qırmacla vururdular.

Tezliklə, görünür ki, bu cür "oyun" onları bezikdirdi və onlar məni təpiklə bir-birinə vurmağa başladılar. Mən futbol topu kimi aralıqda qalmışdım. Hər tərəfdən üstümə zərbələr yağırdı. Çığırmamaq üçün dodaqlarımı çeynəyirdim. Çox keçmədi ki, huşumu itirdim və sonra nələr olduğunu bilmirəm.

Ayıldıqda özümü sement döşəmənin üstündə uzanmış gördüm. Başımın üstündə həmin 4 nəfər "oyunçu" və ağ xalatlı ucaboy bir kişi – həkim durmuşdu.

Həkimin ilk sualı bu oldu:

– İndi boynunuza alacaqsınız, yoxsa davam etdirsinlər?

Qəribədir, mən elə bilirdim ki, bütün həkimlər yenicə ayılmış xəstəyə nəsə başqa, daha mehriban sözlər deməlidirlər. Sən demə, həkimliyin bir sahəsi də var imiş.

Dillənməyə taqətim yox idi. Olsa da, özümü döydürmə-mək üçün dinmədim.

Həkim nəbzimi əlindən buraxıb:

– Aparıb yerinə təhvil verin, – dedi.

Azacıq sonra mən öz kameramda oturmuşdum. Təəc-cüblü burasıdır ki, bədənimdə qaralmış yer yox idi, amma hər yerim dözülməz dərəcədə sızıldayırdı.

Ertəsi günü məni yenə də müstəntiqimin yanına apar-dılar. O, məni görən kimi:

– Hə, nə deyirsiniz, – dedi, – hər şeyi olduğu kimi bizə açıb danışırsınızmı?

Mən başımla “yox” işarəsi verdim, çünki danışılası bir sözüm yox idi.

– Deməк, canınıza yazığınız gəlmir? Axı siz mədəni bir insan, yazıçısınız. Sizə yaşamaq, yaratmaq, vətən naminə çalışmaq lazımdır. Bir düşünün, siz bu sarsaq inadkarlığınızla özünüzü necə də pis günə salırsınız. Bizə onsuz da hamısı bəllidir. Siz dövlət əleyhinə təbliğat aparmış və əksinqilabi təşkilatda işləmişsiniz. Bu olduqca böyük cinayətdir. Lakin bunu özünüz bizə boyun alsanız, bəzi aydın olmayan məsələləri şərh etsəniz, təşkilatda daha kimlərin olduğunu desəniz sizi inandırıram ki, tam azad edilməsəniz də, bir neçə aylıq cəza alarsınız.

Mən ağır-ağır dedim:

– Mən nə dövlət əleyhinə təbliğat aparmış, nə də əksinqilabçı təşkilatda çalışmışam. Odur ki, sizə heç nə deyə bilməyəcəm.

Müstəntiq hirsindən qıpqırmızı qızardı:

– Demək belə! Demək, siz hələ də öz düşmən fikirlərinizdən əl çəkməmişsiniz.

– Mən düşmən deyiləm, - deyə mən az qala bağırdım.

– Sus, alçaq! – deyən müstəntiq əlində oynatdığı kiçik tapançanın dəstəsini başıma vurdu. Qan fışıltı ilə yuxarı atıldı və sonra üstümə tökülməyə başladı. Müstəntiq stolunun yeşiyini açıb oradan götürdüyü bir parça binti mənə atdı.

Mən bintlə başımı sarıdım, lakin isti qan yavaş-yavaş boynuma süzülür və oradan bədənimə keçərək məndə xoşagəlməz bir gizilti əmələ gətirirdi.

Müstəntiq yenə kommutator vasitəsilə 48-dən bir icra qrupu gətirdi. Gələn 3 nəfər məni aralarına alıb apardılar. Yeraltı binada kiçik bir kameraya salıb, qapını bağladılar.

Məni təəccüb bürüdü. “Əgər məni cəza üçün buraya gətirmişlərsə, burada nə var ki?” – deyə düşündüm. Təqribən

3-4 dəqiqədən sonra divarlarda nə isə qəribə bir fışıltı səsi eşidildi. Doğrusu, mən bir qədər qorxdum da.

Birdən divarların arasından yüzlərcə yerdən buğ çıxmağa başladı. Buğ bir an içərisində qatılaşdı. Nəfəsim təngləşirdi. Qapının bağlı olduğunu bilsəm də, onu itələyir, açmaq istəyirdim.

Mən boğulurdum, gözlərim yaşarır, ürəyim hədsiz sürətlə çırpınırdı. isti buğu udmamaq üçün əlimlə ağzımı və burnumu tuturdumsa da, bu çox az kömək edirdi.

Tezliklə huşumu itirdim.

Ayılarkən başqa bir yerdə idim. Üstümə su tökdükləri üçün paltarım tamam yaş idi. Başımın üstündə duran həmin "həkim" nəbzimi tutdu və yanındakılara:

– Götürün, – dedi, – bir şey olmaz.

Qollarımdan və qıçlarımdan yapışıb məni əvvəlki yerimə gətirdilər və isti buğun içinə atdılar. Mən "atdılar" deyirəm, çünki üsulluca yerə qoymayıb, məhz tulladılar. Hətta mən bir qədər əzildim də.

Deyəsən, bu dəfə əvvəlkindən bir az artıq dözdüm. İsti buğu udduqca qəfəsə salınmış vəhşi heyvan kimi otağın içində çırpınır, bircə udum təmiz hava axtarır, təəssüf ki, tapmırdım.

Bir qədərdən sonra yenə huşumu itirdim və ayılarkən yenə də o "həkim"i və iş icraçılarını başımın üstündə durmuş gördüm.

Mənim üstümə bir vedrə soyuq su töküb, təzədən buğun içərisinə tulladılar.

Görünür, bu dəfə huşumu lap tez itirmişəmmiş. Çünki heç bir şey yadıma gəlmir. Fəqət ayrılarkən özümü öz kameramda gördüm. Yaxşı ki, daha başımın üstündə duran yox idi.

Mən yorulmuşdum. Döyülmək, üç dəfə o müdhiş buğun içərisinə atılmaq məni yormuşdu. Mən dincəlmək, doyunca yatmaq istəyirdim.

Lakin istintaq orqanları da deyəsən bunu bildikləri üçün məni dincəlməyə qoymur, müxtəlif cəza tədbirlərini təcrübədən keçirir, məni etmədiyim cinayətləri boynuma almağa məcbur etmək istəyirdilər.

Təxminən, 2 saat keçdi. Məni ayağa qaldırıb kameradan çıxartdılar. Qarovullar məni dövrəyə alıb həbsxananın həyətinə çıxardılar və burada biz bir yeraltı binaya – karsera daxil olduq.

Bura təxminən 10 metr yerin altında idi. Mən bunu endiyimiz pillələrin sayından müəyyən etdim, çünki biz 62 pillə enmişdik.

Hər tərəf zülmət qaranlıq idi. Yalnız qarovullar arabir əllərindəki cib fənərləri ilə yolu işıqlandırırdlar. Nəhayət, biz lazım olan yerə çatdıq. İrəlidə gedən qarovulçu durdu, əyilib yerdə olan dəmir qapının qıfılını açdı, o biri iki nəfər məni götürüb aşağı salladı və qapını qıfıllayıb uzaqlaşdı.

Mənim düşdüyüm yer, təxminən, 2 metr dərinliyində olub, qurşağıma qədər su ilə dolu idi. Mən əllərimi sürtə-sürtə müəyyən etdim ki, buranın eni və uzunu təxminən bir metrdir. Yorulduğum üçün divara söykəndim, lakin sən demə suyun qıraqlarında xüsusi oyuqlar qayrılıbmış və bu oyuqlara iri siçovullar salınıbmış. Mən divara söykənən kimi onlardan bir neçəsi mənim paltarımı çeynəməyə başladı. Doğrusunu deyim ki, hələ azadlıqda olanda belə mən siçan və siçovullardan çiyrinərdim. Onları görəndə, nə isə ətim ürpəşdi. İndi burda onlarla bir yerdə, özü də qaranlıqda qalmaq mənə pis təsir etdi. Cəld bu divardan ayrılıb o birisinə söykəndim. Buradakı siçovullar lap həyasız imiş. Onlardan birisi mənim kürəyimə dırmaşdı və boynumu çeynəmək istədi. Mən dəli kimi yerimdən tullandım və siçovul üstümdən suya düşdü. O civildəyə-civildəyə suyun içindən çıxıb yuvasına girdi.

Mən daha divarlara söykənməkdən qorxduğum üçün karsın dik ortasında dayandım.

Lakin burada da mənə dinclik olmadı. Yuxarıdan iri damlalarla buz kimi soyuq su başıma damırdı. Damcılar ara vermədən düz karsın ortasına, yəni mənim başıma düşürdü. Siçovullardan uzaq olmaq üçün mən də bu damcılara dözürdüm. Fəqət, tezliklə onlar məni əsəbləşdirməyə başladı.

Yorğunluqdan ayaq üstə dura bilmirdim. Bir azca oturmaq üçün mən indi nəyim varsa verərdim. Mən hətta belə bir təcrübə etmək də istədim. Lakin su qurşağa qədər olduğundan oturmaq mümkün deyildi.

Sakit durmaq olmazdı. Çünki azacıq hərəkətsiz duranda bihəya siçovullar üzüb üstümə gəlirdi. Odur ki, bu çağrılmamış qonaqları qovmaq üçün daimə hərəkət etməyim lazım gəlirdi.

Nə qədər vaxt keçdiyini dürüst deyə bilmərəm. Mənə qalsa idi, yəqin ki, keçən vaxtın bir il olduğunu deyərdim... qaranlıq, qurşağa qədər suyun içərisində dik durmaq, daimi olaraq başına suyun damcılaması, ümumi yorğunluq, yuxusuzluq və nəhayət, bu siçovullar.

Yuxarıda ayaq səsləri eşidildi. Karserin qapısı açıldı. Qarovulçu işığı dik üzümə saldı və bir parça qara çörəyi mənə uzatdı:

– Səhər yeməyini alın!

Qapı bağlandı.

Deməк, artıq səhərdir. Deməli, mən burada 15-16 saatdır ki, dayanmışam.

Vaxt nə yaman ağır-ağir keçirmiş...

Çörəyi acgözlüklə çeynədim. Su pis və üfunətli də olsa, bol idi.

Karserə salınanları ayaqyoluna aparmadıqları üçün bu su çox natəmiz idi, lakin hər halda var idi.

Siçovullar çörəyin iyini duyub mənə yaxınlaşmaq istədilər. Ancaq daha onları qovlamağın fəndini bilirdim. Bir-iki dəfə suyu şappıldadan kimi sakitlik bərpa olurdu.

Xeyli vaxt beləcə keçdi. Artıq bədənimin bəndləri sızıldayır, bir-birin dən ayrılmaq dərəcəsinə gəlir, dözülməz şəkildə ağrıyırdı.

Su çox soyuq olmasa da, mən yavaş-yavaş titrəməyə başlayırdım. Yenə də addım səsləri eşidildi. Qapı açıldı. Cib fanarının işığı dik üzümə düşdü.

4 qüvvətli əl məni çəkib yuxarı çıxartdı. Qarovullar məni dövrəyə alıb kamerama gətirdilər. Qapını örtən kimi yerə yıxıldım.

***

Günlər gəlib keçirdi. Məni hər gecə gah müstəntiqin, gah şöbə müdirinin, gah da prokurorun yanına aparırdılar. Onlar ağır siyasi cinayətləri boynuma almağı məsləhət görür, mən də rədd edirdim. Hər bir rədd cavabı növbəti cəza ilə nəticələnirdi.

Bu "48"in nə müxtəlif cəza tədbirləri varmış. Bütün əvvəllər başıma gətirilənlərdən başqa, onlar məni lüt soyundurub, noxud dənələri üstündə dizi üstə oturtmuş, müxtəlif üsullarla əzişdirmiş, soyuq suda islatmış, ac saxlamış, dəli ilə bir yerə salmış, başıma cürbəcür oyunlar açmışdılar.

Nəhayət, mənim ən çox qorxduğum hadisə də baş verdi.

Müstəntiq tez-tez məni hədələyərək deyirdi:

– Özünüzə yazığınız gəlsin. Məni məcbur etməyin ki, butulka ilə hər şeyi boynunuza aldırım.

Hələ azadlıqda mən bu barədə nə isə bir şey eşitməmişəm. Lakin o zamanlar buna nə o qədər ciddi əhəmiyyət vermiş, o qədər də inanmamışdım.

İlk əvvəl bu sözü müstəntiqdən eşitdikdə elə bildim ki, məni yenə də qorxutmaq istəyir. Fəqət, cürbəcür cəzaları görəndən sonra mən bu cəzanın da ola biləcəyinə inandım və bundan qorxmağa başladım.

Hətta bu cəzanı görməyim deyə istintaq orqanlarının təklif etdiyi bəzi cinayətləri "boynuma da aldım". Ancaq getdikcə istintaq orqanlarının iştahası artırdı. Onlar istəyirdilər

ki, mən əslində mövcud olmayan əksinqilablı təşkilatdan, etmədiyim dövləti cinayətlərdən danışım, tanımadığım adamlar haqqında onlara məlumat verim, nahaqdan başqalarının üzünə durum və s.

Mən bu təklifləri qəti olaraq rədd etdikdə şöbə rəisi Məmmədov açıq hiss olunan bir kinayə ilə:

– Deməli, siz bizə kömək etmək istəmirsiniz, – dedi, – bunun nəticəsi sizin üçün pis olacaqdır. Biz məcbur olacağıq ki, sizi butulka vasitəsi ilə danışdıraq. O zaman sizin bütün cinayətləri açacağınıza əminəm. Fəqət, sizin üçün deyirəm.

Qorxudan daxilən tir-tir əsirdim. Axı insanlıqdan tam mənasilə bixəbər olan bu adamlar hər bir cinayət etməyə həm qadir, həm də ixtiyarlı idilər.

Az sonra “48” dən gələn icraçılar məni yerə yıxdılar və butulka əməliyyatına başladılar.

Bu həqiqətən də dəhşət idi, mən hətta sağ qalacağıma belə inanmırdım. Lakin pis günün üzü pis olarmış. Ölmədim, əməliyyat qurtarana yaxın ürəyim xarab oldu və özümdən getdim.

Bu əməliyyatdan sonra mən ancaq ağzı üstə uzana bilirdim. Nə oturmağa, nə də arxası və ya böyrü üstə uzanmağa halım yox idi. Dözülməz ağrılar qarnımı, böyürlərimi və belimi qırmaq dərəcəsinə gəlirdi.

8 gün beləcə keçdi. Artıq yavaş-yavaş ayağa dura bilirdim. Bir gecə xəlvətcə alt köynəyimi soyunub, onu parçaladım və ip düzəltdim.

Nəzarətçi təxminən hər on dəqiqədən bir mənim kamerama baxırdı. Bunu gözlüyün (qapıda baxmaq üçün göz boyda bir yer olur) cıqqıldamağından müəyyən etmişdim. Növbəti dəfə o, kameranı nəzərdən keçirib ötən kimi ipi halqa edib qapının üst çərçivəsinə atdım və ani bir sıçrayışla özümü asdım.

Bilmirəm nəzarətçi mənim oyaq qalmağımdan şübhələnmişdi, yoxsa mən özümü asarkən səs-küy olmuşdumu, nə isə axırı ki, aradan heç 4-5 dəqiqə keçməmiş qapı sürətlə açıldı. İçəri girən nəzarətçi təcili məni yuxarı qaldırdı, başqa birisi yetişib ipi kəsdi.

Mən bunları təxminən hiss edirdim, çünki o qədər də çox boğulmamışdım.

Nəzarətçilər görünür ki, o qədər də boğulmadığımı yəqin edib məni insafsızcasına döyməyə başladılar. Dəmir nallı soldat sapoqları bədənimin harasına dəyirsə dəysin, deşib o biri tərəfə keçmək istəyirdi. Az sonra onsuz da zəif olan bədənim ağır zərbələrə tab gətirməyib üzüldü və mən huşumu itirdim.

***

Həbs olunduğumdan 7 ay 12 gün keçmişdi. (Bunu müstəntiqin otağında asılmış divar təqvimindən başa düşdüm.) Məni yenə müstəntiq Melkumovun yanına apardılar.

O məni görən kimi:

– Daha işinizi məhkəməyə köçürürük, – dedi, yaxın gəlin, ittihamnaməni oxuyun.

Mən ittihamnaməni aldım və hələ ilk sətirləri oxuyarkən dəhşətə gəldim. Burada mənim nəinki Sovet dövründə yazdığım poema, pyes və şeirlərim, hətta inqilabdan qabaq çap edilən və illərlə səhnələrdə oynanılan əsərlərim belə “antisovet əhval-ruhiyyəli” adlandırılırdı. Mən hansısa əslində mövcud olmayan bir əksinqılabi təşkilatın fəal üzvüyəmmiş, xalqın qəddar düşməniyəmmiş və s.

Gözlərim qaranlıq gətirdi, nə deyəcəyimi bilmədim. Axı mən, açığını deyim ki, ümumiyyətlə, qan tökülməyini istəmədiyim üçün hər cür inqılabı da qəbul etmirdim. Mənim nəzərimdə bütün inqilablar zorakılıqdan ibarət olduğuna görə xalqa ziyan bir şey idi.

Mən inqilabçı deyildim, kommunist deyildim, heç bir siyasəti etmirdim - əgər məni buna görə mühakimə etsəydilər,

bu, bəlkə də ədalətli bir şey olardı. Lakin məni “antisovet” ruhlu, hansısa gizli bir “təşkilatın” fəal üzvü hesab etmək, sui-qəsddə təqsirləndirmək, nəhayət, “xalqın qəddar düşməni” adlandırmaq ən azı ədalətsizlik və özbaşınalıq idi.

Məgər mən xalqımın, dövlətimizin düşməni idim? Bəs mənim xalqımı maarifləndirməyə, onu oyatmağa, onu yeni həyata başlamağa çağıran əsərlərim? Axı “xalqın qəddar düşməni” onları yaza bilərdimi?

***

4 ay da keçdi.

Gözləməkdən gözümün kökü saraldı, məhkəmə olmadı ki, olmadı. Artıq bir ilə yaxındır ki, mən bu zindanda çürüyürdüm.

Bir gün səhər məni komendant otağına apardılar. Komendant əlindəki vərəqi mənə göstərib:

-Vətəndaş Mikayılzadə! “Osoboe soveşşaniye” (xüsusi iclas) Moskvada cinayət işinizə baxaraq sizi qeyri-müəyyən müddətə şimal zonasındakı həbs düşərgələrində saxlamağa məhkum etmişdir. Hökmdən şikayət etmək olmaz.

Bu da aylarla, böyük bir ümüdlə gözlədiyim məhkəmə.

## İKİNCİ MƏKTUB
## (Keşlə-Moskva)

Dostum!

Bir neçə gündən sonra məni "Черный ворон" (qara qarğa) adlandırılan xüsusi maşına mindirib Keşlədəki ötürücü həbsxanaya gətirdilər. Burada yalnız bir gün qaldım.

Bizi Keşlə ötürücü həbsxanasından çıxarıb güclü qarovul altında dəmir yolu kənarına gətirdilər. Burada "Pulman" tipli vaqonlardan ibarət böyük bir qatar durmuşdu. Vaqonların qarşısında əllərində uzun siyahılar olan növbətçi zabitlər durmuş və dustaqları adbaad çağırırdılar. Burada hər bir "pulman" vaqonuna 120 nəfər dustaq doldurdular. halbuki 40-50 adam belə burada güclə tərpənirdi.

Vaqonda məndən başqa üç nəfər siyasi dustaq vardı. Bunlardan birisi Kirovabaddan olan qoca bir keşiş, ikincisi hərbi iş üstündə həbs edilmiş 35-40 yaşlarında bir nəfər, üçüncüsü isə mənim kimi cinayəti özünə bəlli olmayan "xalq düşməni" idi. Vaqonda bizim vəziyyətimiz olduqca ağır keçirdi. İstər dustaqlar, istərsə də nəzarətçilər bizi "faşist" deyə çağırır, addımbaşı təhqir edirdilər.

Üç gündən sonra qatar Rostov şəhərinə çatdı. Biz 4 nəfəri başqa dustaqlardan ayırıb Rostov həbsxanasının siyasi dustaqlar saxlanan kamerasına gətirdilər. Burada – təxminən 60-70 kv. m sahəsi olan yerdə dustaqlar qar-qar qaynaşırdı.

Bizim içəri girdiyimizi görüb hamı bir-bir bizə yanaşdı.

Görüşdükdən sonra onsuz da dar olan taxtlarda bizə yer düzəltdilər.

Qoca bir dustaq:

-V tesnate, da ne v obide (darısqal da olsa, incimərik), - dedi.

Uca boylu, enli kürəkli 35-40 yaşlarında bir ukraynalı mənim yanımda oturdu:

– Bəs səni nə üçün tutmuşlar, atacan?

– Doğrusu, heç özüm də bilmirəm.

– Bəs elə bilirsən ki, biz bilirik? Burada hamı bir dərdlidir. Hamımız bilirik ki, bizi "xalq düşməni" adlandırırlar, lakin günahımızın nədən ibarət olduğunu heç birimiz bilmirik.

Ağ saqqallı qoca bir kişi üst taxtdan başını əyib sözə qarışdı:

– Nə üçün başa düşmürsünüz? Əsl xalq düşmənləri özlərini xalqın nəzərində doğrultmaq üçün bizim kimiləri tuturlar. Stalinin bunlardan heç bir xəbəri də yoxdur.

Danışığından yəhudi olduğu aydın bilinən arıq bir kişi zil səslə dedi:

– Bütün bunlar iqtisadi vəziyyətlə əlaqədardır. Havayı işçi qüvvəsi lazımdır. Axı əhalidən qoparılan bu vergilər nəzərdə tutulan ağılsız planların həyata keçrilməsinə çatmır. Bundan ötəri havayi işçi qüvvəsi, özü də bizim kimiləri lazımdır.

Mübahisə get-gedə qızışırdı. Alt taxtlardan birisində lap küncdə yerləşən dolğun əndamlı qoca bir kişi məni yanına çağırdı:

– Bura gəl, qardaş, gəl səni dualayım. Görürəm ki, həm qoca, həm də zəifsən. Şimalın tufanlı, çovğunlu şəraitində Allahın köməyi olmadan sən çətin yaşaya bilərsən.

Cır səslə danışan yəhudinin səsi eşidildi:

– Müqəddəs ata, doğrudanmı siz bu qocanı provaslav kilsəsinə mənsub etmək istəyirsiniz? Axı bundan ötrü müəyyən ayinlər icra olunmalıdır.

Yəhudinin bu sözü qəhqəhəyə səbəb oldu. Dustaqlar bütün əzab-əziyyətlərini unudaraq ürəkdən güldülər.

Kameradakıların birdən-birə qəhqəhə çəkib gülməsindən təəccüblənən nəzarətçi qapını açıb içəri girdi və boğuq səslə çığırdı:

– Bu nə səsdir? Bu saat səsinizi kəsin!

Dustaqlar isə ona əhəmiyyət vermədən gülüşdülər. Nəzarətçi eyni səslə bağırdı:

– Axı niyə gülürsünüz? Ay bədbəxtlər, gülmək sizəmi yaraşır?

Yəhudi irəli yeriyib:

– Vətəndaş nəzarətçi, – dedi, – gözünüz aydın olsun! Müqəddəs ata Porfiri hansı dindən olduğu məlum olmayan bir nəfəri xiristian dininə qəbul etmək istəyir. Çox təəssüf ki, dini ayinləri icra etmək üçün burada yer yoxdur.

Profiri ata mülayim bir səslə yəhudiyə tərəf döndü:

– Heç utanırsınızmı, – dedi. Axı siz mənim etiqadıma toxunursunuz.

Bayaqdan bəri sakitcə oturan kirovabadlı da sözə qarışdı:

– Bəs siz müsəlman olan bir nəfəri danlayarkən onun etiqadına toxunmursunuzmu?

Profiri ata özünü itirdi və mənə dönüb dedi:

– Qardaşım, siz müsəlmansınızmı?

Hamı bu suala qarşı dönüb mənə baxdı.

Mən isə ona:

– Mən insanam, müqəddəs ata, – dedim.

On bir gündən sonra bizi yenidən vaqonlara doldurub yola saldılar. Bu dəfə vaqondakıların hamısı siyasi dustaqlardan ibarət idi. Vaqon adamla o qədər dolmuşdu ki, hətta oturmaq da çətin idi. Nəfəs almaq mümkün olmurdu. O qədər basabas idi ki, mənim qabırğalarım ağrının şiddətindən sızıldayır, ayaqlarım başqalarının ayaqları altında insafsızcasına tapdalanırdı. Burada küsmək, başqalarından incimək olmazdı. Çünki heç kim bilə-bilə başqasına əziyyət vermək istəmirdi.

Kimsə zarafatca dedi: "Burada əsl demokratiyadır. Hüquq bərabərliyi çox gözəl nümayiş etdirilir. Bu hüquq məhz bizim indiki şəraitimizdə bizə verilmişdir. Bildiyimiz kimi, içərimizdə alimlər və kəndlilər, dinlilər və dinsizlər, yaşlılar və

cavanlar olduğu halda hamımız güclə ayaq üstə durmuşuq. Bax hüquq bərabərliyi buna deyərlər.

Vaqonun qapısı gündə yalnız üç dəfə açılırdı: səhər, günorta və axşam yeməkləri verilərkən. Hərçənd bu yeməkləri alıb yemək qeyri-mümkün idi, fəqət qapı açılarkən dünya işığını gördüyümüz və təmiz hava uda bildiyimiz üçün qapının açılmasını həsrətlə gözləyirdik.

Axşam yeməyindən sonra sayğı başlayırdı. Bu zaman əli dəyənəkli nəzarətçilər zorla vaqona girir, dustaqları dəyənəklə vura-vura bir tərəfə yığır, kiçik bir sahə açır və sonra hərəyə bir dəyənək vuraraq sayıb boş olan tərəfə keçirirlər. Bəzən say düz gəlmədikdə bu əzabverici sayma iki-üç dəfə təkrar olunurdu.

Vaqonun qapı ilə üzbəüz olan əks tərəfində ayaq yolunu əvəz edən kiçik bir deşik olurdu. Fəqət bu basa-basda o tərəfə gedib çatmaq ağıla sığan işdirmi?

Üç gün çəkən bu əziyyətdən sonra nəhayət bizi yerə düşürtdülər. Fəqət bizim ayaqlarımız qıc olduğu üçün yeriyə bilmirdik. İşi belə görən nəzarətçilər bizi təqribən bir saat yerə oturtdular. Dustaqlardan kimsə yavaşca pıçıldadı:

– Moskvadır.

Bizi güclü bir nəzarətçi dəstəsi aralığa alıb, yaxınlıqda görünən həbsxanaya apardı.

Ən ciddi axtarışlardan sonra bizi üçüncü mərtəbədəki 100 adamlıq kameralara saldılar.

Bura Moskvanın "Butirki" adlı həbsxanası idi. Kameraları geniş, işıqlı və nisbətən təmizdir.

Yollarda çəkdiyim əziyyətlərdən sonra bura mənə cənnət kimi görünürdü. Həmin günü və gecəni rahat yatdıq. Xoşbəxtlikdən burada bizi kimsə narahat etmirdi.

Səhəri gün nəzarətçi hamama aparılacağımızı bildirdi və irəlicədən xəbər verdi ki, özümüzlə ancaq ən zəruri paltarları götürək. Çünki hamamda çox adam çimdiyinə görə xırda-para şeylər it-bata düşə bilər.

Azacıq sonra bizi iki-iki sıraya düzüb həyətə endirdilər və təqribən 400 metr aralıqda yerləşən hamama gətirdilər. Əvvəlinci otaqda soyunub paltarlarımızı dezinfeksiya olunmaq üçün dezkameraya verdik, oradan dar bir koridorla çimilən yerə keçdik.

Rusiyada olan əksər hamamlar kimi burada da hər şey taxtadan idi: yerin döşəməsi, divarlar, şaykalar (dustaqlar taxta vannaya belə ad qoymuşlar), vedrələr, oturacaq yerləri, hətta su gələn trubalar belə.

Hamamxana xırda-xırda gözlərə bölünmüşdü, hər birində 3-4 duş axırdı.

Bir-birimizə kömək edə-edə çimib qurtardıq və yavaş-yavaş paltar geyilən otağa çıxdıq. Yoldaşlarımızdan bəziləri hələ də duşun altında yuyunmaqda idi. Mən dezinfeksiyadan almış olduğum ayağı və beli rezinli çaxçuru təzəcə əynimə geymişdim ki, çimilən yerdə vur-haray düşdü.

Sən demə başqa korpusdan bir dəstə “bitovik”i (qeyri-siyasi iş üstə həbs olunanları belə adlandırırlar) çimməyə gətiriblərmiş, hamam nəzarətçisi siyasi dustaqların çimib çıxdığını zənn edərək, onları içəri buraxır. Onlar da içəri girən kimi duşun altında çimən qoca ukraynalı Kabılyatskinin üstünə cumub döyməyə başlayırlar. Hər tərəfdən:

– Bey faşista! (faşisti vur) – səsləri ucalırdı.

Əksəriyyəti cavan uşaqlardan ibarət olan bu dələduzlar dəstəsi qocanı yerbəyerdən çırpırdı.

Mən ilk səsi eşitcək özümü içəri atdım. Artıq Kabılyatski onların ayaqlarının altında idi. Mən, cəld kişini müdafiə etmək məqsədilə özümü irəli verib, onun üstünə yıxıldım. İşi belə görən dələduzlar bizim üstümüzə töküldülər.

Səsə yoldaşlarımız içəri axışdı. Onlar bir an içində dələduzlara qarışdılar. Böyük bir vur-haray başlandı. Kimin kimi vurduğu belə məlum deyildi. Çünki əksəriyyət lüt idi.

Mən bir neçə adamın altında qalmışdım. Az qala nəfəsim kəsilirdi. Elə bu zaman kimsə daldan tumanımı əlinə yığışdırdı və var qüvvəsi ilə məni çəkib adamların altından çıxartdı. Kiminsə qayğıkeş əlləri məni qucağına alıb, geyinilən yerə gətirdi.

Bizim yoldaşlarımızdan Qorbatovski adlı ucaboylu bir ukraynalı vəziyyətin çox gərgin olduğunu görüb, ara qapısının bir taxtasını qopartdı. Dəyənək kimi əlinə alıb irəli atıldı. Qorbatovski cəmisi 1-2 dəqiqə ərzində aranı sakitləşdirib geri qayıtdı. Bizim yoldaşlardan yalnız Kabılyatski möhkəm əzilmişdi, qalan 4-5 nəfərin isə azacıq başı yarılmış, əli və ya ayağı çapılmışdı.

Qorbatovski qana bulanmış qapı taxtasını yerinə salıb sakitcə geyinməyə başladı.

Sonradan məlum oldu ki, məni onların altından çəkib çıxaran Qorbatovski imiş. Taxtanı götürən kimi dələduzları çırpmış və yoldaşlarını döyülməkdən xilas etmişdi.

Bizi kameraya qaytardılar.

Qorbatovski dedi:

– Görürsünüzmü, öz xalqımız belə bizi başa düşmür, faşist hesab edir.

Yəhudi ona tərs-tərs baxıb:

–Məgər onlar xalqdır, – dedi, – bu ki, şpanadır (oğru-əyri), ikincisi də onlara belə tərbiyə verilir. Kim ki, siyasi məhbusdur – o faşistdir, xalq düşmənidir.

– Onda qoy bizi "xalq düşməni" deyil, "Stalinin düşməni" adlandırsınlar – deyə kimsə təklif etdi.

– Darıxmayın, o zamanın olacağına da çox qalmayıb.

Yəhudi bu cümləni elə bir inamla dedi ki, kameradakıların hamısı dönüb ona baxmalı oldu. Hətta Qoroxov adlı birisi:

– Xahiş edirəm, elə söz danışmayasınız, – dedi, – burada Stalinin nə günahı var?

Yəhudi 50-55 yaşlarında, hədsiz dərəcədə arıq, nazik, uzunsov sifətli, sivri burunlu, xırda gözlü, sarıbəniz bir kişi idi. Dövlət planı komitəsində yüksək bir vəzifədə işləmiş, orada da "xalq düşməni" kimi həbs edilmişdi. Olduqca savadlı və mədəni bir şəxs idi.

Adətən yəhudilərə xas olan qorxaqlıq və eqoizm bunda yox idi. O, hətta "r" səsini olduqca düzgün tələffüz edirdi. Başqalarının onu zarafatla "iuda" deyə çağırmasına baxmayaraq, əsla əsəbləşmirdi. Yakim Avramoviç Ginzburq belə bir şəxs idi. Onun "xalq düşməni" kimi həbs olunmasının səbəbini soruşduqda belə dedi:

– Bilirsinizmi, mən çox kirayənişinləri olan ümumi koridorlu bir binanın beşinci mərtəbəsində yaşayırdım. Otağımdan iki qapı o yana MVD işçisi olan bir kapitanın evi idi. Bir-birimizə heç bir gediş-gəlişimiz olmasa da, lakin hər gün axşamlar işdən gələrkən mütləq bir-birimizlə rastlaşmalı olurduq. Mən adətən özümdən yaşlı olan bu kapitanı birinci olaraq salamlayır, "axşamınız xeyir" deyirdim. O da cavab əlaməti olaraq başını əyib keçirdi.

Beləliklə, bir-iki il keçdi. Qonşum işə məndən gec getdiyi və istirahət günləri belə evdə olmadığı üçün biz demək olar ki, heç bir zaman səhər salamlaşa bilmirdik.

Təsadüfən bir gün işlədiyim idarədə təmir aparıldığından mən iki gün işə getməyib evdə qalmalı oldum. Birinci gün yuxudan gec durduğum üçün qonşum artıq işə getmişdi. Lakin ikinci gün səhər biz koridorda bir-birimizlə rastlaşdıq. Mən adətim üzrə onu salamlayıb "axşamınız xeyir" dedim.

Qonşum dayanıb durdu. Çeşməyini çıxarıb məni nəzərdən keçirdi.

– Bu nə deməkdir? – deyə soruşdu.

Mən özümü itirmiş kimi oldum:

– Bağışlayın, mən sizi salamlayıram, – dedim.

Qonşum tərs-tərs mənə baxıb əlini yellətdi:

– Bu necə salamlamaqdır? – dedi, – axı indi səhərdir. Siz isə “axşamınız xeyir” deyirsiniz.

Mən onun çox əsəbləşdiyini görüb sözü zarafata salmaq istədim:

– Bilirsinizmi, – dedim, – sizi görəndə mənim gözlərim qaranlıq gətirir, ona görə də gecə ilə gündüzü seçə bilmirəm.

Qonşum daha heç bir söz deməyib, sürətlə qapıdan çıxdı.

Aradan iki gün keçmiş, gecə vaxtı məni yataqdan durğuzub **MVD-yə** apardılar.

Orada məlum oldu ki, qonşum məni **MVD** orqanlarına böhtan atmaqda ittiham etmişdir.

Burada qonşum mənim üzümə şahid keçərək, göstərdi ki, güya mən Sovet dövlətini sevmir, onu qaranlıq zindan adlandırıram. Bundan başqa o dedi ki, güya mən **MVD** orqanlarını xalqın başını gicəlləndirən və gözlərini qaranlıqlaşdıran bir pərdə adlandırmışam.

Bütün bunlara əsasən “Osoboye Soveşşanie” (xüsusi məsləhət) mənim işimi nəzərdən keçirib məni “xalq düşməni” kimi 15 il azadlıqdan məhrum etdi.

## ÜÇÜNCÜ MƏKTUB

### (Moskva-Komsomolsk)

Ayaz, əzizim! Bilmirəm bundan irəli göndərdiyim iki məktubu almısanmı? Hər halda mən ümid edirəm ki, almış olarsan. Mənə cavab yazmasan da olar, ancaq təki məktublarım sənə çatsın.

Son günlərdə elə qəribə olmuşam ki... Elə bil kimsə məni məktub yazmağa tələsdirir. Nə isə biz "Butirki" türməsində təxminən, bir aya qədər qaldıqdan sonra bir gecə həbsxana rəisinin köməkçisi kameraya daxil olub, yatab göndəriləcəyimizi xəbər verdi və yola hazırlaşmağımızı tapşırdı.

Kamerada qəribə bir vəziyyət əmələ gəldi: kimisi yatab gedəcəyimizə sevinir, kimisi bikef olur, kimi xırda-para avadanlığını bir yerə cəmləşdirir, kimi gözlərini bir nöqtəyə zilləyib fikirləşirdi.

Hələ 1934-cü ildən bəri müxtəlif həbsxanalarda saxlanılan qocaman kommunist İvan İqnatyeviç Beryovkin dərindən bir ah çəkib dedi:

– Dostlar, adətən bu vaxt gedən yatablar Kolimaya göndərilir. Bu o deməkdir ki, yəqin ki, biz də oraya göndəriləcəyik. Sizə məsləhətim budur ki, özünüzlə bacardığınız qədər az şey götürəsiniz. Çünki biz 100 km-lərlə yolu piyada gedəsi olacağıq.

Yəhudi, dustaqlar arasında pis təsir bağışlaya, küskün əhval-ruhiyyə yaradan bu sözü kəsib zarafatla dedi:

– Eh, qardaşım, sizi təkcə indi söylədiyiniz sözlərə görə "xalq düşməni" adlandırmaq olar.

Beryovkin bir qədər uca səslə:

– Məgər mən yoldaşların, xalqın qayğısına qalırkən, vəziyyəti başa salırkən "xalq düşməni" edilməmişikmi?

Aralığa yorucu bir sükut çökdü. Hamı sakitcə yığışırdı. Bir qədərdən sonra qapı açıldı, baş nəzarətçi qapının ağzında dayanıb siyahı üzrə bizi çağırıb koridora buraxmağa başladı. Bir nəzarətçi yalnız familiyanı deyirdi. Familiyası çağrılan dustaq irəli yeriyib adını, atasının adını, doğulduğu ili, maddəsini və cəza illərinin qədərini söyləməli idi.

Baş nəzarətçi bunların hamısının əlindəki siyahı üzrə doğru olduğunu müəyyən etdikdən sonra həmin məhbus koridora buraxılırdı.

Koridorda bizi konvoylar (müşayiət edən MVD ordusu əsgərləri) dəstəsi əhatə etdi. Onlar ov üzərinə şığıyan quzğunlar kimi üstümüzə cumdular: əvvəlcə, bizi avadanlığımızdan ayırıb, şeylərimizi olduqca diqqətlə yoxlamağa başladılar. Yorğan və döşəkçələri cırıb, yununu didişdirib, balışları yırtıb tükünü əlləşdirir, öz deməklərinə görə pul, anaşa, tiryək, kart, spirtli içkilər və iti şeylər (bıçaq, almaz, mismar və s.) axtarırdılar.

Təbiidir ki, bu şeylərin heç birisi bizim kimi uzun müddət həbsxanada qalmış, ciddi yoxlamalardan çıxmış məhbuslarda ola bilməzdi. Lakin buna baxmayaraq, onlar səylə axtarır, balışların tükünü havaya sovururdular.

Şeylərimiz yoxladıqdan sonra özümüzün axtarışlarımız başlandı. Bu lap təhqiredici və biabır idi: axtarış edənlər papaqlarımızın içini, ayaqqabılarımızın altını, sırınmalarımızın yaxasını və qoltuğunu sökür, azacıq narazılıq edəndə boynumuzun ardına ilişdirirdilər. Mən, rus xalq nağıllarında oxuduğum "podzatılnik" sözünün mənasını demək olar ki, burada başa düşdüm.

Təxminən, bir saat çəkən bu axtarışlardan sonra, qarovulçular bizi sıraya düzüb həyətə endirdilər. Oradan güclü bir mühafizə dəstəsinin müşayiətilə yaxınlıqdakı dəmiryol xəttinin qırağına gətirdilər.

Burada bizi sallağı oturmağa məcbur edib, özləri vaqonları nəzərdən keçirməyə başladılar. Onu da deyim ki, bu sallağı

oturmaq olduqca əziyyətli bir işdir. Bəzən bir-iki saat belə vəziyyətdə durmağa məcbur edildiyimiz üçün ayaqlarımızın əzələsi sızıldayır, damarlardan qan işləmədiyi üçün dizlərimiz qırılmaq dərəcəsinə gəlirdi. Lakin yerə oturmaq, diz üstə çökmək və yaxud ayağa durmağa icazə verilmirdi.

Aradan xeyli keçdikdən sonra kameraya gələn nəzarətçi başqa bir zabitlə birlikdə yenidən bizi siyahı üzrə çağırmağa başladı. Biz bir-bir sıradan çıxır və nəhəng "Pulman" vaqonlarına minirdik. Burada vaqona o qədər adam doldurdular ki, hətta Rostovdan Moskvaya gətirildiyimiz zamanki darısqallıq bundan şükürlü oldu.

Həmin gecə mühafizə dəstəsi vaqonların hər bir tərəfində öz yerlərini tutdu və gecə ikən yolu düşdük. Dörd gün yol getdikdən donra nəhayət, qatar dayandı və bizi yerə düşürdülər.

Bura əsrlik meşələrin içərisində kiçicik həbs düşərgəsindən ibarət bir yer idi. Vağzalı əvəz edən kiçik taxta daxmanın üzərində "Сухобезводное" yazılmışdı. Bu sözü oxuduqda qeyri-ixtiyari gülümsəməyə başladıq. Hansısa zarafatcıl bir şəxsin bu yerə istehza ilə verdiyi ad, həqiqətən bu yerin şəraiti ilə nə qədər böyük təzad yaradırdı. ("Suxobezvodnoe" quru və susuz yer deməkdir. Halbuki burada hər tərəf bataqlıq və sucaqlıq idi). Buradakı həbs düşərgəsinin qapısına çatdıqda bizi yenidən ciddi şəkildə yoxlayıb düşərgəyə buraxdılar.

Bura, Qorki və Kostroma vilayətlərində yerləşən Unja və Vetluqa həbs düşərgəsinə məhbuslar qəbul edən həbsxana-düşərgə idi. Burada əlli-altmış nəfərlik xidmət qrupu nəzərə alınmazsa, demək olar ki, heç bir dustaq bir həftədən artıq saxlanılmırdı.

Bizi çirkli, üfunətli, buz kimi soyuq olan kiçik kameralara doldurdular.

Gecənin bir yarısı güclü bir uğultu səsinə yuxudan ayıldıq. Düşərgədə işıqlar sönmüş, hər tərəfdən acıqlı insan səsləri eşidilir, ara-sıra sındırılan şüşələrin cingiltisi, qopardılan qapı

və pəncərələrin şaqqıltısı adamı vahiməyə salırdı. Bir neçə dəqiqədən sonra pulemyot şaqqıltısı eşidildi. Onun ardınca avtomat tüfənglərdən atəş açmağa başladılar.

Bayaqdan bəri düşərgənin ortasında o yan-bu yana qaçan, yüksəkdən bağıraraq nəzarətçiləri söyən adamlar güllə səslərini eşitcək çaşıb qaldılar. Onlar geriyə, kameralara doğru yüyürməyə başladılar. Lakin kameralar tərəfdən açılan avtomat yaylım atəşləri onları dayanmağa məcbur etdi. Damların üstünə çıxmış nəzarətçilər ucadan əmr edirdilər:

– Yerə uzanın!

Əlacsız qalmış dustaqlar palçığın içinə uzanmalı oldular. Yalnız bundan sonra düşərgənin qapıları açıldı və nəzarətçi dəstəsi içəri daxil oldu.

Bütün bu müddət ərzində biz, yəni, gələn siyasi dustaqlardan heç kəs öz kamerasından bayıra çıxmamışdı. Lakin sındırılmış pəncərələrdən bütün hadisələrin gedişini izləyirdik.

Nəzarətçilər palçığın içinə uzanmış dustaqlara yaxınlaşıb onları amansız döyməyə başladılar.

Yəhudi kədərli bir səslə elan etdi:

– Yoldaşlar, indi də müasir "Varfolomey faciəsi" əsərinə tamaşa edin. İndi siz quqenotların döyülməsi səhnəsinin şahidi olacaqsınız.

Doğurdan da yəhudinin kinayə ilə dediyi bu sözlər əslində tam mənasilə həqiqət idi. Nəzarətçilər silahsız, köməksiz və əlini qaldırmağa hüquqi olmayan dustaqları tüfəngin qundağı ilə necə gəldi əzişdirirdilər. Bu dəhşətli mənzərə yarım saata qədər davam etdi.

Nəzarətçilər işlərini bitirib, özlərindən məmnun halda qayıdıb bayıra çıxdılar.

Səhər, gecə həyəcanının qurbanı olan 22 nəfərin meyitini və 9 nəfər ağır yaralını xərəklərə qoyub harasa apardılar. "Сухобезводное" bizi belə qarşıladı. Səhər məlum oldu ki, gecə həyəcan qaldıran şəxslər Belorusiyadan gətirilmiş bir qrup

gənc imiş. Onları elliklə (qruppovoy) əksinqilabi təbliğat aparmaqda müqəssir edib həbsxanaya salmış, heç bir yoxlama aparmadan hərəsini 5 ildən 7 ilə qədər azadlıqdan məhrum etmişlər. Gənclər məhkəmənin qərarı ilə razılaşmamış və şikayət vermişlər. Həbsxana rəisi təcrübəsiz gəncləri aldadıb “sizi Moskvada danışdıracaqlar”- deyə buraya yola salıbmış. Yalnız burada onlar aldandıqlarını başa düşmüş, səs-küy salaraq nəzarətçilərlə dalaşmış və prokuror çağırılmasını tələb etmişlər. Nəticəsi isə “Varfolomey gecəsi” kimi olmuşdur.

Burada qaldığımız bir-iki gün ərzində bizə çörək və kofedən başqa heç bir şey verilmədi. Üçüncü gün bizi yenidən vaqonlara doldurub şərqə tərəf yola saldılar.

Bu dəfə vaqonda yerimiz rahat idi. Biz, növbə ilə olsa da, hər halda uzanıb yatmağa yer tapırdıq. Yavaş-yavaş bir-birimizə isinişir, bir-birimizin əhvalından, ailə vəziyyətindən, başına gələn qəziyələrdən, etdiyi “cinayətlərdən” soruşurduq.

İki aya qədər yol getdiyimiz üçün bu müddətdə bir-birimizin demək olar ki, bütün həyatını diqqətlə öyrənmişdik. Yol yoldaşlarımdan Kobılyatski Ukraynanın Çerniqov vilayətindəki Maryino kəndindən olan bir kolxozçu idi. Onu çar höküməti zamanı rus ordusunda zabit olduğu üçün həbs etmişdilər.

Moldoviyalı Georgi Dimitriyeviç Kovalji onu dinləyib dedi:

– Qardaş, sən heç olmasa müəyyən bir işin üstündə tutulmusan. Mən yazıq isə heç bilmirəm ki, nə günahın sahibiyəm.

Yəhudi sözə qarışdı:

– Bura bax, qoca! Neçə yaşın var?

Kovalji sualın nə üçün verdiyini bilməsə də dedi:

– 74.

Yəhudi qəhqəhə çəkib güldü:

– A kişi, hələ bir günahını da soruşursan? Sən də düz əlli üç il çar hökuməti zamanında yaşamısan, özün də, fikirlərin də köhnədir. İndi siyasi məhbus olmaq üçün bu özü kifayətdir.

Kovalji narazı halda başını buladı:

– Siz də lap qəribə adamsınız. Elə hər qoca xalq düşmənidir?

– MQB-nin fikincə təxminən hamısı.

Professor Savelyev sözə qarışdı:

– Yakım Avramoviç, xahiş edirəm, qoyun kişi söhbətini eləsin, görək onu nə üçün tutublar.

Yəhudi daha dinmədi, öz yerində uzanıb söhbəti dinləməyə başladı.

Kovalji dedi:

– Hə, mən üzümçülük sovxozunda sahə briqadiri idim. Bir gün raykomdan bizim kəndə bir təlimatçı gəlmişdi. Bu adam təsərrüfatdan tamamilə xəbərsiz olduğu halda, başladı bizi danlamağa ki, ay nə bilim pis işləyirsiniz, təsərrüfatı düzgün apara bilmirsiniz, yaxşı adam deyilsiz və s.

Mən onda dedim ki, ay yoldaş, biz yaxşı işləyirik, amma dövlət idarələri kolxozların vergi tədarük planlarını düzgün müəyyənləşdirmədiyi üçün kolxozun gəlirinin çoxu da tədarüklərə və vergilərə gedir. Axırda da kolxoz irəli gedə bilmir.

Bayaqdan bəri onu dinləyən yəhudi dözə bilməyib:

– Elə orda evinizi yıxırsınız da, – dedi.

Kovalji bu atmacadan məmnun halda sözünə davam etdi:

– Düz deyirsən, qardaş. Elə evim orada yıxılıbmış. Bu nanəcib oğlu gedir MQB-yə bir məlumat verir. 3-4 gündən sonra məni həbs etdilər. Bu zalım oğlu qızıl-qırmızı üzümə dirəndi ki, güya mən Sovet hökuməti əleyhinə təbliğat aparır, dövlət orğanlarını söyür, kolxoz quruluşunu pisləyirəmmiş. Elə buna əsasən də mənə düz onca il veriblər.

Krasnodardan olan tibb elimləri doktoru, professor Vesili Petroviç Savelyev dərin bir ah çəkib dedi:

– Qardaş, yenə səninki yaxşı olub, üzünə yalandan şahid duran adam yad olub, özü də sən deyəni bəzəyib, artırıb, siyasi don geydirib. Amma mənimki lap qəribədir.

Bir iclasda, yeni dərman növləri haqda məruzə edirdim. Öz dərmanlarımızdan danışandan sonra qeyd edirəm ki, son vaxtlarda xarici ölkələrdə bir sıra qiymətli dərman növləri yaradılmışdır.

Elə həmin gecə məni MQB-yə apardılar. Burada mənim öz aspirantlarımdan ikisi üzümə durub dedilər ki, güya mən onlara çoxlu xarici ədəbiyyat oxumağı tövsiyə edir, xarici alimləri tərif edirəmmiş.

Bilirsinizmi, bu sonuncu ittihamın üstündə mənə nə qədər işgəncə verdilər? Hamısı keçib gedər, amma birisini bilməyiniz yaxşıdır. Müstəntiq butulkaları xırda-xırda sındırıb tabut formalı xüsusi bir qaba yığdırıbmış. Məni lüt soyundurub həmin tabuta uzandırdı və orada döyməyə başladı. Qayışın ağrısından tabutda tərpəndikcə butulka qırıqları bədənimi parça-parça edirdi. Mən bundan sonra 2 ay müalicə olundum.

Vaqonun dib tərəfində uzanan və bu vaxta kimi heç kimlə bir kəlmə də danışmayan uca boylu, enli kürəkli, sarışın bir gənc ayağa durub bizə yanaşdı və dedi:

– Professor, siz yaxşı qurtarmışsınız. Mən isə ömürlük bədbəxt olmuşam.

Burada mən dayana bilmədim:

– Sənə nə olub ki, oğlum? – dedim.

Gənc asta-asta dedi:

– Vallah, doğrusu danışmağa da utanıram. Müstəntiq mənim başıma elə bir oyun açıb ki, onu heç ağıla yerləşdirmək olmaz. O, məni lüt soyundurub, ağzı nazik parça ilə örtülmüş bir kiçik vedrənin üstündə oturtdu. Üç sağlam kişi mənim çiyinlərimdən yapışdı, ilk əvvəl bunun nə demək olduğunu başa

düşmədim. Ancaq sonra altımdakı vedrədən civilti səsləri gəlməyə başladı. Sən demə oraya 3-4 siçovul salmış və məni onun üstündə oturdandan sonra vedrəyə istilik buraxıblarmış. Siçovullar isti dəyən kimi çıxmağa yer axtarıb üzü yuxarı dırmaşmağa və mənim yuxa yerlərimi gəmirməyə başladılar. Mən dəli kimi bağırıb qalxmağa səy etdimsə də, mümkün olmadı. Çiyinlərimdən tutub məni aşağı basan üç kişi və müstəndiq imkan vermədilər. Siçovullar can hövlündən məni didir, parçalayır, özlərini xilas etmək üçün məni məhv edirdilər. Mən vəhşi kimi çığırır, yalvarır, hər nə istəsələr boynuma alacağımı söyləyirdimsə də, bir şey çıxmırdı. Cəmisi 2-3 dəqiqə ərzində siçanlar məni islahatdan, insanlıqdan çıxartdı və mən ağrının dözülməzliyindən özümdən getdim.

Gəncin başına gətirilən bu qeyri-insani işgəncə hamını məyus etdi. Aralığa sükút çökdü. Bu qədər ağır əzab verilən bu gəncin nə iş tutduğu ilə maraqlandım:

– Bağışlayın, oğlum, dedim, – axı siz nə iş tutmusunuz ki, başınıza bu oyunu gətiriblər, siz kimsiniz və nəçisiniz?

– Mən ukraynalıyam. Adım da Mikola Andreyeviç Svistundur, - deyə gənc sözə başladı. Atam-anam yadıma gəlmir, kim idilər, nəçi idilər, bilmirəm. 5 yaşımda küçələrdə qalmış, olmazın pis günlər görmüşəm. 13 yaşında ikən bir nəfər müəllim məni Odessaya aparıb evində saxladı, dərs verdi, tərbiyələndirdi. 3 ildən sonra da işə gəldim. Həm oxuyur, həm də işləyirdim. Bu zaman həmin müəllim qəflətən öldü. Bu, məndə böyük bir bədbinlik əmələ gəlirdi. Mən daha Odessada dayana bilməyib Kiveyə gəldim. Burada 2 il müxtəlif zavodlarda fəhləlik edə-edə orta məktəbi bitirdim.

Sonra instituta girdim. Gündüzlər oxuyur, gecələr isə dəmiryol vağzalında yük daşıyırdım. Yoldaşlarım bundan xəbər tutub məni ələ salmağa başladılar. Mən bir az da bədbinləşdim. Sizdən nə gizlədim, elə əvvəllər də xırda-para şeir yazırdım. Ağır vəziyyətim, yoldaşların belə münasibəti

məni bədbin, küskün əhval-ruhiyəli şeirlər yazmağa məcbur etdi. Yataqxanadakı yoldaşlarımın birisi bu şeirləri başımın altından götürüb MQB-yə verir. Bir neçə gündən sonra məni həbs etdilər.

Professor Savelyev soruşdu:

– Bəs məhkəmədə vəziyyəti izah etmədinizmi? Axı siz cavan uşaqsınız, hər halda sizə müəyyən bir güzəşt olunmalı idi.

Mikola azacıq gülümsündü:

– Vallah, necə deyim, - dedi, sizinki bilmirəm, mənim məhkəməm elə qəribə oldu ki...

Yəhudi:

– Bizim məhkəmələr elə qəribə olur, - dedikdə Mikola:

– Yox, bu məhkəmə lap qəribə oldu. Əvvəla, mən 1915-ci ildə anadan olmuşam və bu haqda lazımi sənədlər də var. Amma məhkəmədə 2 nəfəri üzümə durquzdular ki, guya mən 1919-cu ildə ağqvardiyaçılarla birlikdə Ukraynada Sovet hökümətinə qarşı vuruşmuşam.

Hamı təəccüb içində donub qaldı.

– Bu necə ola bilər? – deyə professor Savelyev soruşdu, – axı o zaman sizin 4 yaşınız olmuşdur.

– Məni də yandıran elə olur ki, məhkəmə bu ağ yalanı təsdiq etdi. Şahiddən daha soruşmadı ki, belə şey olarmı?

– Siz nə danışırsınız, ay canım, – deyə üst taxtların birində uzanmış dolğun əndamlı, daz başlı, enli dodaqlı, iri yastı burunlu bir kişi dilləndi, - siz tələbəsiniz və sizin başınıza bu oyunu gətiriblər. Mən isə tarix elmləri doktoruyam, professsoram. Amma məni avam bir kəndlini mühakimə edən kimi mühakimə ediblər.

Mən Ryazandanam, orada doğulmuş, orada da yaşamışam. Adım da Spiridon Matveyeviç İvanovdur. Ryazan Pedaqoji İnstitutunda dərs deyirdim. Mühazirələrin birində mən göstərdim ki, çarları və onun sərkərdələrini idealizə etmək

doğru deyil. Çünki xalqları əsrlər boyu zülm altında saxlayan məhz onlar olmuşlar. Qeyd etdim ki, Suvorov istər Rusiya daxilindəki, istərsə də Fransadakı inqilabi hərakatın yatırılmasında fəal iştirak etmişdir. Onu bir igid sərkərdə kimi tərif edərkən bu barədə də danışmaq lazımdır. Çünki tələbə keçmişin hər bir çar və ya sərkərdəsini ancaq müsbət şəxsiyyət kimi tanısa, onu az qala inqilabçı hesab edəcək, bu isə dözülməz haldır. Mənim bütün dediyim budur. Di gəl ki, mənim bəzi "yoldaşlarım" buna əlli cür bəzək vurub, əlavə etdikdən sonra MQB-yə məlumat veriblər. MQB isə siz bilən nə etdi?

Yəhudi xırda gözlərini bir az da qıyıb:

– Nə edəcək, – dedi, tutub bizə yoldaş elədi.

İvanov azca gülümsədi:

– Düz deyirsiniz, Yakim Avramoviç, – dedi. – Sizə yoldaş elədi. Amma necə?

Məni təkcə çarlar haqqındakı mülahizəmə görə həbs etsəydilər, bir o qədər də inciməzdim. Amma istintaq orqanları məni az yox, azacıq yox, 1905-ci il inqlabını yatıran cəza dəstələrindən birisinin rəisi kimi qələmə verdi. Vicdansız tribunal da bunu təsdiq etdi.

Mən lap çaşıb qaldım:

– Professor, – dedim, – bəs heç bir şahid-filan olmadı?

– Niyə olmur? MQB-nin maaş alan xüsusi adamları var. Hər kimin ki, işinə şahid lazımdır, həmin adamları öyrədib onun üzünə durquzdular.

Mənim üzümə duran şahidlər öz sənətlərində çox məharətli idilər. Bu adamlarda həya adlı bir şey yox idi. Əgər yorulmamısınızsa, mən tribunalda onların necə çıxış etdiyini sizə danışım.

– Meşə kəsəndə yorularıq, – deyə yəhudi yenə atmaca atdı, – indi burada nə var ki...

Hərə bir tərəfdən dedi:

– Xahiş edirik, ətraflı söhbət edin.

– Onsuz da fikir-xəyaldan yatmaq olmur.

Professor İvanov öz taxtından enib aşağı taxtda oturdu və sözə başladı:

– Hə, tribunalın sədri mənə dedi ki, sizin başqa bir cinayətinizin də üstü açılıb. Demə siz 1905-ci ildə Peterburuqda inqilabçı fəhlələri qırmaqla məşğul olan bir cəza dəstəsinin rəisi imişsiniz.

Mən quruyub qaldım. Bu barədə istintaqda mənə bir söz deyilməmişdi, odur ki, – belə şey ola bilməz, – deyə çığırdım.

Hakim keşikçi əsgərə:

– Popovu çağırın, – dedi.

Təxminən 50-52 yaşlarında kök, qırmızıyanaq, tanımadığım bir kişi içəri girdi. Hakim ona müraciətlə:

– Siz İvanovu tanıyırsınızmı? – dedi.

Şahid utanmadan “bəli” – deyə cavab verdi.

– Haradan tanıyırsınız?

– Bu lap çoxdankı hadisədir. 1905-ci ilin yayında mən atamla bərabər Peterburuqdakı Putilov zavodunda işləyirdim. Biz fəhlələr səhər vaxtı zavodun qabağında toplanıb nümayişə getməyə hazırlaşırdıq. Birdən tindən 2 nəfər atlı görünürdü. Fəhlələr tez zavodun həyətinə doluşdular. Dedilər ki, bunlar cəza dəstəsinin rəisi İvanov və onun adyutantıdır. Əgər bizi görsələr, mütləq öldürərlər. Həmin 2 atlı yel kimi gəlib yanımızdan sovuşurdu. Xoşbəxtlikdən bizi görmədilər.

İclasçının birisi ona sual verdi:

– Popov! Deyin görək, siz əvvəllər İvanovu tanıyırdınızmı?

– Xeyir!

İkinci iclasçı sual verdi:

– Siz o vaxtı İvanovun özünü gördünüzmü? Bu qarşınızdakı İvanovun həmin İvanov olduğunu təsdiq edirsinizmi?

– Əlbəttə, – deyə Popov cavab verdi.

Hakim mənə müraciət etdi:

– Sizin vətəndaş Popova sualınız varmı?

– Bəli, – dedim. Əvvəla, vətəndaş Popov desin görək onun fəhlə yoldaşları kim idi və məni haradan tanıyırdılar?

Papov udqundu:

– Aradan 30 ildən çox keçib, həm də mən tezliklə o zavoddan çıxdım. Nə bilim adları nə idi.

– Bəs nə yaxşı onları unutmuş, mənim adımı isə əzbər deyirsiniz? İkincisi, siz deyirsiniz ki, mən o vaxt atın üstündə gördüyünüz İvanovam. Özünüz də indicə dediniz ki, atlılar yanımızdan yel kimi ötüb keçdilər. Əgər belədirsə, siz mənim üzümü necə görə bilərdiniz? Nəhayət, siz haradan bildiniz ki, mən həbs olunmuşam və sizi buraya kim çağırdı?

Popov tutuldu, nə cavab verəcəyini bilmədi. Prokuror onun köməyinə yetdi:

– Mən məhkəmə həyətindən xahiş edirəm ki, müqəssirə şahidi çaşdırmağa imkan verməsin.

Hakim zəngi çalıb mənə:

– Oturun, məsələ aydındır, – dedi, – şahid sizi tanıyır, cinayətinizi də üzünüzə deyir, hələ bundan başqa bir şahid də vardır. O da sizin cəza dəstəsində işləməyinizi təsdiq edir.

Sonra isə:

– Kuznetsovu gətirin, – deyə keşikçiyə müraciət etdi.

Bu dəfə içəri uca boylu, arıcaq, uzunsov sifətli, çopur, 60 yaşlarında tanımadığım bir kişi daxil oldu.

Hakim ona rəsmi sualları verdikdən sonra dedi:

– Vətəndaş Kuznetsov, müttəhim İvanov haqqında bilmədiklərinizi danışın.

Kuznetsov alçaqdan bir-iki ağız öskürüb sözə başladı:

– Hörmətli hakimlər, – dedi, mən Peterburuqda yaşayır və kimya zavodunda fəhləlik edirdim. 1906-cı ilin əvvəllərində məni nümayişdə iştirak etdiyim üçün tutub polis idarəsinə apardılar. Gecəni zirzəmidə saxladıqdan sonra səhər rəisin

yanına apardılar. Otaqda məni 3 nəfər istintaq etdi. Onlardan biri də həmin bu İvanov idi.

Kuznetsovun bu vicdansız yalanı məni lap sarsıtdı. Hətta ona etiraz da edə bilmədim. Tribunal da bu "şahidlərin" dediklərinə əsasən məni 1905-ci il inqlabının iştirakçılarına cəza verməkdə müqəssir hesab etdi.

Kimsə yavaşca:

– Bəs vəkiliniz yox idi? – deyə soruşduqda, bütün günü dinməyib yalnız başqalarını dinləyən, Ukraynanın Sumı vilayətindən olan Porfiriy Yeqoroviç Qruşevitski dözə bilməyib əsəbi halda çığırdı:

– Vəkil nədir, canım? Tribunalda vəkil heç olmasa yaxşıdır.

Mən onun əsəbləşdiyini görüb mülayimliklə soruşdum:

– Məgər sizin vəkiliniz var idimi? Axı deyəsən yoldaşların çoxunun vəkili olmamışdır.

– Yoldaş yazıqların məhkəməsi olmuşdu ki, vəkili də ola... – deyə yəhudi sözə başladı – Moskvada "xüsusi yığıncaq" qeydimizə qalaraq bir müddət (əlbəttə, namüəyyən bir müddət) Uzaq Şimalda yaşamağımızı məsləhət görmüşdür. Həkimlərin dediyinə görə bu xüsusilə zehni əməklə məşğul olanlar üçün çox faydalı olur.

Professor Savelyov onun bu zarafatına dözə bilmədi:

– Mənim əzizim, – dedi, – siz nə üçün həkimlərə böhtan atırsınız? Axı bu yaxşı deyil.

–Bizim hamımıza olmazın böhtanlar atılanda yaxşı idi?

İkincisi də mən bu sözü MVD həkimləri barəsində deyirəm.

Kobılyatski onların hər ikisini sakit edib:

– Siz deyəsən MVD həkimlərinin üstündə bir-birimizlə pozuluşmaq istəyirsiniz, - dedi.

Yəhudi sözü yenə zarafata çevirdi:

– Pozuluşsaq da, acıq edib getməyə qoymayacaqlar. Vaqonun qapıları bağlı, özünün də çoxlu gözətçisi.

Hamı gülüşdü. Doğurdan da burada bir-birindən küsmək, acıq etmək mümkün deyildi.

Mən hamının gülüşdüyü, arada heç bir inciklik-filan olmadığını görüb Qruşevitskiyə dedim:

– Mümkünsə, deyin görək vəkilinizin sizə bir köməyi dəydimi?

– Heç üzünü gördüm ki...

– Bəs dediniz ki, vəkilim var idi?

– Bəli, həm var idi, həm də yox.

– Axı bu necə ola bilər?

– Elə beləcə. Qulaq asın, mən özüm məhkəməmin necə getdiyini sizə danışım, onda özünüz başa düşərsiniz, – deyə Qruşevitski sözə başlamaq istəyirdi ki, vaqonun qapısı döyüldü və bizə yatmaq əmri verildi.

Səhəri gün erkən yuxudan duran kimi Qruşevitskini dövrəyə aldıq. Hamını onun vəkili maraqlandırıdı.

Qruşevitski dedi:

– Məni üççə dəfə istintaq edib çox əhəmiyyətsiz şeylər soruşandan sonra işi məhkəməyə köçürdülər. Mən konkret olaraq nədə ittiham olduğumu da bilmirdim.

Məhkəməm o qədər tələsik və gizli aparıldı ki, bunu nəinki mənim ailəm, hətta nazirliyin şöbələri belə bilmədi. Məni yeriyə bilmədiyim üçün xərəyə qoyub kiçik bir otağa gətirdilər. Otaqda 4 nəfər hərbi geyimli, 1 nəfər də hüquq işçisi paltarında olan şəxs var idi.

“Qəribədir...axı mən müdafiəni rədd etməyim, vəkil tutmadığım üçün prokuror məhkəmədə olmalı idi. Bəlkə o təsadüfi olaraq bura gəlmişdir? Elə tutaq ki, bu belədir. Bəs nə üçün hakimlər hərbiçilərdir? Axı mən hərbi qulluqçu deyiləm, ola bilməz ki, mənim işimə hərbiçilər baxsın.”

Bütün bunlar bir-bir fikrimdən keçirdi ki, həkimin amiranə səsi eşidildi:

– Müqəssir! Kiyev qarnizonu hərbi tiribunalı sizin cinayət işinizə baxır. Üçlüyün sədri polkovnik Maretski, iclasçılar kapitan Streltsov və baş leytenant Qruzdevski, katib serjant Sorokadır. İşdə ittihamçı sifətilə birinci dərəcəli hüquq müşaviri Oleynikov çıxış edir.

Mən təəccübümdən donub qalmışdım.

– Bağışlayın, – dedim, – möhtərəm hakim, icazə verin sizdən bir-iki söz soruşum.

– Buyurun, – deyə sədr könülsüz də olsa icazə verdi.

Mən azacıq yerimdən qalxındım:

– Möhtərəm hakimlər, – dedim, – bağışlayın, lakin məncə, burada nə isə bəzi dolaşıqlıqlar var. Əvvələn hərbiçi olmadığım üçün, zənnimcə, mənim işimə hərbi tribunal deyil, adi məhkəmə baxmalıdır. İkincisi də işdə müdafiə tərəfi olmadığı üçün ittihamçı da olmamalıdır. Sədr üzünə sərt bir ifadə verib:

– Siz deyəsən çox dərin yerlərə baş aparmaq istəyirsiniz. Lakin, məlumunuz olsun ki, biz hər işi qanun üzrə həll edirik. Yaxşısı budur ki, mənə deyin görüm, sizə nə olmuşdur? Niyə sizi xərəkdə gətirmişlər? Xəstəsinizmi?

– Xeyir, möhtərəm hakim, – dedim, – mən xəstə deyiləm. Lakin ittihamnaməni (obvinitelnoe zaklyuçenie) imzalanmaqdan ittihamnaməni (obvinitelnoe zaklyuçenie) imzalamaqdan imtina etdiyim üçün məni döyüb bu hala salmışlar.

Sədr və iclasçılar bir-birinə baxışdılar, nəsə pıçıldayıb astadan gülüşdülər. Sədr sözləri xüsusi vurğu ilə ayıraraq dedi:

– Siz, yəqin ki, milli xalq məsəllərinizi yaxşı bilirsiniz: "Döyülməmiş düyüdən aş olmaz (iz nemolotoqo risa pilav nə budet).

Bu vaxta qədər işimə ədalətlə baxacağını güman etdiyim bir məhkəmənin hakimi belə deyirdisə, mən daha nə gözləyə bilərdim?

Hakim yüksək səslə:

– Müttəhim! – dedi, – sizin rus dilini mükəmməl bildiyinizi nəzərə alıb, məhkəməni rus dilində aparmağı qərara almışıq. Sizin buna etibarınız yoxdur ki?

Mən nə "hə", nə də "yox" dedim.

Hakim sözünə davam etdi:

– Bəlkə də siz rus xalqına nifrət etdiyiniz kimi, rus dilinə də nifrət edir və bu dildə danışmaq istəmirsiniz?

Mən dözə bilmədim:

– Möhtərəm hakimlər, – dedim, xahiş edirəm məni bu qədər alçaltmayasınız. Nəzərinizə çatdırım ki, mən rus xalqını və rus dilini ürəkdən sevirəm və bildiyiniz kimi rus dili müəllimiyəm.

Hakim mənim sözümü kəsdi:

– Bunların mətləbə dəxili yoxdur. Biz faktlara əsaslanırıq. Yaxşısı budur ki, işə başlayaq.

O, bunu deyib stolun üstündəki qalan qovluqlardan birini açdı və yüksək səslə oxumağa başladı:

–1900-cü ildə Sumi şəhərində anadan olmuş Qruşevitski Porfiriy Yeqoroviç vətənə xəyanət edərək 1930-1935-ci illərdə əksinqilabi "Mübarizə" təşkilatının fəal üzvü olmuş, bu təşkilatın tapşırığı ilə Sovet hökümətinə xeyli ziyan vurmuşdur. O, son illərdə həmin təşkilatın əvvəllərdə həbs edilmiş üzvlərinə yardım etməklə öz cinayətini davam etdirmişdir.

Bunu Qruşevitskinin öz keçmiş qonşusu siyasi məhbus Lazarenko ilə məktublaşması sübut edir.

Mən təəccübümdən donub qalmışdım. Çünki, möhkəm döyülüb əzişdirilsəm də, ittihamnaməni əlimə belə almamış, onun içində nələr yazıldığını oxumamışdım. Bir anlığa mənə

elə gəldi ki, ürəyim yerindən qopmaq istəyir. Odur ki, yaralanmış vəhşilər kimi bağırdım:

– Bunların hamısı yalandır. Mən nə vətənə xəyanət etmiş, nə də əksinqilabi təşkilat görmüşəm.

Hakim zəngi çaldı:

– Susun, mən sizə söz verməmişəm. Bir də ki, sizin cinayətləriniz tamam-kamal sübuta yetmişdir. Bunlardan ki, imtina edə bilməyəcəksiniz, – deyə əlində tutduğu üç zərfi mənə göstərdi.

Zərfləri görəndə hər şeyi başa düşdüm. Mənim Lazerenko adlı qapıbir qonşum var idi. Hansısa bir hissədə polk komandiri idi. Biz on ildən çox bir binada yaşamışdıq. 1934-cü ildə qəflətən Lazarenkonu həbs etdilər. Az sonra ailəsini də Orta Asiyaya sürgünə göndərdilər. Mən qonşumun nə üçün tutulduğunu da bilmirdim.

1937-ci ilin əvvəllərində qonşum mənə məktub yazıb, öz ailəsinin harada yaşadığını soruşmuşdu. Əlbəttə, mən ona cavab verməyə bilməzdim, çünki ailəsinin ünvanını bilirdim. Mən bu haqda ona yazdım. Aradan 3 ay keçmiş qonşum mənə ikinci bir məktub göndərdi. Bu məktubda o ailəsini tapmaqda kömək etdiyim üçün mənə təşəkkür edir və göstərirdi ki, mənim kimi adamların (yəni, qonşuların) olmağı onu çox sevindirir.

İkinci məktubu alandan düz 5 gün sonra həbs edildim.

Mən bunu olduğu kimi danışdımsa da, mənə qulaq asan olmadı, 5-6 nəfər şahid gətirdilər. Onlar da yalandan sizin üzünüzə duran kimi, mənim də üzümə durdular.

Prokuror elə sözlər deyirdi ki, onun dediyinə qalsaydı, gərək məni oradaca güllələyirdilər.

Gördüm ki, bu lap ağ oldu. Hirsləndim, başladım bunları utandırmağa.

Hakim mənim sözümü axıra qədər dinləmək istəməyib ayağa qalxdı:

– Məhkəmə məşvərətə çıxır, - dedi, – müttəhimi yan otağa keçirin.

Əsgərlər mənim uzandığım xərəyi yerdən götürdülər və qonşu otağa keçirdilər. Onlardan biri mənə bir papiros yandırıb verdi:

– Al, çək, – dedi, – indi belə şeylər çox olur.

Mən çəkən olmasam da, papirosu aldım və acgözlüklə sümürməyə başladım. Heç aradan 10 dəqiqə keçməmişdi ki, katib qapının arasından başını içəri soxub:

– Gətirin, – dedi.

Məni içəri apardılar, hakim əlində tutduğu yazı makinasında çap olunmuş vərəqləri oxumağa başladı:

– Ukrayna Sovet Sosialist Respublikası adından Kiyev qarnizonu hərbi tribunalının xalq iclasçıları kapitan Strelkov və baş leytenant Qruzdevski, katib serjant Soroka, 1-ci dərəcəli hüquq müşaviri prokuror Oleynikovun və müttəhimin vəkili mayor Maltsevanın iştirakı ilə 58.1a və 58.10 maddələrilə təsdiqləndirilən Qruşevitski Porfiriy Yeqoroviçin işinə baxıb müəyyən etdi.

Mən az qala dəli kimi bağırdım:

– Hanı o vəkil, mənim heç bir vəkilim olmamışdır, – dedim.

Mən çığıran kimi döşdəki qapı açıldı. İçəriyə 45-48 yaşlarında bir qadın girib:

– Vətəndaş Qruşevitski, – dedi, – mən buradayam və bütün mühakimə dövründə də burada olmuşam. İntəhası, siz özünüz vəkildən imtina etdiyiniz üçün mən qapının dalında durmağa məcbur oldum.

– Axı bu düzgün iş deyil, – dedimsə də hakim sözümü kəsdi:

– Bəs siz vətənə xəyanət edərkən düzgün işmi görmüsünüz? Sizi müdafiə etmək yox, güllələmək lazımdır. Yaxşısı budur ki, hökmü dinləyin.

Elə bu zaman növbətçi zabit qapını açıb içəri girdi və külək hakimin əlindəki vərəqi yerə atdı.

Mən donub qaldım. Hökm artıq imzalanmış və hətta möhürlənmiş idi. Özümü güclə ələ alıb:

– Möhtərəm hakimlər, – dedim, – doğurdanmı cəmisi 10 dəqiqə ərzində siz həm hökm çıxarmış, maşınkada yazdırmış, həm də təsdiq etdirmişsiniz? Yoxsa siz bu işləri məhkəmədən qabaq hazırlamışdınız? Əgər belədirsə burada niyə vaxtınızı itirdiniz?

Hakim qıpqırmızı qızarıb mənim sözümü kəsdi:

– İndi ki, dinləmək istəmirsiniz, heç lazım da deyil. Lakin sizin üçün ən maraqlı yerini oxuyum.

– Məhkəmə heyəti Qruşevitski Porfiriy Yeqoroviçi CM-nin 58.1a və 58.10 maddələrilə vətənə xəyanət etməkdə və antisovet təbliğatı aparmaqda müqəssir bilərək onu 25 il azadlıqdan məhrum edib, ölkənin şimal rayonlarında saxlanılmağa, həbs müddətini çəkib qurtarandan sonra isə 5 il seçki hüququndan məhrum edilməyə və 5 il sürgün edilməyə məhkum edir. Hökm qətidir, şikayət qəbul olunmayacaq.

Elə bil dünya başıma dar oldu. Gözlərimin qabağına nə isə qaranlıq pərdə kimi bir şey çəkildi. Yaxşı ki, xərəkdə idim, yoxsa əsla yeriyə bilməzdim.

Məni yerdən götürdülər, qapıdan çıxarıb keşikçi nəfərlərinə verdilər. Onlardan birisi əsgərlərdən astaca soruşdu:

– Neçə il verdilər?

– Kak obıçno – 25.5 po roqam i 5 po noqam.

(Adətən oluğu kimi – 25.5 buynuzlarına, 5 də ayaqlarına.)

Hərçənd bizim hamımızın “cinayət işi” qəribə idi. Amma Qruşevitskinin danışdığı lap təəccüblü idi. Hətta yəhudi də onun söhbətindən mütəəssir oldu.

Hamı xəyalən öz başına gətirilənləri gözləri önündə canlandırır, bunu Qruşevitskininki ilə müqayisə edirdi.

Sükutu Qruşevitski özü pozdu:

– Ancaq o əsgərin dediyi sözün mənasını başa düşə bilmədim. Necə yəni ki, 25.5 buynuzlarına, 5 də ayaqlarına. Bu nə deməkdir?

Professor İvanov:

– Bundan aydın nə ola bilər ki? – dedi, yəni siz cəza müddəti qurtarandan sonra 5 il seçib-seçilmək hüququndan məhrumsunuz.

Yəhudi bunu başqa cür yozdu:

– Yəni, siz 25 il sağ qalasız, sonra 5 il keçi kimi buynuzlarınızı hər tərəfə soxmayasınız – bu "po roqam" (buynuzlarına), 5 il də gərək olmayan yerlərdə avara-avara gəzib özünüzü üzməyəsiniz. Bu da – "po noqam" (ayaqlarına).

Görürsünüz necə qayğınıza qalırlar? Axı 30 ildən sonra biz lap düşkün qocalar olacağəq, bizə çox gəzmək ziyan olar.

Hamımız kədərlə gülüşdük.

Doğurdan da bu yəhudi qəribə insan idi. Mən onun ruhdan düşdüyünü, kədərləndiyini, əsəbləşdiyini görmədim. Daima yoldaşlarda ruh yüksəkliyi yaymağa çalışır, hamının qayğısına qalırdı.

Günlər keçirdi, biz uzun yolu başa vurana qədər təxminən 2 ay keçdi. Çünki bizim qatar əsas deyil, dolanbac yollarla gedir, həm də iri şəhərlərdə xeyli dayanıb dustaq götürürdü.

Bu müddətdə mən yol yoldaşlarımla daha yaxından tanış oldum. Onlardan xüsusilə 3 nəfərilə lap dostlaşdım. Bunlar qocaman komunistlər idi: ukraynalı Letçenko, yəhudu Ginzburq və rus Savelyer. Mən bunlardakı idarə möhkəmliyinə, aydın dünyagörüşünə pərəstiş etməyə başladım. Özün bilirsən ki, azadlıqda olanda mən ümumiyyətlə, heç bir partiyaya mənsub deyildim və açığını deyim ki, buna o qədər əhəmiyyət vermirdim.

Bu yoldaşlar dünyanın ən yaxşı, ən mətin, ən həqiqətpərəst insanları imiş. Bir təsəvvür et ki, bunların barəsində nə

qədər haqsızlıq olsa da, yenə öz partiyalarından inciməmiş, ondan üz döndərməmişlər.

Mən bir dəfə bu barədə söz salanda prof. Savelyev dedi:

– Mikayılzadə, bu haqsızlığı Kommunist Partiyası deyil, ayrı-ayrı, əslində komunist olmayan şəxslər edirlər. Biz inanırıq ki, bu müvəqqəti haldır. Partiyamız və xalqımız bu vəziyyətdən xəbərsizdir. Gec-tez həqiqət bərqərar olacaq və biz azadlığa çıxacağıq.

## DÖRDÜNCÜ MƏKTUB

Sevimli dostum!

Komsomolski şəhərində bizi qatardan düşürüb dəniz qırağındakı həbs düşərgəsində yerləşdirdilər. Burada bir neçə gün bizi dindirib-danışdıran olmadı. Hər şeylə maraqlanan yəhudi haradansa öyrənmişdi ki, bizi Kolumaya yola salacaqlar. Doğrudur, biz bunu təxminən bilirdik, ancaq yenə də dünyanın ən soyuq olan bir guşəsinə uzun müddətə aparılacağımız bizi xeyli kədərləndirirdi. Qafqazlı məhbuslar demək olar ki, tamamilə ruhdan düşmüşdülər.

İki gün beləcə sıxıntı içərisində keçdi. Üçüncü gün gündüz bizi kiçik dəstələrə bölüb güclü nəzarət altında gəmi vağzalına gətirdilər.

Burada "Feliks" adlı nəhəng bir okean gəmisi durmuşdu. Bizi ciddi yoxlamadan keçirib gəminin alt hissəsində yerləşən tryuma doldurdular.

Mən "doldurdular" deyirəm. Çünki tryumun qapısı olduqca balaca idi. Tryum yarıya qədər duz ilə doldurulmuşdu. Burada dustaqları bir-bir tryuma itələyir, bununla da öz vəzifələrini bitmiş hesab edirdilər.

Bizi gəmiyə mindirdikləri zaman göyərtədə yaşlı bir dənizçi durmuşdu. O, əsgərlərin qoca və xəstə məhbusları təpikləyərək tryuma itələdiyini gördükdə üzünü yana çevirdi, ah çəkib, cib dəsmalını çıxardı, tələsik uzaqlaşdı. Mənə elə gəldi ki, o, gözlərini silir. Son il yarımda mən birinci dəfə idi ki, bizim halımıza acıyan, rəhmi gələn insana rast gəlirdim.

"Feliks" gəmisinin tryumu olduqca böyük idi. Burada duzun üstündə iki mindən artıq dustaq yerləşdirilmişdi. Tryumda işıq yandırılmırdı. Yalnız gəminin illuminatorlarından düşən işıq içərini azca işıqlandırırdı. Bura o qədər basabas idi ki, adamlar demək olar ki, bir-birinin qucağında oturmuşdu. Belə vəziyyətdə gəmi Maqadana sarı yola düşdü.

Mən ömrümdə heç bir zaman gəmiyə minməmişdim. Buradakıların çoxu da birinci dəfə idi ki, dənizə çıxırdı. Gəmi bizi yırğalayır, üzüb taqətdən salırdı.

Üçüncü gün dənizdə fırtına başlandı. Adətən sakit olan Oxot dənizi bu gün deyəsən əsəbiləşmiş, özündən çıxmışdı. Nəhəng dalğalar gəminin üstünə tökülür, az qala onu yuyub dənizin dibinə aparmaq istəyirdi. Biz gəminin alt tərəfində olduğumuz üçün bir çox halda havanı görə bilmirdik. Dalğalar gəmini öz qoynuna aldığına görə çox vaxt bizə elə gəlirdi ki, artıq batırıq.

Vəziyyəti belə görən gəmi heyəti lövbər salıb dayanmağı qərara aldı. Buna baxmayaraq dalğalar nəhəng gəmini bir qayıq kimi atıb-tutur, gah bu, gah o tərəfə əyirdi.

Tryumdakıların vəziyyəti olduqca acınacaqlı idi. Onların demək olar ki, əksəriyyəti ürək bulanması və qusmaqdan halsız olub, yoldaşlarının üstünə yıxılmışdı. İçərini pis qoxu bürümüş, hər tərəfdən ögümə, zarıltı və ah-uf səsləri gəlirdi.

Adətən bütün insanlar çətinliyə düşən vaxtı Allahı xatırladıqları kimi, burada da tez-tez yada salırdılar, doğrudur, hamı yox. Burada müxtəlif dinlərdən, bu dinlərin müxtəlif təriqətlərindən, müxtəlif millətlərdən olan adamlar ibadət edir, Allaha yalvarır, özlərinin bu bəladan xilas olmaqlarını xahiş edirdilər.

Mən bir küncdə qısılıb oturmuşdum. Bu zaman kiminsə əli kürəyimə toxundu. Çevrilib baxdıqda yəhudini gördüm. O, hətta belə vəziyyətdə də zarafatla dedi:

– Bilirsinizmi, mən bu mənzərəyə baxdıqca yadıma nə düşür? Qiyamət günü! Axı ruhanilər deyirlər ki, o dünyada hərə öz dilində və dinində yalvaracaqdır. Bax indi bu saat burada qiyamətdir və bunlar da Allaha yalvarırlar. Ancaq Allah "rəhimlidir", bizə heç bir şey olmayacaq.

Belorusiyalı keşiş Milovanoviç yəhudinin bu amansız kinayəsini eşitcək ilan vurmuş kimi yerindən sıçradı:

– Lənətə gəlmiş cuhud! Heç olmasa belə bir gündə sus, Allahla işin olmasın.

Yəhudi keşişin bərk hirsləndiyini gördüsə də, yenə zarafatından əl çəkmədi:

– Bizi bu bəlaya salan elə Allah özü deyilmi? Daha ona nə yalvaraq?

Keşiş hirslə üzünü yəhudidən çevirib:

– Məlum İuda! – deyə acıqla tüpürdü.

Beləliklə, axşam oldu. Gecə saat ona yaxın dəniz nisbətən sakitləşdi və gəmi yola düşdü.

Doqquzuncu gün səhər vaxtı artıq Maqadana yetişdik. Bura dəniz sahilindəki alçaq dağın sinəsində yerləşmiş yeni şəhərdir. Bizi gəmidən düşürüb böyük biz mühafizə dəstəsinin müşayiətilə sahilə gətirdilər. Burda da mühafizəçilərin sayı ikiqat artırıldı. Mən yəhudidən bunun səbəbini soruşduqda o dedi:

– Bilirsinizmi, bura yeni şəhərdir. Əhalinin çoxu dəfələrlə həbsxanaya düşənlər, sürgün edilənlər və başqalarıdır. Bu saat bizi bu qaraul dəstəsinin əlindən almaq şəhər əhalisi üçün su içmək kimi bir şeydir. MVD orqanları bunu bildiklərinə görə nəzarəti bu qədər gücləndirirlər.

Professor İvanov sözə qarışdı:

– Nahaq yerə ehtiyat edirlər, çünki maqadanlılar yalnız oğru-əyriyə rəğbət bəsləyirlər. Bizim kimiləri isə görəsi gözləri yoxdur.

Yəhudi gülümsündü:

– Stalin onlara da təsir edə bilmişdir. Bizdən kimin xoşu gəlir ki, onların xoşu gəlsin?

Bizi şəhərin şimal-şərqindəki köçürmə həbsxanasına gətirib olduqca böyük kameralara yerləşdirdilər.

Burada məlum oldu ki, bizdən 5 gün əvvəl gətirilmiş məhbuslar da müvəqqəti olaraq Maqadan yaxınlığındkı həbs

düşərgəsində saxlanılır. Deyilənlərə görə onları da bizə qoşub hamımızı birlikdə şimala – Kolumaya aparacaqlar.

İki gündən sonra bizi kameralardan çıxardılar. Hər bir "növü" (yəni eyni bir maddə üzrə həbs edilmiş şəxs) ayrıca dəstələrə ayırdılar. Biz "faşistlər" də ayrı bir dəstə idik. Dəstəmizdə 500-ə qədər məhbus var idi. Yoldaşlarımızın əksəriyyəti 40 yaşından yuxarı şəxslər idi. Tək-tək 30-35 yaşlılar var idi. Bunların hamısı uzun müddət MVD zirzəmilərində əzab çəkmiş adamlar idi. Zəif, arıq, saç-saqqal basmış, cansız kişilər. Bəzi yoldaşlar ciddi xəstə idi; lakin burada müalicə olunmaq qeyri-mümkün bir şey idi. Müalicə edən həkim və ya feldşer (istər məhbus olsun, istərsə də azad adam) "58" maddəsini eşidən kimi deyirdi:

– Bütün dünyada faşistlərin kökünü kəsməyə çalışırlar. Sən hələ sağ olduğuna şükür etmirsən?

Bütün bunlardan başqa yoldaşlarımın demək olar ki, hamısının xeyli avadanlığı vardı (yüngül yatacaq, yemək paltar və s). Hətta, bakılı mühəndis Məmmədov Cəbrayılın (özü də axasayırdı) iki bağlaması və bir çamadanı var idi. Mənim yüküm lap yüngül olduğuna görə dərdim də yüngül idi, çünki hələ adlarımızı yoxlayan zabit bir özümüzə, bir də avadanlığımıza baxıb başını bulamış:

– Bu cır-cındırlarla siz o yerlərə çətin gedib çıxa bilərsiniz, – demişdi.

Həbsxanada hər bir cındırın belə müəyyən qiyməti olduğu üçün, əlbəttə, heç kəs öz avadanlığını qoyub getmədi.

Sentyabr ayının 4-də bizi güclü qaraul altında şəhərdən çıxardılar. Şəhərin kənarında biz başqa doqquz dəstə dustağın hazır vəziyyətdə durmuş olduğunu gördük.

10 dəstədə təxminən 5000 adam var idi. Birinci dəstədə adam öldürənlər, ikinci dəstədə böyük məbləğdə dövlət pulunu mənimsəyənlər, üçüncü "faşistlər", yəni siyasi məhbuslar, altıncı dəstədə quldurluq edənlər, yeddinci dəstədə böyük oğur-

luq edənlər, səkkizinci dəstədə qəlp pul kəsənlər və saxta sənəd düzəldənlər, 9-cu dəstədə həbsdən qaçanlar, onuncu dəstədə siyasi məhbus olan qadınlar gedirdi.

Bu adamaların hamısının cəza müddəti 10 ildən 25 ilə kimi idi. Bizim dəstədəkilərdən başqa, qalan adamların böyük əksəriyyəti 20-30 yaşlı gənclərdən ibarət idi. Bu gənclər möhkəm bədənli, sağlam və cəld idilər. Həm də bunların çoxunun avadanlığı yox idi.

Gündüz saat 10 radələrində Maqadan şəhərini arxada buraxıb qarşıdakı dağlara doğru hərəkət etməyə başladıq. Qaraul rəisi hər bir dəstənin yanında bir qədər dayandıqdan sonra qayda-qanunları izah etməyə başladı:

– Gündə 50-60 kilometr yol gedəsiyik. Yollarda demək olar ki, heç bir düşərgə və ya daldanacaq yeri yoxdur. Biz çöldə gecələməli olacağıq. Bu əlbəttə, sizin üçün çətin olacaq. Lakin mənzil başına gedib çatmaq sizin özünüzdən asılıdır. Dəstələrdən geri qalmaq və ya qaçmağa kiçik bir təşəbbüs göstərmək yerindəcə güllələnmək ilə cəzalandırılır.

Dəstələr sürətlə irəliyə doğru yürüyürdü. Hər iki saatdan bir 10 dəqiqəlik dinclik verəndən sonra bizi yenidən şimala doğru qovurdular. Axşama yaxın, irəlidə bir həbs düşərgəsi göründü. Burada 4-cü dəstədəki məhbusları təhvil verib sürətlə düşərgədən uzaqlaşdıq. Rəislərin fikrinə görə düşərgə yaxınlığında gecələmək təhlükəli olarmış. Gecədən bir qədər keçmiş bizi meşənin kənarında əylədilər. Hər dəstədə bir neçə tonqal qalandı və biz tonqalların qırağında bir-birimizə qısılıb yatdıq.

Günlər bir-birinin ardınca gəlib keçirdi. Artıq cəmisi 4 dəstə qalmışdı: 1-ci, 6-cı, 10-cu və biz. Daha doğrusu, adam öldürənlər, quldurluq edənlər, məhbus qadınlar və siyasi dustaqlar.

Şimala doğru irəllilədikcə hava daha da soyuqlaşır, gecələr isə xüsusilə dözülməz olurdu. Biz yorğandan basqa demək olar ki, bütün avadanlığımızı yollarda atıb getmişdik.

Əvvəllər gündə 50-60 km gedirdiksə indi 30-35 km-i güclə qət edirdik. Dəstələrdən, xüsusilə bizim dəstədən yorulanlar və xəstələnənlər var idi. Lakin geriyə qalmağın güllələnmə ilə nəticələnəcəyini bilirdik. Çünki hələ dünən Saveli Lazarev adlı bir yodaşımız sancılandığı üçün qəflətən qarın içərisinə yıxılmış və nəzarətçilər tərəfindən yerindəcə güllələnmişdi. Odur ki, artıq heç kim yorulduğunu və xəstələndiyini biruzə vermir, imkanı olmadıqda isə yoldaşlarının köməyilə irəliyə doğru hərəkət edirdi.

Biz, bütün bu əzabları, haqsızlıqları görən insanlar bu zalımlara qarşı heç bir şey edə bilmirdik. Nəinki günahsız olaraq güllələnən yoldaşlarımızı, hətta özümüzü belə müdafiə edə bilmir, ehtiraz səsimizi ucalda bilmirdik. Dünyada insan üçün ağır olan şeylərdən birisi də onun alçalmasıdır. Biz nə qədər vüqarlı olsaq da silah qarşısında alçalır, öz hüququmuzu müdafiə edə bilmirdik. Doğurdan da, görəsən həyat nə üçün belə qurulub? Bəziləri əmr etməli, bəziləri isə tabe olmalıdırlar. Bəziləri istədiyini etməli, bəziləri isə dinməzcə itaət etməlidirlər.

Daha iki gün keçdi. İndi bizim dəstəmiz təkcə qalmışdı. Biz əbədi buzlar ölkəsinin içərisinə – Kolıma çayının mənsəbinə doğru irəllilməkdə davam edirdik. Fəqət gecələr yatmağımız mümkün olmurdu. Çünki yer qar, üst də qar idi. Hətta nəzarətçilər özləri də bərk yorulmuşdular. Bizi birtəhər mənzil başına çatdırıb, tez geri qayıtmaq arzusunda idilər. Biz isə gündən-günə deyil, saatdan-saata, dəqiqədən-dəqiqəyə zəifləyir və daha yavaş gedirdik.

***

Elə bu vaxt Kobılyatski qəflətən çox ağır şəkildə xəstələndi. Bütün yoldaşlar, hətta keşiş Milovanoviç də onun qayğısına qalır, qoltuğuna girib irəli aparırdı.

Axşamüstü Kobılyatski daha yeriyə bilmədi. Özü razı olmasa da biz onu növbə ilə dalımıza götürür, geridə qalmasına yol vermirdik. Çünki bunun nə ilə nəticələnəcəyini bilirdik.

Lakin biz özümüz də güclə hərəkət edirdik. Kobılyatskini dalımıza aldığımıza görə bir qədər də yavaş yeriməyə başladıq. Bu, nəzarətçilərin gözündən yayınmadı. Onlar dəstəni saxladılar. Bütün yalvarış və təhdidlərimizə baxayaraq, Kobılyatskini əlimizdən aldılar.

Yəhudi, Savelyev, Quruşeitski və mən onların üstünə atıldıq, biz yoldaşlarımızı bəri, nəzarətçilər o yana dartırdılar. Başımızın üstündən bir neçə güllə atıldısa da, buna əhəmiyyət vermədik.

Savelyev dedi:

–Vətəndaş nəzarətçilər, bu adamın xəstəliyi kor bağırsağının tutmasıdır, tezliklə sovuşub gedəcək. Onsuz da duracağa az qalıb, qoyun dalımızda aparaq.

– Axı bunun sizə nə ziyanı? – deyə mən yumşaqlıqla soruşdum.

Nəzarətçi cavab əvəzinə əlindəki rezin şallağı iki-üç dəfə başıma endirib, məni dəstənin içərisinə itələdi.

Yoldaşlarımı da döyə-döyə dəstəyə qoşdular və bizi irəliyə qovdular.

Kobılyatski qarın içində qaldı.

Heç 1 km aralanmamışdı ki, arxadan güllə səsi eşidildi. Hamı papağını çıxartdı; bizim əziz yoldaşımız belə həlak oldu.

***

– Ey, faşist! Zirək tərpənsənə!

– Tez olun, heyvanlar, sizdən ötəri bu soyuqda çoxmu qalacağıq?

– Hey, qoca köpək, bir az zirək tərpənsənə!

10-15 nəfər əli tüfəngli nəzarətçinin və bir sürü avçarka itlərinin qabağına qataraq apardığı çoxlu dustaqların hərəkət etdiyi yolda yalnız bu sözlər eşidilirdi.

Hava olduqca soyuq idi, $40^0$-lik bu şaxtada özlərini duracağa daha tez yetirmək üçün nəzarətçilər bu məzlum insanları tələsdirir, söyür və təhqir edirdilər.

Məhbuslar içərisində qocalar və xəstələr də var idi. Əgər biz bu adamlara arxasındakı şələsi çox ağır olan bir-iki nəfəri də əlavə etsək, dəstənin çox yavaş yeriməli olduğunu görərik.

Dəstə doğurdan da çox yavaş hərəkət edirdi. Həm yorğunluq, həm aclıq, həm də ruhi düşkünlük tez-tez yeriməyə imkan vermirdi. Nəzarətçilər bu ağır tərpənmədən hiddətlənir, əllərindəki rezin qamçılarla geri qalanların kürəyini ölçür, insanı didməyə hazır olan afçarkaları məhbusların üzərinə qısqırdırdılar.

Birdən şimal təbiətinə uyuşmayan sərt bir külək qopdu. Nəzarətçilər üç mərtəbəli ana söyüşləri söyərək daha artıq tələsməyə başladılar. Külək vıyıldayaraq qarı insanların üzərinə çırpır, qabağa çıxan qar topaları adamların tez-tez yerə yıxılmalarına səbəb olurdu. Tezliklə yüklülər öz yüklərini atmalı, zəiflərə və qocalara kömək etməli oldular.

Gecə düşürdü. Duracağa çatmaq ümidindən əl çəkən nəzarətçilər dəstəni gecələmək üçün çölün ortasında saxlamağa məcbur oldular. Əldən düşmüş, yorulmuş insanlar bu dayanmağı özləri üçün xoşbəxtlik hesab etdilər. Hamı yorğunluğunu çıxarmaq üçün qalın qarın üstündə oturdu. Lakin tezliklə məlum oldu ki, ayağa durub hərəkət etməsələr, bu tufanda donub məhv olacaqlar. Nəzarətçilər öz xizəklərinin üstündə dəstənin başına fırlanıb və nisbətən özlərini gümrah hiss edirdilər. Məhbusların isə aclıq və yorğunluqdan ayağa durmağa taqətləri yox idi. Onlar artıq 23 gün idi ki, belə şəraitdə şimala doğru irəliləyirdilər. Lakin indi, donub öləcəklərini hiss etdikləri bir anda, sanki onlara pəhləvan qüvvəsi verildi. Həyat eşqi bu adamları ayağa durmağa məcbur etdi. Onlar bir-birindən tutub göz-gözü görməyən zülmət içərisində kiçik bir sahədə dövrə vurmağa başladılar.

Yorğunluqdan dizlər bükülür, aclıqdan mədə ağrıyır, yuxusuzluqdan başlar partlamaq dərəcəsinə gəlirdi. Lakin çöllükdə donmamaq, məhbusluqda ölməmək üçün bu məzlum insanlar sabaha qədər tufanın qabağında qarın üstündə təpik döyməli oldular. Ara-sıra yıxılanları zorla ayağa qaldırıb yanlarınca sürüyür, ölmək vacib olan bu adamları ölməyə qoymurdular.

Keşiş Milovanoviç məndən 2 adam irəlidə idi. Birdən dəstədən üzülüb qarın içərisinə yıxıldı. Ətəyindən tutduğum Qorbatovski bunu görcək ayaq saxladı. Cəld keşişin yanında yerə çöməlib:

– Sizə nə oldu, atacan, – dedi, – niyə yıxıldınız?

Keşiş üzgün bir halda:

– Ölürəm, daha yeriməyə taqətim yoxdur, – dedi.

Qorbatovski onu yerdən qaldırmaq istədikdə keşiş hirsləndi:

– Ay Allahın bəndəsi, – dedi, – məndən əl çəksənə. Ölməyə də qoymayacaqsan?

– Yox, – deyə Qorbatovski inamla səsləndi və Milovanoviçi ayağa durquzub özü ilə mənim aramda yeriməyə məcbur etdi. Keşiş bir-iki addım atdıqdan sonra özünü təkrar yerə vurdu. Bu dəfə Qorbatovski onu ayağa qaldırıb, üzünə iki sərt sillə vurdu və:

– Əgər yeriməsəniz, sizi döyə-döyə öldürəcəyəm, – dedi.

Milovanoviçi zorla özümüzlə sürüməyə, yeritməyə başladıq. Ölüm az qala ağzını açaraq yüzlərlə qadının və uşağın intizarla gözləməkdə olduğu bu adamları məhv etməyə çalışır, lakin buna nail ola bilmirdi.

Yavaş-yavaş səhər açılır, dan yerinə səda düşürdü. Fırlanmaqda olan bu dəstənin irəlisində gedən Qorbatovski sabahın alatoranlığında fırlandıqları sahənin ortasında 3-4 qaraltı gördü. İldırım vurmuşlar kimi dəstədən ayrılıb qaraltı-

lara yanaşdı. Bunlar gecə vaxtı taqətsizlikdən yoldaşlarından üzülüb, qar içərisinə yıxılanların cəsədi idi.

Məhbuslar Qorbatovskinin ardınca cəsədlərə yanaşdılar, bəziləri onları ovmaq, süni nəfəs vermək niyyətinə düşsə də, professor Savelyev irəli yeriyib qısa müddətli müayinədən sonra ayağa qalxdı və:

– Onları narahat etməyin, – dedi.

Havanın hədsiz soyuq olmasına baxmayaraq, hamı bir nəfər kimi papağını çıxartdı.

Müsəlmanlar yoldaşlarına baxaraq papaq çıxartdılarsa da, ürəklərində öz adətlərincə nəsə pıçıldadılar. Hətta qoca Əsəd kişi tələsik bir "Fatihə" surəsi də oxudu. Bu cəsədlərin önündə müxtəlif dinlərə və təriqətlərə mənsub olan bir neçə ruhani var idi. Lakin onların hamısı vaxtsız ölən yoldaşlarını əfv etmək üçün Allaha yalvarırdılar.

Siz ey insanlar! Məgər burada da sizi çətin gündə ölümün ağzına verən Allaha sitayiş etməkmi lazım idi?

***

24-cü gün biz nəhayət ki, lazım olan yerə gəlib çıxdıq. Mən gəlib çıxdıq deyirəm. Lakin axrıncı km-ləri biz demək olar ki, addımlamır, sürünürdük. Həyat eşqi çox qüvvətli olurmuş. Mən vaxtilə Cek Londonun əsərlərini oxuyan zaman insanın həyat uğrunda bu qədər böyük əziyyətlərə dözə biləcəklərinə inanmırdım. Amma bunu görəndə, öz bədənimdə hiss edəndən sonra başa düşdüm ki, Cek London insanı həyat eşqinə aid tam həqiqət deyil, onun yalnız kiçik bir hissəsini təsvir etmişdir.

Bizi qapı ağzında çox saxlamadılar. Tələm-tələsik yoxlayıb yeməkxanaya apardılar. Burada daxili nəzarət dəstəsinin rəisi məhbuslara müraciət edib:

– İndi onları özünüz yerbəyer edin, – dedi, – bu gecə vaxtı düşərgə rəisini narahat etməyə dəyməz.

Dustaqlar köməkləşib bizi baraklara çəkdilər və öz imkanları daxilində rahatladılar.

## BEŞİNCİ MƏKTUB

Əzizim!

Bəziləri sənədlərə əsasən sübut edə bilərlər ki, bizdə heç bir zaman katorqa olmamışdır. Mən mübahisə etmək istəmirəm. Lakin Qorki vilayəti ilə Kostroma vilayətinin meşələrində yerləşən Unja və Vetluqa, Komi MSSR, xüsusilə Sibir və Kolima həbs düşərgələrində saxlanılan siyasi məhbusların vəziyyətini qısaca da olsa danışmaq istəyirəm. Bundan sonra kimin haqlı, kimin haqsız olduğu bəlli olar.

Biz səhər saat 4-də verilən "qalx" işarəsilə ayağa durub basa-basla suşilkadan (paltar qurudulan yer) gətrilmiş qıcqırmış iy verən paltar və keçə ayaqqabılarımızı geyir, qonşu otaqda yerləşən əlüzyuyanda yuyunur, tələsik sıraya düzülür, yeməkxanaya gedirdik.

Yeməkxana təqribən, 500 adam otura bilən böyük bir zaldan ibarət idi. (Buradan eyni zamanda, iclaslar, qlavə yığıncaqları üçün də istifadə edilirdi.)

Heç vaxt qızdırılmayan bu zalda titrəyə-titrəyə oturub yeməyin verilməsini gözləyirdik.

Yeməklərin təkcə adı (hələ dadı o yana dursun) adamın iştahasını küsdürürdü: **"Balıq supu"** darı, perlovka və ya seçkadan bişirilmiş yağsız, bozbulanıq bir mayenin içərisinə tökülmüş, qoxuverən balıq sümüklərindən ibarət idi. Bu supu yeyə bilmirdilər. Əslinə baxsan, ağzına batır, boğazına ilişirdi. Hər halda ac mədəni doldurmaq üçün biz bu supdan istifadə edirdik. Bundan ötəri hər 2-3 adama bir parça kətan götürür, onu boşqabın üstünə salır və supu kətandan keçirib yeyirdik.

Təsədüfi hallarda “qaluşki” və “noxud supu” da verilirdi. “Qaluşki” qaynanmış suyun içərisinə tökülmüş fındıq boyda xəmir parçalarına deyilir. “Noxud supu” nun isə içində noxudu ancaq axmaqlar axtara bilərdilər, çünki bu, deyilənlərə görə yaşıl noxudun əzilməsi imiş. Müxtəsər desək, yaşıl rəngli qatı bir su.

İkinci yemək sıyıq olurdu. Ruslar buna “kaşa ni s çem” (heç nəsiz sıyıq) deyirdilər. Bu sıyıqlar suda bişirilmiş və büsbütün yağsız verilən darı, seçka, perlovka, vələmir, arpa və qaraca yarmasından ibarət olurdu. Həm də bunları gah həddən ziyadə şit, gah da qədərindən şor edirdilər.

Bundan sonra hər adama 3 kilkə balığı verilirdi. Qarnımıza bir şey getsin deyə, biz onları bütöv-bütöv ağzımıza atıb yeyirdik. Çörəyi ən axırda verirdilər ki, özümüzlə işə götürək. 200 qram palçıq kimi qara çörək bizim səhər və günorta normamız idi.

Yeməkxanadan birbaşa darvazaya tərəf gedirdik. Orada bizi sayıb iş yerinə aparan qaravolçulara təhvil verirdilər. Biz iki-iki əl-ələ tutub getməli idik. Belə olduqda guya bizi saymaq asan olurmuş. Hər 2 biriqadanı bir qrup gözətçi aparırdı. Gözətçilərin 2-si irəlidə, 2-si arxada, 2-si sağda və 2-si solda gedirdi. Qabaqda gedən gözətçilər əllərindəki nazik uzun kəndirin ucunu daldakı gözətçilərə verirdilər. Beləliklə, biz kəndirlərin arasında gedirdik. Kəndirlərə zəncirli ovçarka itləri buraxılırdı ki, kənara tərpənən olmasın.

Təxminən, 5-6 km yol getdikdən sonra dincəlməyə dayanırdıq. Lakin ayaq üstə durmağa icazə verilmədiyindən biz ya çönbəltmə oturmalı, ya da qalın qarın üstündə uzanmalı idik. 5 dəqiqəlik dincəldikdən sonra (perekur – papiros çəkmək üçün vaxt) yola düşürdük.

Təxminən, saat 6-da, 7-yə bir qədər işləmiş gəlib iş zonasına çatırdıq. Burada bizi sayıb zona keşikçilərinə təhvil verirdilər. Buradan gedib alətləri götürənə və iş yerinə çatana kimi

saat 7 olurdu. İş zonasının keşikçiləri zəngləri çalırdılar. İş başlanırdı.

Biz meşədə bütün işləri əl ilə görürdük: iri, əsrlik ağacları mişarlayır, qol-budağını qırır, lazım olan ölçülərdə doğrayır, at arabası ilə **"Lesobirja"** deyilən sahələrə daşıyıb yığırdıq. Bu iş nəinki ömründə əlinə balta və mişar götürməyən, ağır iş görməyən, ac, zəif və üzgün məhbuslar üçün, hətta peşəkar meşəqıranlar üçün də çox ağır iş idi.

Bəla burasındadır ki, biz oturub dincimizi də ala bilmirdik. Doğrudur, bizi heç kim işləməyə məcbur etmirdi. Lakin, əvvələn 35-40 dərəcə şaxtada işləməyib oturmaq – donub ölmək demək idi. Buna görə də biz dayanmadan işləməli olurduq. İkincisi də biriqada planı doldurmasa idi, müxtəlif cərimələrə məruz qalırdı – çörək normasının azaldılması (guya ki, çox imiş), 1-ci və 2-ci yeməyin verilməməsi, çinmək vaxtının gecikdirilməsi, evə məktub yazmaqdan məhrum olunma və s. Bu sonuncu cərimə ən pisi idi, çünki bizə hər iki ayda bir məktub yazmağa icazə verilirdi. Bundan da məhrum olmaq – dünyadan əl çəkmək demək idi. Məhz bu məktub məsələsi bizi var qüvvəmizlə işləməyə məcbur edirdi.

Gündüz saat 1-də nahar tənəffüsünü bildirən zənglər çalınırdı. Biz böyük tonqallar qalayır və donub buza dönmüş çörəyi qızdırıb yeyirdik. Soyuqdan oturmaq mümkün olmurdu: od üzümüzü qarsır, paltarlarımızı ütürdüsə də, kürəyimiz soyuqdan qovuşurdu. Belə olduqda biz bir-birindən aralı 2 tonqal qalayır və aralıqda otururduq. Qarı bir hisli vedrəyə doldurub odun üstündən asır, əridib çay yerinə içirdik. Burada heç bir qab olmadığı üçün çayı elə vedrədəncə başımıza çəkirdik. Şimalın güclü şaxtasında çayın (çaysız) soyuması üçün 1-2 dəqiqə vaxt lazımdır.

Hiss olunmadan tənəffüs qurtarır və biz yenidən işə başlayırdıq.

Axşam saat 7-də iş qurtarırdı. Bizi təzədən sayıb qarovullara verirdilər. Biz düşərgəyə tərəf həvəslə irəliləyirdik, lakin yorğunluq və aclıq öz qüvvəsini bildirdiyindən o qədər də sürətlə gedə bilmirdik. Səhər 1 saat 30 dəqiqəyə-2 saata gəldiyimiz yolu qayıdarkən 2 saat 30 dəqiqəyə-3 saata qət edirdik.

Bu zaman göz-gözü görmürdü, biz tez-tez qalın qarın içərisinə yıxılırdıq. Axşamın şaxtası üzümüzü yandırır, ağız və burnumuzdan çıxan hava bığ və saqqallarımızda donaraq salxım-salxım buza çevrilirdi.

Təxminən, saat 10-da düşərgəyə çatırdıq. Yenə də sayılır və baraklara doluşurduq. Tələsik alt paltarına qədər soyunub "ev paltarlarını" geyir və yeməkxanaya tərəf yüyürük.

Axşam yeməyi sup, sıyıq və 100 qram çörəkdən ibarət olurdu. Yorğunluq və yuxusuzluqdan biz bu yeməyi güclə çeynəyirdik. Yeməyin verilib qurtarılması adətən gecə saat 11-ə, bəzən isə lap 12-yə çəkirdi. Bundan sonra biz baraka qayıdır, ölü kimi düşüb qalırdıq.

Otaq xidmətçisi olan məhbus (dnevalnıy) bizim yaş paltar və keçə ayaqqabılarımızı dalına şələyib suşilkaya aparır və səhər saat 4-ə bir az qalmış qalmış qaytarıb gətirirdi.

Biz sutkada cəmisi 4-5 saat yatırdıq. Özü də o cür aclığın və ağır zəhmətin müqabilində.

Məhz buna görə də məhbusların əksəriyyəti o dərəcədə üzgün idi ki, onlara "doxodyaka" (zəiflikdən ölüm ayağına gəlib çatmış adam) deyirdilər.

Məhbusların acınacaqlı vəziyyəti xüsusilə hamamda daha aydın görünürdü... buğun içərisində yançaqlarında və budlarında belə ət qalmamış, sümükləri dikəlmiş, gözləri çuxura düşmüş, saç-saqqal basmış, zəiflikdən güclə tərpənən insanlar...

Bir neçə kəlmə düşərgənin sanitariya vəziyyətindən danışmaq istəyirəm… Bizi ayda iki dəfə çimdirirdilər. Alt

paltarları çox çirkli və yamaqlı olur, hər 2-3 adama bir əl-üz dəsmalı verirdilər.

Otaqların divarlarına ikiqat nara (taxt) vurulmuşdu və biz onların üstündə yan-yana yatırdıq. Bizə, içərisinə vaxtilə küləş doldurulmuş döşək və balış vermişdilər. Lakin uzun illər istifadə olunduğu üçün bunların içərisindəki küləş əzilib un kimi olmuş və artıq heç bir şeyə yaramırdı. Buralarda küləş, dəniz otu və s. tapılmadığından biz bu daş kimi yataqdan istifadə etməli olduq. Üstümüzə köhnə, cırıq, çirkli adyal örtür, bir-birimizə qısılıb yatırdıq. Baraklarda daima peç yandırıldığı üçün çox da soyuq olmurdu.

Mədəni-məişət məsələsi lap bərbad idi. Düşərgənin leksikonunda radio, kitab, qəzet, dəftər, qələm və s. kimi sözlər yox idi.

Düşərgədə istər böyük, istərsə də kiçik vəzifəli şəxslər bizi "faşist" deyə çağırır, yerli-yersiz söyür, təhqir edir və hətta döyürdülər. Bu sahədə qeyri-rus xalqlardan olan məhbusların vəziyyəti daha pis idi. Onları "çuşmek", "yoldaşi", "salyonnıy" və s. təhqiramiz, hətta biyabırçı adlarla çağırırdılar.

Düşərgədə "sançast" adlanan, iki otaqdan ibarət bir tibb məntəqəsi var idi. Lakin burada həkimdən və dərmandan başqa nə desəniz tapmaq olardı.

Doğrudur, məhbusların içərisində nəinki çoxlu təcrübəli həkim, hətta tibb elmləri namizədi və doktoru olan adamlar da var idi. Fəqət onların heç birisi bu "tibb məntəqəsində" işləmək istəmirdi. Bir dəfə bunun səbəbini professor Savelyevdən soruşduqda o dedi:

– Bilirsinizmi, həkimlik sənəti yalnız insanın səhhətini qorumaq üçündür. İnsanın səhhətini qorumayan həkim həkim deyil. Bu tibb məntəqəsində xüsusi qaydalar var: hər gün cəmisi 25 adamı işdən azad etmək, ancaq 10 adamı palatada yatırtmaq olar – normadan kənara çıxmaq olmaz. Yaxşı, bəs xəstə 25 deyil, artıq olsa necə etməli? Xəstə ola-ola işəmi

göndərməli? Qanuna görə bəli! Lakin vicdanı olan həkim belə "qanunlara" baxa bilərmi? Əlbəttə, yox! Odur ki, əzizim, "tibb məntəqəsində" işləyib vicdanımızı ləkələməkdənsə, meşədə işləyib təmiz vicdanla gəzirik.

Mən etiraz etdim:

– Axı indi orada tibb elmindən başı çıxmayan adamlar işləyir. Siz buna necə baxırsınız? – dedim.

Professor azacıq gülümsünüb:

– Qardaş, – dedi, - biz meşədə də, zonada da öz yoldaşlarımıza tibbi yardım göstərməyə hazırıq. Onsuz da köməyimiz müayinə və məsləhətdən ibarət olur. Dərman isə nə məntəqədə var, nə də bizdə. Yox, qardaş, mən həkim ola-ola xəstə adamı meşəyə göndərə bilmərəm, hər cür xəstəni yalnız kinə, aspirin və bromla müalicə edə bilmərəm. Bəzən elə olur ki, məhbus gecə xəstələnir. Səhər onu karserə salırlar. Onu karserdən çıxartmağa ixtiyarım yoxdursa, mən nə həkimiyəm? Yox, yaxşısı budur ki, nə gözüm görsün, nə könlüm bulansın.

Həbs düşərgəsində bizim şikayət ərizələri vermək hüququmuz da yox idi. Qoca Əsəd kişinin dediyi kimi "bizə nə Allah allahlıq etmirdi, nə bəndəsi bəndəlik".

Günlər gəlib keçirdi.

Biz yavaş-yavaş bir-birimizə isinişir, çətinliklə olsa da, vəziyyətə alışırdıq. Qışda havanın temperaturu – 40-dan yuxarı olduqda, adətən, bizi işə aparmırdılar. Bu zaman biz beş-beş, on-on toplaşır, bir-birimizin dərdini soruşur, müxtəlif mövzularda söhbət edirdik. Zaman keçdikcə az savadlı və savadsızlar savadlılardan elm öyrənməyə, ziyalılar elmi mübahisələr etməyə başladılar. Ayrı-ayrı baraklarda müxtəlif əcnəbi dilləri öyrənən "dərnəklər" ədəbiyyat, tarix, coğrafiya, siyasət, incəsənət və s. "düşərgələri" əmələ gəldi. Bu "dərnəklərdə" məhbuslar müəyyən bir dili mükəmməl şəxslərin rəhbərliyi ilə öyrənir, elmin ayrı-ayrı sahələrilə maraqlananlar ayrı-ayrı

yüksək savadlı şəxslərin yanına toplaşıb öyrənir və mübahisə edirdilər.

Mən, təbii ki, ədəbiyyat həvəskarları ilə bir küncə çəkilirdim. Burada biz Qərb və Şərqin görkəmli yazıçılarının əsərlərini təhlil edir, ədəbi janr, üslub, forma və s. haqqında danışırdıq. Bu qrupda müxtəlif millətlərdən olan 10-a qədər şair, nasir və ədəbiyyat həvəskarı var idi. Biz bir-birimizlə rus dilində danışırdıq. Başqa cür mümkün də deyildi. Çünki biz bir-birimizin dilini bilmirdik. Rus dili bizim üçün bir vasitəçi, köməkçi olmuşdu. Mən Bakıda olanda rus dilini yaxşı bilmirdim. İndi isə əməlli-başlı öyrənmişəm. Bu dilin köməyilə nə qədər yeni şey öyrənmiş, nə qədər yeni insanlarla tanış olmuşam...

## ALTINCI MƏKTUB

Sevimli dostum!

Bu vaxta qədər sənə yazdığım məktublarda mən 1937-ci ildən ta ki, müharibə başlanana qədər başıma gələn qəziyyələri yazmışam, indi bu məktubumda müharibə başlanandan bu vaxta kimi günümün necə keçdiyini danışmaq istəyirəm.

Müharibənin başlanması xəbərini mən Yakutstanın şimalındakı həbs düşərgələrində olarkən eşitdim. Biz, siyasi dustaqlar, bu xəbəri ağır bir faciə kimi qəbul etdik. Demək olar ki, hamımız bir nəfər kimi ərizə yazıb könüllü olaraq vətənimizi müdafiə etmək istədiyimizi bildirdik. Təəssüf ki, bizə nəinki rədd cavabı verildi, bizi vətəndaş saymadıqları kimi, vətəni müdafiə edə biləcək bir insan da hesab etmədilər.

Ətraf düşərgələrdən isə adi cinayətlər üstündə həbs olunmuş məhbusları təcili olaraq cəbhəyə göndərilmək şərtilə azad edirdilər.

Qəribədir... oğru, quldur, qatil və s. vətəni müdafiəyə layiq sayıldığı halda biz layiq olmadıq.

Müharibənin ilk həftələrindən başlayaraq, bizi daha güclü mühafizə dəstəsi qoruyurdu. Nəzarətçilərin rəftarı son dərəcə dözülməz, yeməyimiz isə getdikcə pis olurdu. Əvvəllər gündə 10 saat işlədiyimiz halda, indi 11-12 saat, bəzən daha artıq işləyirdik. Müharibənin gedişi haqqında heç bir şey bilmirdik.

İllər gəlib keçdi. Bu vaxt ərzində mən Komi MSSR, Ural və Cənubi Sibirin həbs düşərgələrində oldum. Bu yerlərdə mən hərdənbir bir parça kağız tapır, sırıqlımın tikişlərinin arasında gizlətdiyim kiçik qələmlə öz son əsərimi yazırdım. Mən onu meşədə ağac qıranda, şaxtada yer qazanda, vaqonda yol gedəndə yazır (düşərgədə bu mümkün deyildi), gizlincə yorğanımın içinə yığırdım. Əgər onu çölə ötürmək mümkün olsaydı...

Ayaz, əzizim! Mən həmişə inanmışam və yenə də inanıram ki, xalq bu vəziyyətdən xəbərsizdir; bir qismi aparılan gurultulu təbliğata inanıb bizi həqiqətən düşmən hesab edir, əksəriyyət isə vəziyyətin son dərəcə gərgin olduğunu görüb susur.

Mən bunu artıq bir neçə dəfə hiss etmişəm. Doğrudur, bu illər ərzində mən heç bir vətəndaşla üz-üzə söhbət etməmişəm, bu mümkün də deyildir, fəqət, yatab aparılarkən və bu işə gedərkən təsadüfən rast gəldiyimiz tək-tük adamlar bizə necə də kədər və təəssüflə baxır.

Bir hadisə heç yadımdan çıxmır. Bizi **Komi MSSR-dən** Urala yatab aparırdılar. Hansısa lap kiçik bir duracağın yanında mindiyimiz vaqonun təkəri xarab oldu. Bizi heç bir zaman xalqa göstərməyən, daima qapalı vaqonlarda gecə aparan və əhali yaşayan yerlərdən xeyli uzaqda saxlayan keşikçilər vaqonu qatardan açmaq üçün bizi yerə düşürməyə və başqa vaqonlara mindirməyə məcbur oldular.

Yolun qırağında 2 fəhlə qadın işləyirdi. Onlar bizi görcək əllərini işdən çəkib, bellərini düzəltdilər və bizi nəzərdən keçirməyə başladılar. Bu nəzərlərdə nə isə başqa bir şey, nəzarətçilərdə olmayan bir şey – bizə qarşı hüsn-rəğbət görünürdü. Bu baxışlar sanki səbr etməyə, daha dözümlü, daha iradəli olmağa çağırırdı.

Bu qadınlar, gəmidə gördüyü matros, nəzarətçi və əsgərlərdən bizimlə yaxşı rəftar edənlər, bunlar hamısı onu göstərirdi ki, xalq bizi öz düşməni hesab etmir, əksinə, bizim halımıza acıyır.

Bütün bunlar özlüyündə çox xırda şeylər olsa da, lakin bizim xalqa və partiyaya inamımızın doğru olduğunu sübüt edirdi.

İllər gəlib keçdi. Müharibənin 3 ili keçdi. Ordumuz Avropaya girdi. Çoxları, o cümlədən mən də bu ümiddə idik ki, müharibənin qurtarması ilə əlaqədar olaraq dövlətimiz əfviümumi verər, başqaları ilə birlikdə bizi də azad edər.

Təəssüf ki, belə olmadı. Nəinki biz buraxılmadıq, əksinə, həbs düşərgələri yenidən, özü də daha böyük bir sürrətlə dolmağa başladı.

Yeni gələn siyasi dustaqların da “cinayəti” təxminən bizimki kimi qəribə idi. Lakin bunların arasında gənclər daha çox idi. Yeni gəlmiş siyasi dustaqların demək olar ki, əksəriyyəti Ukrayna, Belorusiya, Moldaviya, Piribaltika respublikaları və RSFSR-nin qərb rayonlarından olub, müharibə dövründə işğal olunmuş zonalarda yaşayan yerli əhalidən ibarət idi. İşğal dövründə müxtəlif mülki idarələrdə: hesabdar, hakim, müəllim, mühəndis, katib, dilmanc, qarovulçu, dükandar və s. peşələrdə işləmişdilər.

Digər bir qismi zorla polis xidmətinə cəlb olunanlar idi. Bütün bu şəxslərin demək olar ki, hamısı imkan olan kimi partizanlara qoşulmuş və ya sovet ordusu sıralarına daxil olmuş, müharibənin axırına kimi döyüşlərdə iştirak etmiş, çoxlu igidliklər göstərmiş, əlil olmuş, müxtəlif orden və medallarla təltif olunmuşdular.

Bütün bunlar həmin şəxslərin istəmədən etmiş olduqları xətanı müəyyən qədər yüngülləşdirməli idi. Lakin nədənsə, hər yerdə tiribunallarda bir cür hökm çıxarırdılar – 25 il.

Başqa bir qism siyasi məhbuslar-bunlar əsasən 18-25 yaşlı gənclər idi – müharibədən sonra heç bir cinayət etmədikləri halda həbs olunmuşdular. Bunları, əslində mövcud olmayan müxtəlif antisovet təşkilatlarda iştirak etməkdə, müxtəlif xarici ədəbiyyat oxumaqda, toplanışlar keçirməkdə təqsirləndirirdilər.

Hərbi əsirlər siyasi dustaqların içərisində çoxluq təşkil edirdi. Onların arasında bütün xalqların nümayəndələri var idi. Bunların haqqında edilən zülm heç yerə-göyə sığışan şey deyildi. Əlində tüfəng vətəni müdafiə edəsən, sonra da səni “vətən xaini” adlandırsınlar.

Qərb rayonlarından olan bir sıra məhbusların cinayət işi lap gülməli idi. Onların 1940-cı ilədək (yəni həmin rayonlar SSRİ tərkibinə qoşulanadək) maarif, tibb, inzibati və hərbi orqanlarda xidmət etdiklərinə görə həbs etmişdilər.

Yaşlı bir kişi olan Çervak deyirdi:

– Ay canım, axı mən nə biləydim ki, bizim yerlər sovet ərazisinə qoşulacaq. Həm də ki, müəllim harda işləyir? – Məktəbdə. Mən də məktəbdə işləmişəm. İntəhası, o zaman bizim yerdə başqa bir dövlət quruluşu var idi. Məgər bundan ötəri adamı həbs edərlər? Bizim günahımız nədir?

Doğrudan da, bizim MVD və MQB-nin bu illərdə həbs etdiyi adamların demək olar ki, hamısı vətənə və xalqa sədaqətli insanlar olduqlarına görə həmişə ancaq bu sualı verirdilər:

– Bizim günahımız nədir?

Müharibə qurtarana yaxın həbs düşərgələrində çoxlu dindarlar görünməyə başladı. Bunlar siyasi məhbus adlansalar da, əslində siyasətdən son dərəcə uzaq adamlar idi. Doğrudur, bunların arasında katolik kilsəsinə mənsub olan olduqca mədəni və savadlı adamlar var idi. Lakin onlar da siyasətə qoşulmurdular.

Düşərgəyə qədəm qoyduqları ilk gündən etibarən onlar məhbusları dini təşkilata **“Bratya İeqovı” (İeqov qardaşları)** təşkilatına cəlb etməyə başladılar.

Bizdə heç bir kitab, qəzet və s. olmurdu. Fəqət, bunlar nə üsullasa müxtəlif dini ədəbiyyat və hətta həmin təşkilatın Amerikada nəşr olunan “Armaqeddon” adlı aylıq məcmuəsini də əldə edirdilər. Bunlarda “İncil”-in demək olar ki, bütün dillərə tərcüməsi var idi.

Çoxları kimi mən də uzun illər kitab görmədiyimdən, bu mətbuatla maraqlandım. Aman dostum! Bu “Armaqeddon” məcmuəsində nələr yazılmır...

Bu ki, həqiqi mənada sosializm quruluşuna zidd olan bir şeydir.

Bu təşkilatın üzvləri bir-birinə qardaş deyirlər. Onların yeganə vasitəsi dini təbliğatdır. Bu şəxslərdən birisi Latış keşişi Adonis mənimlə yanaşı yatırdı. O, çox qoca, mən isə xəstə olduğumdan bizə 1ay dinclik vermişdilər. Bu 1 ayın ərzində biz bekar qalıb xeyli söhbət etdik. Adonis bütün var qüvvəsini sərf edərək məni mənsub olduğu dini təşkilata cəlb etməyə çalışırdı. Əvvəllər mən buna əhəmiyyət vermirdim. "Qoy nə deyir, desin" – deyə düşünürdüm. Lakin günlər keçdikcə onun təbliğatı məni bezikdirməyə, əsəbləşdirməyə başladı. Mən əvvəl nəzakətlə, bir qədər sonra tündlüklə və ən axırda kobudluqla məndən əl çəkməyini xahiş etdim.

Qəribədir, bu insanda ən böyük təbliğatçılıq məharəti, nə böyük iradə var. Mən hətta onu ağır sözlərlə təhqir edəndə belə, üzündəki mülayimliyi dəyişmir, dilindəki şirin sözlər acısı ilə əvəz olunmur. Afərin, bax təbliğatçı belə lazımdır: inandırmağı bacaran, sakit və iradəli.

***

Dostum! Məktubu qurtarmışdım ki, azərbaycanlı yoldaşlarımızdan biri təsadüfən düşərgənin içində öldü. O, qapıdakı odun qalağından odun götürmək istərkən iri bir buz parçası gicgahına düşür və elə oradaca ölür.

Mən bu 9 il ərzində minlərlə yoldaşın öldüyünü görmüşəm. Biçarə məhbuslar payız milçəyi kimi hər gün 5-5, 10-10 qırılırdı. Lakin bu ölüm o birilərindən fərqlidir.

Məsələ burasındadır ki, İslam (ölən yoldaşımızın adı belə idi) istirahət günü öldü. Hamı düşərgədə idi. Meyiti gətirib baraka qoydular.

Aradan 5 dəqiqə keçməmiş nəzarətçilər gəlib onu aparmaq istədilər. Məhbuslar bir-birinin sözünü kəsə-kəsə xahiş etməyə başladılar ki, qoy meyiti özümüz basdıraq. Nəzarətçilər çox dedilər, məhbuslar az eşitdilər, əlacsız qalan nəzarətçilər rəisin yanına şikayətə getdilər.

Bu müddətdə bizim barakın ətrafına bəlkə 2000 min adam yığışmışdı.

Yay olduğundan çöl o qədər də soyuq deyildi. Hamı danışır, çığırır, tüpürür və hətta söyürdü.

Rəis nəzarətçilərlə birlikdə gəlib bizə yaxınlaşdı. Keşiş Adonis irəli çıxıb:

– Vətəndaş rəis – dedi, icazə verin yoldaşımızı özümüz basdıraq.

Rəis kinayəli bir tərzdə:

– Qoca, – dedi, axı ölən xristian deyil, məhəmmədidir. Ondan sizə nə yoldaş?

Keşiş aramla:

– Səhv edirsiniz, – dedi, ölən adam həm insan, həm də siyasi məhbus olduğu üçün mənim yoldaşımdır. Dinin bura dəxli yoxdur.

Hər tərəfdən səslər ucaldı:

– Sağ ol, Adonis ata! – doğru deyirsən!

– Yoldaşımızı özümüz basdıracağıq!

– Ölüdən də qorxurlar ki, birdən qaçar.

Rəis vəziyyəti belə görüb bizi sakitləşdirməyə başladı:

– Yaxşı, yaxşı, niyə hay-küy qaldırmısınız? Mən bir söz demirəm. Amma gərək qabaqca ona həkim baxsın, akt bağlansın. Ondan sonra meyit sizin.

Məhbuslar razılıq etdilər.

Tezliklə sançasdan gələn həkimlər meyiti ciddi yoxlamadan keçirib akt bağladılar və çıxıb getdilər.

Meyit barakda qaldı. Yaxın yoldaşlardan başqa keşiş Adonis və keşiş Vasili ata da səhərə qədər onun yanında qaldılar. Səhər 12 nəfərlik mühafizə dəstəsinin müşayiətilə cənazəni çiynimizə alıb düşərgədən çıxdıq. Biz 6 nəfər idik. 4 nəfər nisbətən gənc olan yoldaş cənazəni aparır, keşiş Adonislə mən isə onların dalınca gedirdik.

Düşərgədən 2 km-ə qədər aralanıb cənazəni yerə qoyduq. Yay olduğu üçün hər tərəf isti idi. Qəbir qazmaq üçün hündür bir yer axtarıb tapdıq. Cavanlar qazmağa başladılar. Heç 2 çim qazmamışdılar ki, qazdıqları yer su ilə doldu. Bu dəfə başqa bir yerdən qazdılar. Yenə də həmin şəkildə oldu. 3-cü dəfə qazanda mühafizə dəstəsinin rəisi dedi:

– Nahaq yerə özünüzü incitməyin. Onsuz da burada hər yer sudur.

Biz qəbiri qazıb qurtardıq, lakin o tamamilə su ilə doldu. Biz suyu götürüb atmağı təcrübə etdik. Lakin tezliklə nəticəsiz olduğunu gördük. Su hər yerdən bulaq kimi sızırdı. Əlacsız qalıb İslamın meyitini suyun içərisinə qoyduq. Üstünə bir-iki ağac şaxı düzüb torpaqladıq.

Sabahı gün erkən "qalx" zəngi çalındı, bizi işə aparmadılar. Təxminən, səhər saat 10-da silahlı əsgərlər zonaya doluşdular. Düşərgənin ortasına miz və stullar qoyuldu. Hamını oraya qovub dövrəyə aldılar. Bir-iki dəqiqədən sonra düşərgə rəisi, kiçik işçilər və bir neçə tanımadığımız adam gəlib həmin mizin arxasında oturdu.

Gələnlərdən biri ayağa qalxıb:

– Qulaq asın, – dedi, düşərgələrarası səyyar məhkəmə işə başlayır. Məhkəmə, düşərgə rəisi mayor Malovinin yazılı izahatına əsasən dünən gündüz düşərgədə iğtişaş qaldırmağa çalışan məhbus Adonisin, məhbus Qorbatovski və məhbus Tağıyevin işinə baxmaq üçün toplaşmışdır.

Məhbuslar arasında uğultu başlandı:

– Bu nə deməkdir?

– O yazıqlar nə ediblər ki?

– Yəni ölünü basdırmaq da olmaz?

– Bizi bundan ötəri saxlamısınız?

Hakim əlindəki zəngi çaldı. Lakin zəngə baxan olmadı. Qıy-qışqırıqdan ağız deyəni qulaq eşitmirdi.

Hakimin işarəsi ilə əsgərlər havaya bir neçə güllə atdılar. Bu daha pis təsir bağışladı. Məhbuslar məhkəmə heyətinə hücum etdilər. Hakimlər güclə başlarını götürüb qaçdılar.

Rəis qaça-qaça belə deyirdi:

– Ağılsızlar, bu sizə baha oturacaq.

Doğurdan da,  bu bizə baha oturdu. Aradan bir gün keçmiş, gecə vaxtı əsgərlər keşiş Adonisi, Qorbatovskini, Tağıyevi və daha iki nəfər məhbusu xəlvətcə yuxudan oyadıb apardılar.

Ertəsi gün tikanlı məftillərin o tərəfində məhkəmə keçirildi. Bizi yenə işə aparmamışdılar, lakin bu dəfə aramızda içərisinə elektrik cərəyanı buraxılmış on bir qat tikanlı məftildən ibarət hündür hasar var idi. Biz məhkəmənin gedişini görür, lakin ona mane ola bilmirdik. Məhkəmə tələsik öz hökmünü oxuyurdu: “Düşərgədə iğtişaş qaldırmağa çalışan siyasi məhbus Adonis, Qorbatovski, Tağıyev, Yanovski və Pavlov güllələnməyə məhkum edilir. Hökm yerindəcə icra olunmalıdır.” Biz məftillərin bu üzündə özümüzü didib-tökür, çığırır, yalvarır, söyürdük. Lakin bunun heç bir mənası olmurdu – aramızdakı sədd çox möhkəm idi.

Məhkəmə katibinin hökmü oxuyub qurtarması ilə əsgərlərin atəş açması demək olar ki, eyni vaxtda idi.

Bizim əziz yoldaşlarımız yerə sərildilər. Keşiş Adonis deyəsən yüngül yaralanmışdı. O qalxınıb dizi üstə oturdu və məhkəməyə müraciətlə:

– Zülmün axırı yoxdur, – dedi.

Elə bu an bir neçə güllə onu təkrar yerə sərdi.

Düşərgə rəisi üzünü bizə tərəf tutub:

– Gördünüzmü? – dedi, hər hansı bir itaətsizlik üstündə sizinlə ancaq belə rəftar ediləcəkdir.

Biz baraklara dağılışdıq. Hamı bir-biri ilə küsülü imiş kimi susurdu.

Axşam oldu, hərə öz yerində büzüşüb yatdı. Gecənin qaranlığında hamının yatmış olduğu bir zamanda 2 nəfər –

yəhudi və gənc bir məhbus söhbət edirdilər. Yəhudi özünün kiçik məsləkdaşına darıxmamağı, səbr etməyi məsləhət gördü.

– Həmişə qış ola bilməz, dostum, onun ardınca mütləq bahar gəlməlidi. Sən bilirsən ki, bizim illər uzunu çəkdiyimiz əziyyətlər hədər getməyəcəkdir və gedə də bilməz. İndiki bu sakitlik səni qorxutmasın, bu tufandan əvvəlki bürküdən başqa bir şey deyil, mən inanıram ki, bu bürkü tezliklə sovuşub gedəcək və xalq haqqı nahaqdan seçəcəkdir. O zaman biz də bu əziyyətlərdən xilas olacaq və xalqımızla birlikdə xoşbəxt həyatda yaşayacağıq.

– Eh, – deyə onun müsahibi dolğun bədənli, girdə sifətli, qalın, çatma qaşları olan qarayanız gənc köksünü ötürdü:

– Doğrusu, sizin dedikləriniz nə qədər inandırıcı olsa da, mən yenə şübhə etməkdə davam edirəm. Sizin dediyiniz o xalq elə bir məngənə içərisində, elə bir qorxu içərisindədir ki, o çətin ki, haqqı nahaqdan seçə bilə.

– Elə demə, oğlum! Xalqı incitmək, qorxutmaq, ac saxlamaq mümkündür. Lakin xalq hər hansı bir şəraitdə haqqı axtarıb tapır. Dünyada xalqın ədalətliliyindən daha ədalətli olan bir qanun tapmaq mümkün deyil.

Bu zaman hiss olunmadan içəri girən nəzarətçi Baykov qocaya yanaşdı:

– Ey, qoca qarğa, sən hələ çoxmu qırıldayacaqsan? – dedi.

Qarayanız oğlan yəhudini müdafiə etmək məqsədilə:

– Bağışlayın, vətəndaş nəzarətçi, – dedi, onu mən söhbətə tutmuşdum, başa düşmədiyim şeyləri aydınlaşdırmağı xahiş edirdim.

– Kəs səsini, çuçmek! Sənin qaralığına çox şey bilməkmi yaraşır? (Молчи, чучмек, много ли полагается тебе знатъ с твоей черной шкурой)?

Qarayanız gənc cavab əvəzinə öz qüvvətli yumruğunu nəzarətçinin başına endirdi. Nəzarətçi vəhşiyanə bir səslə çığır-

dı. Onun səsinə qonşu barakları yoxlayan nəzarətçilər tökülüb gəldi. Barakdakılar da yerlərindən qalxıb gəldilər. Böyük bir dalaşma başladı. Qaranlıq içərisində kimin kimi vurduğu bəlli deyildi. Lakin tezliklə müdafiə batalyonundan silahlı əsgərlər tökülüb gəldilər və şil-küt edilmiş nəzarətçiləri məhbusların əlindən alıb bayıra çıxartdılar. Dalaşma qurtarandan sonra hər kəs öz yerinə çəkilib uzandı və pıçıltı ilə olsa da, dalaşmanın nəticəsini və ona nə ola biləcəyini müzakirə etməyə başladılar.

Hamı nəzarətçinin haqsız olduğunu, onun məhbusları, xüsusilə qeyri-rusları təhqir etdiyini bilsə də, işin məhbusların xeyrinə qurtarmayacağını da bilirdi.

Səhər tezdən düşərgə müdafiə batalyonunun silahlı əsgərlərilə doldu. Onlar məhbusları bir-bir tüfəng qundağı ilə döyə-döyə baraklardan çıxarıb düşərgənin aralığına yığmağa başladılar.

Yəhudi kürəyinə dəyən zərbədən yıxıldı və bir daha ayağa qalxmadı. Əsgər onun başına bir-iki tüfəng qundağı endirib ayağa qaldırmağa çalışdı.

İlk anda biz çaşıb qaldıq. Birdən yəhudinin ölmüş olduğunu görüb dəli kimi əsgərin üstünə atıldıq. Əsgərlər başımızın üstündən güllə atdılarsa da, bu sanki həyəcan siqnalı oldu.

Bütün düşərgə bir-birinə qarışdı. Əli silahlı əsgərlər silahsız və zəif dustaqları amansızcasına döyməyə başladılar.

Bu vaxta qədər davaya qarışmayan o biri baraklar da bizə köməyə gəldi. Bu dəfə biz əsgərləri və nəzarətçiləri döyürdük.

Elə bu anda nəzarət postlarından pulemyot atəşi açıldı. Dörd tərəfdən bizi gülləyə tutdular. Cəmisi 2-3 dəqiqə ərzində sakitlik bərqərar oldu.

Bu pulemyot atəşinin nəticəsində 42 məhbus və 4 əsgər öldürülmüş, çoxları ağır və yüngül yaralanmışdı.

İnsan! Sən nə qəribə və mürəkkəb bir vücudsan. Sən həyat üçün doğulur, həyat üçün yaşayır və həyat üçün də

ölürsən. Lakin vaxtsız öləndə adətən müəyyən bir məqsəd uğrunda ölürsən.

Ey insanlar!

Siz vətən uğrunda vuruşanları, quldurlara qarşı mübarizə aparanları və başqa qəhrəmanları əsrlər boyu yaddan çıxarmır, onlara nəğmələr, dastanlar qoşur, abidələr qoyursunuz.

Lakin, məhz siz insanların sədaqətli dostu olan, sizi ürəkdən sevən, sizin xoşbəxtliyiniz üçün çalışan və bu yolda canını qoyan bu adsız qəhrəmanları yada salacaqsınızmı?

Yazıçı Hüseyn Mikayılzadənin məktubları burada qurtardısa da, Ayaz bu məktubların arxasından sanki müəlliminin özünü görür, onunla söhbət edirdi.

O, məktubun sonuncu sözlərini – "Bu adsız qəhrəmanları yada salacaqsınızmı?" sözlərini oxuduqdan sonra xəyalən böyük ustada müraciət edib:

– Bəli, əziz müəllim, – deyirdi, yada salarıq. Sizin və yoldaşlarınızın son dəqiqələrinə qədər sədaqətli olduğu xalq Stalinin şəxsiyyətinə pərəstiş dövründə edilmiş qanunsuzluqları aşkara çıxartdı və onun bütün zərərli nəticələrini aradan qaldırdı. Sizin çoxunuz həlak oldusa da, qalan yoldaşlarınız yenidən həyata qaytarıldı və indi bütün dünyada haqq, ədalət və sülh işi uğrunda əzmlə mübarizə aparırlar. Siz heç də adsız qəhrəmanlar deyilsiniz. Hamınızın təmiz adı bərpa edilmiş, adınızla çoxlu küçələr, parklar, klublar, məktəblər, teatrlar adlandırılmış, haqqınızda çoxlu əsərlər yazılmışdır.

Sizin son arzunuz da – məktublarınızın xalqa çatdırılması yerinə yetirilmişdir.

Mənə elə gəlir ki, Siz ölməmiş, bizimlə bir sırada addımlayırsınız. Siz, xalqımızın mətin, mübariz, adsız qəhrəmanları!

## DƏRMAN OTLARIMIZ, LOĞMAN OTLARIMIZ

***Əhməd Cəfərzadə Şirvan folklor nümunələrini toplamaqla yanaşı bu regionda türkəçarəyə bələd olan insanlardan dərman bitkilərinə aid xeyli məlumatlar da əldə etmişdr. Əldə etdiyi bilgiləri vaxtaşırı oxuculara təqdim etmişdir. Alimin “Azərbaycan təbiəti” jurnalının 1981-ci il birinci sayında çap etdirdiyi “Dərman otlarımız, loğman otlarımız” adlı məqaləsini 35 il sonra yenidən oxuculara təqdim edirik.***

“Mən, 1946-cı ildən bəri şifahi xalq ədəbiyyatı materialları toplamaq məqsədilə Şirvan, Şəki, Muğan, Quba və Qarabağ mahallarını gəzməkdəyəm. Bu müddətdə neçə-neçə qocaman el təbibləri, ağbirçək nənələr və ağsaqqal babalarla dərman bitkilərimiz barədə maraqlı söhbətlər etmişəm. Əsrlərin sınağından çıxmış dərman bitkiləri barədə bu aqillərin dediklərini artırıb-əksiltmədən söylədikləri şəkildə yazıb saxlamışam. Bu şəfalı otlarla, gül-çiçəklə bağlı düzgü, atalar sözü və məsəlləri də onlardan eşitmişəm. Bunlar dərman nüsxəsi deyil, amma əsrlərin, nəsillərin sınağından çıxana inanmamaq da yaxşı olmaz. Ululardan eşitmişəm, sizə deyirəm; yadda saxlayın, gərəyiniz olar.

**1. Boymadərən acıdı,**
**Dəva-dərman tacıdı.**

Boymadərəni yayın orta ayında aladəymiş halda dər, gülünü torbaya yığıb kölgədə qurut, mədən turşuyanda ya dəmlə iç, ya da ovcala, bir çimdik ağzına at.

Təzə boymadərəni qazana töküb arağını çək, saxla. Hər cür mədə ağrıları zamanı bir xörək qaşığı iç.

**2. Üzərliksən havasan,**
**Minbir dərdə dəvasan.**

Üzərliyin tumunu qurudub saxla. Bir stəkan üzərlik tumunu 2 stəkan zeytun yağının içinə töküb asta odda o qədər qaynat ki, cəmi bir stəkan qalsın. Yel xəstəliyindən ağrıyan yerə sürt; xəta-bala səndən uzaq gedər.

**3. Loğmana dedilər: xəstələnmişəm. dedi: get bağayarpağının yanına.**

Bağayarpağının dəymiş tumunu torbaya tök, qurut. İshal xəstəliyi zamanı ondan bir qaşıq dəm çaynikinə at, çay kimi dəmlə iç;

Bağayarpağının tər yarpağını deşilməmiş yaranın üstünə qoysan, yara həm tez deşilər, həm də ağrısı az olar;

Bağayarpağını çiy-çiy yesən, mədə ağrısı kəsilər, iştahan artar.

**4. Allah göülü könlü olanda yaradıb.**

Göülün kötüyünü çıxart, təmizlə (yuma) və xırda-xırda doğrayıb qurut;

Zahı vaxtı soyuq dəymiş qadına və ya babasil xəstəliyi olan adama müalicə üçün doğranmış kötüyü qazana tök, yarım vedrə su əlavə et, möhkəm qaynat, qaynar qazanı xəstənin altına çək. Elə et ki, xəstə qazandan bir qədər yuxarıda qalsın və ona buğ dəysin. Bu zaman xəstəni qurşağa kimi yorğana bürü.

**5. Əvəliyin adı da var, dadı da.**

Əvəliyi qurudub saxla. İshal xəstəliyi olan adama ya yuyulmamış düyüdən aş bişir, içinə əvəlik qat ver yesin, ya da bir çimdik ağzına atıb çeynəsin.

**6. Gülxətmi.**

Bunun gülünü kölgədə qurut, saxla. Bəlğəmgətirici kimi çay dəmlə, 1-2 dəfə iç.

**7. Novruzgülü.**

Həm təzə-tərini, həm də qurudulmuşunu çay kimi dəmləyib bəlğəmgətirici kimi 1-2 dəfə iç.

**8. Onun qarnında elə qurdlar var ki, bir şələ yovşan yesə, yenə qırılmaz.**

Yovşan tum bağlayanda baş hissəsini yığ, kölgədə qurut. Qurdqovucu kimi bir çimdik yovşanı bir stəkan qaynar suda dəmlə, acqarına az-az iç.

**9. Çobanyastığı yeyən adam azar-bezar tanımaz.**

Çobanyastığının gülünü yığ, qurut və quru yerdə saxla. Ondan bir çimdik çay kimi dəmləyib ürəyi ağrıyan adama içirtsən, ağrısı dərhal kəsilər;

Çobanyastığını çiy halında yesən qanın artar.

**10. Adı gicitkandı,**
**Neçə dərdə dərmandı.**

Göy vaxtı duzla ovub yesən və ya üstünə qaynar su töküb pörtlədib yesən, qan dövranın qaydasına düşər;

Gicitkanı döyüb suyunu çıxart, o suyu içən adamın bədənində gicişmə və yara sağalar;

Gicitkanı döyüb yaranın üstünə qoysan, daha tez sağalar.

**11. Lalənin gözəlliyi də var, adamı sakitləşdirməyi də.**

Lalə gülünü may ayının axırlarında yığ, toxumunu qurut. Bundan çay dəmləyib içdikdə və ya bir çimdik ağıza atıb çeynədikdə:

– ürək ağrısı dayanır;
– yuxu tez gəlir;
– əsəbi adam tez sakitləşir.

**12. Yarpız.**

Yarpızı yu, qurut. Ürəyi bulanan adama bundan ya çay dəmlə içsin, ya bir çimdik ağzına at, çeynəsin, ya da bərk bişmiş yumurtaya bir çimdik qat, yesin.

**13. Quşəppəyi ye – quş kimi ol.**

Təzə vaxtı əz, yaralanan yerə qoy, qanaxmanı kəsər;

– təzə-təzə ye, ürəkbulanman keçib getsin.

**14. Nanə.**

Çay kimi dəmlə iç, böyrək və sidiklikdəki ağrıları kəssin.

**15. Məryəmnoxudunun dərman olduğunu eşidib sar noxud dedi: – mən də burda varam.**

Yazın orta ayında yığ, kölgədə qurut, quru yerdə saxla **onu**;

– qaynadıb məlhəm kimi yara üstünə qoy;

– çay kimi dəmləyib ürəkbulanmasına qarşı iç.

**16. Qatırquyruğu təbibdir.**

Yayın axır ayında kötüyünü yığ, doğra və qurut, o kötüyü suda qaynat, gicişməsi olan adamı həmin suda çimdir;

– çay kimi dəmlə, ürəkgetməsi olan adama ver içsin, sağalar.

**17. Qaraçörəkotu işlənməyən evdən azar-bezar əskik olmaz.**

Toxumunu qurudub saxlayırlar. İştahsız adam dəmləyib içər, pendirə qatıb, ya da qovurub yeyər.

**18. Əməköməci qocanı cavan edər.**

Zoğlarını təmizlə, yu, sonra az su ilə, yaxud südlə qaynadıb təngənəfəs olan xəstəyə ver. Sinəsi yumşalar, nəfəsi rahatlaşar.

**19. Təkəsaqqalının xırdalığını neynirsən, iri daşlara güc gəlməyindən danış.**

Onu çiy-çiy yedikdə mədə-bağırsağında olan düyümün açılar, sidikliyində, ödündə və böyrəyində olan xırda daşlar əriyib itər.

**20. Şahtərəni dər saxla,**
**Deynən: məni tər saxla.**

Təzə vaxtı əzib süddə və ya suda qaynat, öskürəkli adama gündə 2 dəfə xörək qaşığı ilə içirt, 1-2 günə hökmünü göstərər:

– şahtərəni bütöv qurut, saxla. Sonra əzib xınaya qat. Başı və ya gözü ağrıyan adamın başına yax. 2 dəfə eləyincədi...

**21. Baxma ki, biyandı,**
**Çətin gündə hayandı.**

Kötüyünü qışda yığ, yu, qurut. Sonra əz, xəmirə qat, çörək bişir. Gicişməsi olan adam yesə, sağalar;

– dəyən vaxtı tumunu yığ, sonra qəbiz olan adama ondan çay dəmlə içsin, 2-3 günə sağalar.

**22. Nazlı otu.**

Baş açan vaxtı yığ, qurut, baş ağrısı zamanı bir çimdik ovub ağıza atan kimi hər şey düzələr;

– göbək ağrısı zamanı suda islat, qaynat, məlhəm kimi qalsın, 1-2 damcı göbəyə damızdır, ağrı kəsilər.

**23. Qazayağı iştah açandır.**

İştahsız olsan, 3 gün dalbadal ondan bişir, ye, iştahın açılar.

**24. Ala qanqalın tikanına baxma, xeyrinə bax.**

Kötüyü, zoğu və toxumu sidikqovucu təsirə malikdir. Onun kötüyünü və zoğunu çiy-çiy acqarına, toxumunu isə qovurub axşamlar yeməlisən.

**25. Dəmrov otu.**

Qurut, saxla, qurusundan bir ovuc götür, iki stəkan suya qat, ta bir stəkan qalıncayadək qaynat. Həmin suyu sevda yarasına sürtsən, sağalar.

**26. Yulğunun özü dərmandı, Səksöülün gözü.**

Gülünü qurut. Bir ovuc bu güldən götürüb 100 qram şit yağda bişir. Alınan məlhəmi ağrıyan qulağın üstünə qoy, sağaldar.

**27. Dəvədabanı.**

Yumamış qurut, sonra əz, qoyun südündə bişir. Təngnəfəs adam bundan gündə 3 dəfə yesə, sağalar.

**28. Baldırğan – əfəlləri qaldırğan.**

Zoğunu təmizlə, lap azca narın duzla zəif adama yedirtsən, qüvvətə gələr.

**29. Öldürgənə dəymək qandı,**

**Özü qotura dərmandı.**

Kötüyünü çıxart, yumamış qurut, əz. Bundan bir ovuc bir iri qazan suya töküb qaynat. Dəri xəstəliyi olan adam 1-2 dəfə bu suda çimsə, sağalar.

**30. Bəlküm.**

Kötük hissəsini yığ, yu,doğra, çiy-çiy bala qat. Hər səhər zəif xəstəyə bir çay qaşığı ver, qüvvətə gətirər.

**31. Adı ityemişi olsa da, xeyiri Cərco yemişindən artıqdır.**

Gül vaxtı kölgədə qurut, saxla. Bundan bir qazan suya bir qaşıq töküb qaynat. Həmin suda çimən adamın bədənindən tər iyi gəlməz;

– ityemişinin təzəsindən bir az, qurusundan bir xörək qaşığı qaynat və sancılanmış adama içirti...

**32. Quzuqulağı.**

Təzə vaxtı yığ, azca suda bişir. Sonra quzuqulağını sıxıb at. Onun suyunun sidikqovucu təsiri var.

**Dastan və nağıllarımızda da loğman otlarımızın şəfaverici təsirindən bəhs olunur: “Dədə Qorqud” dastanındakı Burla xatun öz oğlunu dağ çiçəkləri ilə, “Məhəmməd” nağılındakı Sənubər öz sevgilisini bəlküm və baldırğanla, “Yetim” nağılındakı qarı nəvəsini təkəsaqqalı ilə sağaldır.**

**Bir sıra nağıllarımızda (“Bilici”, “Sehirli dağ” və s.) bitkilər danışır, nəyə dərman olduqlarını özləri deyirlər.**

**Cəmisi 20-30 il bundan əvvəl evlərimizin çoxunda adını çəkdiyimiz və çəkmədiyimiz bir çox dərman otlarından təxminən, hər ailə istifadə edirdi və təbiidir ki, bunları qədirbilənliklə qoruyurdu.**

**Mən burada bir şeyi də də qeyd etmək istəyirəm: dərman bitkilərindən bəhs edərkən onların xalq tərəfindən işlədilən adını göstərmək lazımdır. Çox zaman elə olur ki, qəzet və jurnallarda adı çəkilən bitkini nə qocalar, nə də cavanlar tanıya bilir. Çünki qəzet və jurnallarda bitkinin elmi adı verilir, xalq isə onu başqa adla tanıyır.**

**5-6 dəfə elmi ekspedisiyalara gedib, rast düşən qocaları dindirib danışdırmaqla dərman bitkilərinin bütünlüklə öyrənildiyini güman etmək səhv olardı. Bu sahədə çox iş görülməlidir. Özü də birinci növbədə keçmişdə köçəri və yarımköçəri həyat keçirən qocaları axtarıb tapmaq, nə qədər ki, gec deyil, onların tandığı bitkilərin nəyə dərman olduğunu soruşub öyrənmək laızmdır.**

**Loğman bitkilərimizi gənclərə tanıtmaq, onları hamılıqla mühafizə etmək, əczaçılara gərək olanlarını yığıb apteklərə vermək hamımızın vətəndaşlıq borcumuzdur.**

**Əhməd CƏFƏRZADƏ,**
**Şamaxı, Tava kəndi**

## Filologiya elmləri doktoru, şair Əhməd Cəfərzadəyə ithaf olunmuş şeirlərdən

### AĞAKƏRİM NAFİZ

Necə könlüm aparır canımı canana tərəf,
Bu yəqindir ki, məni qan aparır qanə tərəf.

Qəm tutub dövri-bərim, sinədə əsayiş yox,
Dudi-ahim məni şövq elədi qəlyanə tərəf.

Öz xoşumla bu əyalətdə Nişad olmaz idim,
Məni təqdiri-qəza yazdı bu Səyanə tərəf.

Gərçi seyqəl üçün, ey dil, olu almışdım ələ,
Şanə vurdu sitəm ol zülfi-pərişanə tərəf.

Anladım elmi-siyasətdə zəif olduğumu,
Fikrim oldur ki, gedəm bir də dəbistanə tərəf.

Cümlə aləm mənə düşmən ola qorxum yoxdur,
Sidq ilə mən də sığınnam Şahi-mərdanə tərəf.

Bu qəzəl töhfəsini Əhmədə inşa qıldım.
Yetir, ey badi-Səfa, naləmi Şirvana tərəf.

*"Ədəbiyyat" qəzeti, 04.04.1997*

# FOTOŞƏKİLLƏRİ



Əhməd Cəfərzadənin atası Məhəmməd, anası Böyükxanım, ana nənəsi Seyid Rübabə, bacısı Əzizə (1925)



Əhməd Cəfərzadə gənclik illərində



Əhməd Cəfərzadə gənclik illərində bir dostu ilə




Əhməd Cəfərzadə 1953-cü ildə həbs edilərkən



Əhməd Cəfərzadən 1956-cı ildə Kolımada məhbuslar arasında



Əhməd Cəfərzadə qardaşı Məmməd, həyat yoldaşı
Zabitə və başqa qohumları ilə Tağlı kəndində (20 dekabr 1956)



Əhməd Cəfərzadə qardaşı Məmməd, anası Böyükxanım
və qohumu İzzət xanımla (1956)



Əhməd Cəfərzadə anası Böyükxanımla (1961)



Əhməd Cəfərzadə Cəngən məktəbi müəllimləri ilə (1958)



Əhməd Cəfərzadənin oğulları – Elçin, Mahmud və Aydın (1969).



Əhməd və Məmməd Cəfərzadələr müəllim yoldaşları ilə (1959)



Əhməd Cəfərzadə Tava kənd məktəbi müəllimləri ilə



Əhməd Cəfarzadə Tava kənd məktəbində (1975)



Əhməd Cəfərzadə Moskvada müəllimlər qurultayında
(1975)



Əhməd Cəfərzadə Tağlı kənd məktəbi müəllimləri ilə
(1982)



Əhməd Cəfərzadə Tağlı kənd məktəbi müəllim və şagirdləri ilə (1982)



Əzizə və Əhməd Cəfərzadələr (1989)



Əzizə və Əhməd Cəfərzadələr İranda (1991)



Əzizə və Əhməd Cəfərzadələr İranda (1991)

## KİTABIN İÇİNDƏKİLƏR

Ön söz
Bir nağıldı Əhməd Cəfərzadənin ömür yolu
El-obanın güman yeri idi Əhməd Cəfərzadə
**ƏHMƏD CƏFƏRZADƏNİN ŞEİRLƏRİ**
**GƏRAYLILAR**
Qara baxtım
Zindanda
Biz
Dilbər
Sarı bülbül
Oğlan
Məni
Ey daş
Qurbandır
Deyilmisən?
**QOŞMALAR**
Qara gözlər
Dodağından
Bu gün
Olur
Könlüm
Mənəm, mən
Dostum
Səninlə getdi
Unutma
Sənin
Sənə qurban
Sənə
Odurmu?
Bilmədim
İlahi

Oldum
Zəmanə məni
Dədə
Zindan səsi var
Gəl
Deyirsən
Nakam məhəbbət
Tək səni sevirəm
Olmaz
Olsun
Ey dost
Ay dəli
Xərabə yollar
Ey dost
Bu gün
Bülbül
A dağlar
Olmaz
Mənəm, mən
Qadasın aldığım
Gəlmişəm
Qardaşım
Qara baxtım
Sən oldun
Sabahı gözləyir gözlərim mənim
Oğlum
İnsan
Qara geydi Azərbaycan
Qalıb
Qalıb
Qardaşlarım
Ağlaram
Bilmirəm

Oğul
Qeyrətin
Yusif
Stalindir düşmənim
Dil bağlı
Könlüm
Olsun
Bir yadigar olsun sənə
Gəl ey səhərim
**Qəzəllər**
**Rübailər**
**ƏHMƏD CƏFƏRZADƏNİN XATİRƏ VƏ HEKAYƏLƏRİ**
Eşitdiklərimdən, gördüklərimdən yadımda qalanlar
1937-ci ilin yeddi günü
**GÖZLƏNİLMƏYƏN MƏKTUBLAR**
Birinci məktub
İkinci məktub
Üçüncü məktub
Dördüncü məktub
Beşinci məktub
Altıncı məktub
**DƏRMAN OTLARIMIZ, LOĞMAN OTLARIMIZ**
**FOTOŞƏKİLLƏRİ**



*Seyfəddin Qəniyev*

*Filologiya elmləri doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini (fərqlənmə diplomu ilə) və həmin universitetin aspiranturasını bitirmişdir. "M.F.Axundovun "Kəmalüddövlə məktubları" əsərinin bədii metod və janr xüsusiyyətləri" mövzusunda namizədlik, "Azərbaycan folklorunun özünəməxsus xüsusiyyətləri – Şirvan folklor mühiti" adlı doktorluq dissertasiyalarını müdafiə etmişdir. Şamaxı rayonunun Göylər kənd orta məktəbində ixtisası üzrə müəllim işləmişdir. Sonra ADPU-nun Şamaxı filialında baş müəllim, dosent, kafedra müdiri, tədris və elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır.*

*Pedaqoji fəaliyyəti "Qabaqcıl maarif xadimi", "Metodist müəllim", "SSRİ Maarif əlaçısı" adına layiq görülmüşdür. Elmi və pedaqoji sahədəki xidmətlərinə görə Respublika Prezidentinin sərəncamına əsasən "Tərəqqi" medalı ilə (2009) təltif olunmuşdur.*

*S.Qəniyev AMEA-nın Folklor İnstitutunda fəaliyyət göstərən müdafiə şurasının üzvü (sədr müavini), Respublika Yazıçılar Birliyi Şamaxı bölməsinin sədri, Aşıqlar Birliyi İdarə Heyətinin üzvüdür. AMEA-nın Folklor İnstitutunda çalışan S.Qəniyev müqəddəs Həcc və Kərbəla ziyarətlərində olmuşdur.*



*Tariyel Seyfəddin oğlu Qəni*

*Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü.*

*14 iyun 1983-cü ildə Şamaxı rayonunun Göylər kəndində anadan olub. Göylər kənd orta məktəbini bitirdikdən sonra 1999-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olmuş, 2003-cü ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistraturasına "Folklorşünaslıq və mifologiya" ixtisası üzrə qəbul olmuşdur. 2005-ci ildə magistraturanı fərqlənmə diplomu ilə başa vurduqdan sonra AMEA-nın Folklor İnstitutunun aspiranturasına daxil olmuşdur.*

*2010-cu ildə "XIX əsrin sonu, XX əsrin birinci yarısında Şirvan xalq poeziyasının inkişaf təmayülləri" mövzusunda dissertasiyasını müdafiə etmiş, filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi adına layiq görülmüşdür.*

*O, 6 kitab, 20-dən artıq məqalə və tezisin müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, Prezident təqaüdçüsüdür.*

*Hal-hazırda Azərbaycan Universitetində işləyir.*